KHAZAR REVIEW

№ 376 Sentyabr 2018

XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ

ISSN 2218-2772

khazar-review.khazar.org


Khazar University
Student
Welcome!
Uğurlar!
Welcome!
Good Luck!
New Life
Higher Education
Təbrik edirik!
Successful Career
Good Luck!
New Life
Xəzər Universiteti
Uğurlar!
Always leading the way!
Uğurlar!
Higher Education
New Life
Khazar University
Welcome!
Discovering the World
Always leading the way!
Congratulations!
New Life
Congratulations!
Welcome!
Student
Welcome!
Successful Career
Student
Təbrik edirik!
Student
Welcome!
Xəzər Universiteti









İÇİNDƏKİLƏR

Xəzər Universitetində yeni dərs ili başladı 4
Xəzər Universitetində əməkdaşların təltif olunması mərasimi keçirildi 6
Universitet xəbərləri 8
Görkəmli alim Əjdər Ağayevə həsr olunmuş filmin təqdimatı 12
Professor Hamlet İsaxanlının Kanadaya səfəri 16
Xəzər Universitetinin məzunları dünyanın nüfuzlu universitetlərində təhsillərini davam etdirəcəklər 18
Mühəndislik və tətbiqi elmlər fakültəsinin məzun və tələbələri ölkənin nüfuzlu şirkətlərində işlə təmin olundular 22
Xəzər Universitetində "Platon və müasir fəlsəfə" mövzusunda seminar 26
I Beynəlxalq türk məzar daşları simpoziumu keçirildi 30
"Dünya" xəbərləri 33
Görkəmli bəstəkar Murad Kajlayevlə görüş 38
"Uğuru şəxsi keyfiyyətlər və qazandığın nailiyyətlər gətirir" (*"Xəzər"in məzunu Rəşad İbadovla müsahibə*) 48
" Həyat və karyeranızda elə bir seçim edin ki, sizə bütün qapıları açа bilsin" (*"Xəzər"in məzunu Xəyalə Elyazova ilə müsahibə*) 58
Görkəmli ədib Teyyub Qurbanın "Dönməzlik" kitabının təqdimatı 64
Xəzər Universitetinin müəllimi Ümumdünya festivalında 66
Xəzər Universitetində "Yüz illik əmanət: Qafqaz islam ordusu"adlı panel keçirildi 72

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Əjdər Ağayev
Alla Axundova
Şəbnəm Fəzil
Kryus Aslan

İngilis dilində nəşrlərin redaktoru
Eynur Məhərrəmov

Kompüter tərtibatçısı:
Gönül Həbibova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial members
Isa Habibbeyli
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Kryus Aslan

Editor of English Texts:
Eynur Mahharramov

Computer graphics:
Gunel Habibova

Photo:
Multimedia Centre





XƏZƏR UNİVERSİTETİNDƏ YENİ DƏRS İLİ BAŞLADI

A NEW ACADEMIC YEAR BEGINS AT KHAZAR UNIVERSITY

Sentyabrın 15-də Xəzər Universitetində yeni dərs ilinin başlanmasına həsr olunmuş mərasim keçirildi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, universitetə yeni qəbul olunmuş tələbələr və onların valideynləri, qonaqlar iştirak edirdilər.

Mərasim Azərbaycanın Dövlət Himninin ifası ilə başladı. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, universitetə qəbul olunmuş gəncləri təbrik etdi, universitetin təhsil mühiti və beynəlxalq əlaqələrindən, tələbələrin hərtərəfli inkişafı üçün görülən işlərdən danışdı. Universitetin rektoru Dr. Hassan Niknafs da tələbələri təbrik etdi, onlara təhsillərində uğurlar arzuladı.

H. İsaxanlı, H. Niknafs, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov və Təhsil fakültəsinin dekanı Elza Səmədova universitetə yüksək balla qəbul olunmuş bir qrup tələbəyə tələbə bileti və hədiyyələr təqdim etdilər, onlarla xatirə şəkli çəkildi.

Universitetə yeni qəbul olunmuş tələbələr adından orta məktəbi qızıl medalla bitirmiş, 690 bal toplamış Tamerlan Abdullayev (Mühəndislik və tətbiqi elmlər fakültəsi, kompüter mühəndisliyi ixtisası) çıxış edərək, qardaşı Tuqayla birlikdə (690 bal, Mühəndislik və tətbiqi elmlər fakültəsi, kompüter elmləri ixtisası) Xəzər Universitetini ən yüksək səviyyəli təhsil verən ali məktəb kimi tanıdıqlarına görə seçdiklərini söylədi, tələbələrə uğurlar arzuladı.

On September 15, a ceremony dedicated to the start of a new academic year was held at Khazar University. The ceremony was attended by University administration and staff as well as newly admitted students, their parents and guests.

The ceremony started with the State Anthem of Azerbaijan. Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a speech and congratulated newly admitted students, and talked about international relations of, and suitable education environment at the University for the comprehensive development of students. Dr. Hassan Niknafs, Rector, also congratulated the students and wished them success.

H.Isakhanli, H.Niknafs, Jeyhun Mammadov, Dean of the School of Economics and Management, Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences, and Elza Samadova, Dean of the School of Education, presented a group of students, with high scores of admission, with student IDs and gifts, and had memory photos taken with them.

Tamerlan Abdullayev (the School of Engineering and Applied Sciences, Computer Engineering specialty), who finished secondary school with a gold medal and scored 690 points, delivered a speech on behalf of new students and mentioned that with his brother Tugay (690 points, the School of Engineering and Applied Sciences, Computer Sciences speciality), he preferred Khazar University since they recognize Khazar University offering education of high quality, and congratulated the students.





Universitetin Musiqi və incəsənət departamentinin hazırladığı, M. F. Axundov adına Dövlət Akademik Opera və Balet Teatrının solisti, Xəzər Universitetinin müəllimi Mahsəti Cabbarlı və müğənni tələbələrin iştirakı ilə keçən konsertdən sonra universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı tələbələri auditoriyalara dəvət etdi. Fakültə dekanları, departament müdirləri və əməkdaşlar tələbələrə universitet və ixtisaslar haqqında geniş məlumat verdilər, onların suallarını cavablandırdılar.

Xəzər Universitetində daha bir yeni dərs ili başladı.

A concert program, which was organized by the Department of Music and Fine Arts, was implemented by Mahsati Jabbarli, instructor of Khazar University and a soloist of the State Academic Opera and Ballet Theater named after M. Akhundov, and the students of Khazar university. After the concert, Isakhan Isakhanli, Vice-rector for Administration and Student Affairs, invited the students to the classrooms.

Deans, Heads of Departments and staff informed the students about the University and specialties and answered students' questions.

Another new academic year started at Khazar University.













XƏZƏR UNİVERSİTETİNDƏ ƏMƏKDAŞLARIN TƏLTİF OLUNMASI MƏRASİMİ KEÇİRİLDİ

CEREMONY OF AWARDING EMPLOYEES WAS HELD AT KHAZAR UNIVERSITY

İyulun 10-da Xəzər Universitetində 2017-2018-ci tədris ilinin nəticələrinə əsasən səmərəli fəaliyyətlərinə görə bir qrup əməkdaşın təşəkkürnamə və hədiyyə ilə təltif olunması mərasimi keçirildi. Universitetin rektoru Hassan Niknafs təltif olunanların adlarını açıqladı, Təhsil fakültəsinin dekan müavini Aygün Verdiyeva, Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimova, Mühəndislik və tətbiqi elmlər fakultəsinin dekan müavini Vəfa Aslanova, Magistratura, doktorantura və elmi işlər bölməsinin assistenti Leyla Salayeva, İqtisadiyyat və menecment fakultəsinin dekan assistenti Xanım Nəbiyeva, Mühəndislik və tətbiqi elmlər fakultəsinin müəllimi Tahir Məmmədov, İnformasiya texnologiyaları şöbəsinin assistenti İlkin Əlizadə və "Xəzər Xəbər" jurnalının baş redaktor müavini Əlirza Balayevə təşəkkürnamə və hədiyyə təqdim etdi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, Elmi işlər üzrə prorektor İradə Xəlilova, Təhsil fakültəsinin dekanı Elza Səmədova, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov çıxış edərək, təltif olunanların iş və şəxsi keyfiyyətlərindən danışdılar, onlara fəaliyyətlərində uğurlar arzuladılar.

On July 10, a ceremony was held at Khazar University to award a group of employees for their productive activities based on the 2017-2018 academic year results. Dr. Hassan Niknafs, Rector of the University announced the names of those awarded, and presented plaques of appreciation to Aygun Verdiyeva, Vice Dean of the School of Education; Valide Kerimova, Vice Dean of the School of Humanities and Social Sciences; Vefa Aslanova, Vice Dean of the School of Engineering and Applied Sciences; Leyla Salayeva, Assistent of the Division for Graduate Students and Research; Khanim Nebiyeva, Dean's assistent of the School of Economics and Management; Tahir Mammadov, instructor of the School of Engineering and Applied Sciences; Ilkin Alisade, Assistant of Information Technology Department and Alirza Balayev, Deputy Editor of Khazar Review journal.

Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs; Irada Khalilova, Vice Rector for Research; Elza Semedova, Dean of the School of Education and Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences delivered speeches at the ceremony and talked about the professional and personal qualities of the awarded and wished them success in their future activities.










MƏHƏMMƏD ƏLİ CİNNAH UNİVERSİTETİ İLƏ ANLAŞMA MEMORANDUMU İMZALANDI

MEMORANDUM OF UNDERSTANDING SIGNED WITH MOHAMMAD ALI JINNAH UNIVERSITY

İyulun12-də Pakistanın iki universitetinin nümayəndələri Xəzər Universitetinin "Neftçilər" kampusunda oldular.

Universitetin rektoru, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı vəzifəsini icra edən Dr. Hassan Niknafs, universitetin Elmi işlər üzrə prorektoru Dr. İradə Xalilova və universitetin Beynəlxalq əlaqələr mərkəzinin direktoru Turan Cəfərova Məhəmməd Əli Cinnah Universitetinin Həyat elmləri fakültəsinin dekanı, Bioelmlər departamentinin müdiri Dr. Kamran Azim və NED Ətraf Mühit Mühəndisliyi Universitetinin həmsədri və dosenti Dr.Atif Mustafa ilə görüş keçirdilər. Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirak edirdi.

Görüş zamanı tələbə və əməkdaş mübadiləsi, birgə tədqiqatlar, qısa müddətli proqramlar və qarşılıqlı maraq doğuran digər məsələlər barəsində müzakirələr aparıldı. Görüşün sonunda anlaşma memorandumu imzalandı.


On July 12, representatives from two universities in Pakistan visited Khazar University. The meeting took place on Neftchiler campus of Khazar University.

Dr. Hassan Niknafs, Rector of Khazar University and Acting Dean of the School of Engineering and Applied Sciences, Assoc. Prof. Irada Khalilova, Vice-Rector for Research, and Turan Jafarova, Director of International Affairs Office met with Prof. Dr. M. Kamran Azim, Head of Department of Biosciences and Dean of Faculty of Life Sciences at Mohammad Ali Jinnah University and Dr. Atif Mustafa, Associate Professor and Co-chair at the NED University of Environmental Engineering. Prof. Hamlet Isakhanli, Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees also participated in the meeting.

Parties discussed student and faculty exchange, joint research, short-term programs and other topics of mutual interest. A Memorandum of Understanding was signed at the end of the meeting.



AKADEMİK İSA HƏBİBBƏYLİNİN "QOŞA QANADLARIN HARMONİYASI" ADLI MƏQALƏSİNDƏ PROFESSOR HAMLET İSAXANLININ "ƏLKİMYA: ELM, SƏNƏT VƏ MİSTİKA" KİTABI HAQQINDA



AN ARTICLE "HARMONY OF WINGS" BY ACADEMICIAN ISA HABIBBEYLI TOUCHES ON A BOOK "ALCHEMY: SCIENCE, ART AND MYSTICISM" BY PROF. HAMLET ISAKHANLI

"Ədəbiyyat qəzeti" və "525-ci qəzet"in 2018-ci il 14 iyul tarixli nömrələrində Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəylinin "Qoşa qanadların harmoniyası" adlı məqaləsi dərc olunmuşdur. Elmi idrakla bədii yaradıcılığın sintezi məsələlərinə həsr etdiyi məqaləsində İ. Həbibbəyli görkəmli riyaziyyatçı alim olmaqla yanaşı humanitar elm sahələrində də çoxlu uğurlu əsərlərin müəllifi olan professor Hamlet İsaxanlının yeni - "Əlkimya: elm, sənət və mistika" adlı kitabından da bəhs edərək yazmışdır:

"Fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlının 2018-ci ildə nəşr etdirdiyi "Əlkimya: elm, sənət və mistika" kitabı elmi idrakla bədii düşüncənin sintezi və vəhdəti problemlərinə həsr olunmuş mühüm elmi əhəmiyyətə malik ciddi monoqrafik tədqiqatdır. Bu, - dünya miqyasında geniş mənada ədəbiyyatdan elmə, konkret mənada isə bədii yaradıcılıqdan əlkimya və əlfizikaya, yaxud da əksinə olan elmi-ədəbi prosesləri dərindən araşdırıb ümumiləşmiş şəkildə təqdim edən sanballı tədqiqat əsəridir. Bu, - Azərbaycan elminin bədii təxəyyüllə elmi idrakın qarşılıqlı əlaqələrinin nəzəriyyəsi və təcrübəsinə qiymətli töhfədir."

On June 14, 2018, an article "Harmony of wings" by Academician Isa Habibbeyli, Vice President of Azerbaijan National Academy of Sciences and Chairman of Committee for Science and Education of the Milli Majlis, was published in newspapers "Edebiyyat qezeti" and "525-ci qezet". In the article, which was dedicated to scientific thinking and artistic creativity, Isa Habibbayli touches upon a book "Alchemy: Science, Art and Mysticism" by Prof.Hamlet Isakhanli, a prominent mathematician and author of many works in Humanities:

A book "Alchemy: Science, Art and Mysticism" by Prof. Hamlet Isakhanli, Doctor of Physics and Mathematical Sciences, published in 2018, is a monograph of huge scientific importance dedicated to the synthesis of scientific thinking with artistic thought. This book is a remarkable research work which profoundly studies scientific and literary process ranging from literature to science, more precisely from artistic creativity to alchemy and al physics or vice-versa. This book is a valuable contribution to the theory and practice of mutual relations of artistic imagination and scientific thinking of Azerbaijani science.

PROFESSOR HAMLET İSAXANLI IV "FİZİKA VƏ LİRİKA" KONFRANSINDA ƏSAS MƏRUZƏ İLƏ ÇIXIŞ ETMİŞDİR

PROFESSOR HAMLET ISAKHANLI DELIVERS A REPORT AT IV "PHYSICS AND LYRICS" CONFERENCE

İyulun 17-də AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə AMEA Botanika İnstitutunda və Mərkəzi Nəbatat Bağında "Qoşa qanad: elmi idrakla bədii yaradıcılığın sintezi" mövzusunda IV "Fizika və lirika" konfransı keçirilmişdir.


Konfransda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Əlkimya və əlfizikadan böyük ədəbiyyata" mövzusunda əsas məruzə ilə çıxış etmişdir.

Tədbirdən AZƏRTAC başda olmaqla (*https://azertag.az/xeber/Dorduncu_Fizika_ve_lirika_konfransi_cherchivesinde_Qosa_qanad_elmi_edebi_gecesi_kechirilib-1180384#Kalibri*) ölkə mediası xəbər yaymışdır.

On Jule 17, IV "Physics and Lyrics" Conference on "A pair of wings: Synthesis of Scientific Thinking and Artistic Creativity" was held, on organizational support of Institute of Literature named after Nizami Ganjavi, ANAS, at the Institute of Botany, ANAS, and Central Botanical Garden.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered the main report entitled "From Alchemy and Al physics to Great Literature" at the conference.

Media outlets in the country, including AZERTAG (*https://azertag.az/xeber/Dorduncu_Fizika_ve_lirika_konfransi_cherchivesinde_Qosa_qanad_elmi_edebi_gecesi_kechirilib-1180384#Kalibri*), spread news about the event.



İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN BAŞ MÜƏLLİMİNİN POETİK TƏRCÜMƏLƏR KİTABI ÇAPDAN ÇIXMIŞDIR

A BOOK OF POETIC TRANSLATIONS BY SENIOR INSTRUCTOR OF THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE IS PUBLISHED

Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirovanın "Yaşamağa nə var ki!.." adlı poetik tərcümələr kitabı Xəzər Universitetinin Nəşriyyatında çapdan çıxmışdır. Kitabda müəllifin son illərdə Azərbaycan şairlərindən ingiliscəyə tərcümə etdiyi poetik nümunələr toplanmışdır. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı kitaba qısa ön söz yazmışdır.

Poetik məcmuədə Hamlet İsaxanlı, Zəlimxan Yaqub, Məmməd Araz, Cəfər Cabbarlı, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Əli Kərim, Nəriman Həsənzadə və Baba Vəziroğlunun ingilis dilində şeirləri oriyinalları ilə birlikdə yer almışdır.

A book of poetic translations entitled *"Yaşamağa nə var ki!.."* by Firangiz Nasirova, Senior instructor of the Department of English Language and Literature, has been published at Khazar University press. The book compiles the poetic samples of Azerbaijani poets which are translated by the author in recent years.The book compiles the poetic samples of Azerbaijani poets which are translated by the author in recent years.A foreword to the book is by Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

The book contains poems translated into English, along with original versions, by Hamlet Isakhanli, Zalimkhan Yagub, Mammad Araz, Jafar Jabbarli, Huseyn Arif, Bakhtiyar Vahabzadeh, Ali Karim, Nariman Hasanzadeh and Baba Viziroghlu.



QARDAŞLAR XƏZƏR UNİVERSİTETİNİ SEÇDİLƏR

BROTHERS CHOOSE KHAZAR UNIVERSITY

Ağdaş rayonunun Laki qəsəbəsindən iki qardaş - Tamerlan Abdullayevlə Tuqay Abdullazadə eyni qrup üzrə eyni bal toplayaraq, Xəzər Universitetinin eyni fakültəsinə - Mühəndislik və tətbiqi elmlər fakültəsinə daxil olmuşlar.

Tamerlan Laki qəsəbəsindəki 6 saylı tam orta məktəbin məzunudur. 5 il müddətində Ağdaş rayonu M.Şeyxzadə adına Texniki, təbiət və humanitar fənlər təmayüllü gimnaziyada təhsil alıb. IX sinifdə oxuyarkən riyaziyyat olimpiadasında bürünc medal qazanıb. XI sinfi bitirəndə isə qızıl medala layiq görülüb.Tamerlan qəbul imtahanını I qrup üzrə verərək, 690 bal toplamış, kompüter mühəndisliyi ixtisasına qəbul olunmuşdur.

Tuqay Abdullazadə isə orta təhsilə Ağdaş rayonu M.Şeyxzadə adına Texniki, təbiət və humanitar fənlər təmayüllü gimnaziyada başlayıb. Sonra Ağdaş Özəl Türk Liseyinə (hazırda fəaliyyət göstərmir) imtahan verərək, birbaşa V sinifdən VII sinfə keçib. Bir il sonra təhsilini Laki qəsəbə 6 saylı tam orta məktəbində davam etdirib. Orada oxuduğu 4 il müddətində davamlı olaraq fənn olimpiadalarında iştirak edib. Hər dəfə finala çıxıb. İki dəfə medalçı olub. Məktəbi də qızıl medalla bitirib. Qəbul imtahanı zamanı o da qardaşı kimi 690 bal toplayaraq kompüter elmləri ixtisasına qəbul olunub.

Tamerlan və Tuqay Xəzər Universitetini burada yüksək təhsil verildiyinə əmin olduqlarına görə seçdiklərini bildirdilər.

Qeyd edək ki, qardaşlar müəllim ailəsində dünyaya göz açmışlar. Ataları Səbuhi Abdullayev və anaları Gülnarə Məmmədova ali təhsilli Azərbaycan dili və ədəbiyyatı müəllimidirlər.

Two brothers, Tamerlan Abdullayev and Tugay Abdullazadeh, from Laki settlement, Aghdash region, scoring the same points on the same group, entered the same school at Khazar University, the School of Engineering and Applied Sciences.

Tamerlan is a graduate of school #6 at Laki settlement. He studied at Technical, Natural and Humanitarian disciplines Gymnasium named after M.Sheykhzadeh for 5 years in Aghdash region. He was awarded a bronze medal at math Olympiad when he was studying in IX grade. Moreover, he was awarded a gold medal when he finished the secondary school. At the entrance exam, he scored 690 points and entered university, a speciality of Computer Engineering.

Tugay Abdullazadeh started school at Technical, Natural and Humanitarian disciplines Gymnasium named after M.Sheykhzadeh. Then he passed an exam at Aghdash Private Turkish Lyceum (is not functioning now) and was transferred from V grade to directly VII grade. After one year, he continued his education at school #6 in Laki settlement. During his education at this school, he regularly participated in Olympiads and succeeded in getting a final stage of a competition. He was awarded a medal twice. He also finished the school with a gold medal. At the university entrance exam, like his brother, he scored 690 points and entered university, a speciality of Computer Sciences. Both parents of the brothers are teachers. Their father, Sabuhi Abdullayev, and mother, Gulnara Mammadova, are Azeri Language and Literature teachers with graduate diplomas.



GÖRKƏMLİ ALİM ƏJDƏR AĞAYEVƏ HƏSR OLUNMUŞ FİLMİN TƏQDİMATI

PRESENTATION OF A FILM DEDICATED TO AJDAR AGHAYEV, A PROMINENT SCHOLAR

İyulun 20-də Xəzər Universitetinin Mərkəz kampusunda Azərbaycan Təhsil Şurasının təşkilatçılığı ilə görkəmli alim-pedaqoq, Azərbaycan Təhsil Şurasının sədri, əməkdar müəllim, Prezident təqaüdçüsü professor Əjdər Ağayevin həyat və yaradıcılığından bəhs edən "Müəllimlər müəllimi" sənədli filminin təqdimatı keçirildi. Mərasimdə Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov, filmin ideya və ssenari müəllifi, quruluşçu rejissoru professor Əlinasir İmanlı, Təhsil Şurası İdarə Heyətinin üzvləri, tanınmış pedaqoq alimlər, Ə.Ağayevin yetirmələri və ailə üzvləri, həmçinin Xəzər Universitetinin əməkdaşları - İnkişaf mərkəzinin layihə meneceri Ülkər Bayramova və "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev iştirak edirdilər.

Tədbiri səhhətinə görə mərasimə qatıla bilməyən professor Ə. Ağayevin həyat yoldaşı, biologiya müəllimi Zəkiyyə Sailova açaraq, zala toplaşanları salamladı və ailələri adından onlara minnətdarlığını bildirdi.

Təqdimat mərasiminin aparıcısı - Bakı Dövlət Sosial-İqtisadi Kollecinin direktoru, pedaqogika üzrə elmlər doktoru Vidadi Orucov film və onun yaradıcısı Əlinasir İmanlı haqqında qısa məlumat verdi. Bildirdi ki, professor Əldər Ağayevin anadan olmasının 80 illiyi münasibətilə həsilə gəti-

On June 20, a presentation of a documentary film "Teacher of teachers" dedicated to life and career of Prof. Ajdar Aghayev, a prominent pedagogue, Honored Teacher, Presidential scholarship awardee, took place, on an organizational support of Azerbaijan Education Council, on the Central campus of Khazar University. Jasarat Valehov, Head of Division of Public Relations of the Ministry of Education, Alinasir Imanli, Director and Scriptwriter of the film, Board Members of Azerbaijan Education Council, prominent scholars and pedagogues, Ajdar Aghayev's family members, students as well as Ulkar Bayramova, Project Manager at Center for Development of Khazar University, and Alirza Balayev, Deputy Editor-in-Chief of "Khazar Review" journal and Honored Journalist, participated in the event.

Ajdar Aghayev's spouse Zakiyya Sayilova, a Biology teacher who was not able to participate in the jubilee ceremony due to her poor health, delivered an opening speech greeting and thanking the participants.

Presenter of the ceremony, Vidadi Orujov, D.Sc. in Pedagogy and Director of Baku State Socio-Economic College, gave a short information about the film and Alinasir Imanli, Director of the film. He

rilən sənədli filmdə böyük alimin Azərbaycan pedaqogika elminə gətirdiyi yeniliklər təhlil edilib, fəaliyyəti müasirləri tərəfindən dəyərləndirilib.

Sonra film nümayiş etdirildi və geniş müzakirələr aparıldı. Ə.İmanlı sənədli lentin üzərində apardığı yaradıcılıq işindən danışdı. Qocaman təhsil işçisi, pedaqogika üzrə fəlsəfə doktoru Nəcəf Nəcəfov, ADPU-nun dekanı, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov, BDU-nun dekanı, pedaqogika üzrə elmlər doktoru, professor Hikmət Əlizadə, professor Vidadi Xəlilov, Azərbaycan Milli Konservatoriyasının nəzdində Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor Nazim Kazımov, ADU-nun dosenti Vidadi Bəşirov, pedaqogika üzrə elmlər doktoru, professor Hümeyir Əhmədov çıxış edərək, filmin professor Ə.Ağayevin çoxşaxəli fəaliyyəti və yaradıcılığı barədə geniş təsəvvür yaratdığını söylədilər. Filmdə Ə. Ağayev haqqında danışanlar tərəfindən onun elmi, publisistik, bədii yaradıcılıq fəaliyyətinin dərin təhlilinin verildiyi, yüksək insani keyfiyyətlərinin açılıb göstərildiyi qeyd olundu.

Xəzər Universiteti İnkişaf mərkəzinin layihə meneceri, Lənkəran Dövlət Universitetinin dissertantı Ülkər Bayramova öz elmi rəhbəri Əjdər Ağayevin gənc tədqiqatçılara göstərdiyi böyük qayğıdan söhbət açdı.

Sonda yazıçı-publisist, tarix üzrə fəlsəfə doktoru Sahib Sailov çıxış edərək, filmi yüksək qiymətləndirdi, onun yaradıcı heyətinə, təqdimatın təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirdi.

Azərbaycan Təhsil Nazirliyinin orqanı "Azərbaycan müəllimi" qəzetinin 2018-ci il 23 iyul tarixli nömrəsində tədbir haqqında "Müəllimlər müəllimi" filmi təqdim olunub" sərlövhəli geniş xəbər dərc edilib. Xəbəri bu linkdə oxumaq olar:

http://muallim.edu.az/news.php?id=1883#Kalibri

also mentioned that in the movie, which is dedicated to 80th anniversary of Prof. Ajdar Aghayev, pedagogical innovations introduced by Ajdar Aghayev were analyzed and his scientific activity was highly valued by his contemporaries.

Upon demonstration, the film was discussed at greater length. A.Imanli talked about the production process of the film. Najaf Najafov, a senior educator, PhD in Pedagogy, Prof. Farrukh Rustamov, D.Sc. in Pedagogy, Honored Scholar, Prof. Hikmat Alizadeh, Dean at Baku State University and D.Sc. in Pedagogy, Prof. Vidadi Khalilov, Prof. Nazim Kazimov, Director of Music College affiliated with National Conservatory of Azerbaijan and Honored Art Worker, Vidadi Bashirov, Assoc. Prof. at Azerbaijan University of Languages, and Prof. Humeyir Ahmadov delivered speeches sharing their views on a rich pedagogical career of Ajdar Aghayev. Speakers also mentioned that the film provides profound analyses on a scientific and publisistic performance of Ajdar Aghayev.

Ulkar Bayramova, Project Manager at Center for Development of Khazar University and PhD candidate at Lankaran State University, talked about Ajdar Aghayev's, who is her PhD research supervisor, care for young researchers.

At the end, Sahib Sailov, a writer and publicist, delivered a speech and expressed his gratitude to the film crew and participants.

An article with headline *"Presentation of a film "Teacher of teachers"* was published in "Azerbaijani teacher" newspaper, June 23, 2018, a body of the Ministry of Education.

The news is is available through the following link:

http://muallim.edu.az/news.php?id=1883#Kalibri

XƏZƏR UNİVERSİTETİNDƏ AÇIQ QAPI GÜNLƏRİ KEÇİRİLDİ

İyulun 31-dən avqustun 13-dək Xəzər Universitetində Açıq Qapı Günləri keçirildi. Açıq Qapı Günlərini keçirməkdən məqsəd Dövlət İmtahan Mərkəzinin iyulun 30-dan avqustun 13-dək elan etdiyi ali təhsil müəssisəsi və ixtisas seçimi prosesində abituriyentlərə əsaslı yardım göstərməkdən ibarət idi.

Həmin müddət ərzində universitetin Mərmər salonunda dekan və departament müdirləri, əməkdaşlar abituriyent və valideynləri qəbul edərək, Azərbaycanın ali təhsil müəssisələri arasında Xəzər Universitetinin yüksək reytinqi, təhsil şəraiti, ixtisaslar, təhsil haqqındakı güzəştlər, maddi baza və s. haqqında onlara geniş məlumat verdilər, suallarını ətraflı cavablandırdılar.

Abituriyentlər universitet əməkdaşları ilə görüşdən məmnun qaldıqlarını və bunun universitet və ixtisas seçimində onlara istiqamət verəcəyini bildirmişlər.

"OPEN DOOR" DAYS CONDUCTED AT KHAZAR UNIVERSITY

On July 30 - August 13, the Open Door Days were held at Khazar University. The main purpose of conducting the Open Door Days was to provide a substantial help to applicants in the process of selection of the higher education institution and the specialty announced by the State Examination Center from July 30 to August 13.

During that time, deans, heads of departments, associates of Khazar University received abiturients and parents, and provided them with detailed information about high rating of Khazar University, educational conditions, resources and facilities, specialties, discounts on education, and answered their questions.

The abiturients expressed their satisfaction with meeting the university staff and believed this would contribute to their specialty choice.



"DÜNYA" JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" Təhsil Kompleksinin nəşri olan "Dünya" jurnalının 2018-ci il aprel nömrəsi (25-ci nömrə) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.

NEW ISSUE OF "DUNYA" JOURNAL IS PUBLISHED

April issue (number 25) of 2018 for "Dunya" journal, a publication of "Dunya" Education Complex affiliated with Khazar University, has been published at the Khazar University press.

XƏZƏR UNİVERSİTETİNİN QOŞULDUĞU LAYİHƏ QALİB OLDU

Erasmus+ layihələrinin nəticələri elan olunub. Xəzər Universitetinin partnyor kimi qoşulduğu layihələrdən biri qalib olub. Bu, Niderland Biznes Akademiyasının koordinator olduğu "Mediation: training and society transformation/ MEDIATS" layihəsidir.

THE PROJECT, JOINED BY KHAZAR UNIVERSITY, HAS WON

The results of Erasmus + projects have been released. One of the projects that Khazar University has joined as a partner has won. This is the *Mediation: training and society transformation / MEDIATS"* project coordinated by the Netherlands Business Academy.

"AUDİTORİYADA İLK GÜN" ADLI SEMİNAR

Sentyabrın 13-də Xəzər Universiteti İnkişaf mərkəzi və Təhsil fakültəsinin təşkilatçılığı ilə Erasmus+PETRA layihəsi çərçivəsində Fulbrayt professoru Qaisar Sultana'nın təqdimatında "Auditoriyada ilk gün" adlı seminar keçirildi. Professor Sultana öz təcrübələrini iştirakçılarla bölüşməklə yanaşı, elmi-tədqiqat nəticələrini də onların diqqətinə çatdırdı.

Seminarda fakültələrin müəllimləri və kitabxana əməkdaşları iştirak edirdilər.



SEMINAR ON "THE FIRST DAY IN THE AUDITORIUM"

On September 13, a seminar entitled "The first day in the auditorium", organised by the Center for Development and the School of Education, was conducted by Fulbright Prof. Qaisar Sultana within Erasmus+PETRA project. Prof. Qaisar Sultana shared her experience and results of the research with the participants.

Faculty members, instructors and library staff attended the seminar.





PROFESSOR HAMLET İSAXANLININ KANADAYA SƏFƏRİ

PROFESSOR HAMLET ISAKHANLI'S VISIT TO CANADA

Avqustun 13-18-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı onu müşayiət edən kinorejissor Vladimir Mun`la birlikdə Kanadaya səfər etdi.

Səfərin məqsədi Hamlet İsaxanlının 1985-87-ci illər Kanada səfərlərinin izi ilə getmək, uyğun universitet, şəxslər və yerləri daha bir dəfə görmək, həmçinin bəzi çəkilişlər etmək və yeni münasibətlər yaratmaq idi.

Hamlet İsaxanlı əvvəllər mühazirələr oxuduğu, elmi konfrans və seminarlarda çıxış etdiyi üç Kanada universiteti - Toronto, Calgary və Dalhousie universitetlərindən ikisində - Toronto və Calgary universitetlərində oldu. O, Calgary universitetində oxuduğu mühazirələrdə iştirak edən, hazırda təqaüddə olan iki görkəmli riyaziyyatçı - 102 yaşlı professor Richard Gay və 90 yaşlı professor Peter Lancaster ilə görüşdü - birinci ilə üz-bəüz, ikinci ilə qiyabi olaraq.

Hamlet İsaxanlı Calgary Universiteti Riyaziyyat və statistika departamentinin müdiri professor Tony Ware ilə görüşüb iki universitet arasında, xüsusilə riyaziyyat və onun tətbiqləri üzrə yaxın əlaqələrin yaradılması barədə razılıq əldə etdi.

Hamlet İsaxanlı yenə 1985-87-ci illərdə baş tutmuş səfərlərinin izi ilə məşhur Lake Louise gölünü, Kanadanın məşhur milli parkı Banff`ı və bəzi zirvələrinə çıxdığı Rocky Maountain dağlarını da ziyarət etdi.

On August 13-18, Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, travelled to Canada together with Vladimir Mun, a film director.

The purpose of the visit was to walk through the traces of Hamlet Isakhanli's 1985-87 Canadian trips, to see the relevant universities, individuals and places, to make some filming and build new working relationships.


Hamlet Isakhanli had delivered lectures and speeches at conferences and seminars before at Toronto, Calgary and Dalhousie universities two of which, Toronto and Calgary universities, he recently visited. He met with two prominent mathematicians, Prof. Richard Gay, 102 years old and Prof. Peter Lancaster, 90 years old, who had attended his lectures delivered at Calgary University and currently are retired, face-to-face and through correspondence respectively.

Hamlet Isakhanli met with Professor Tony Ware, Head of the Department of Mathematics and Statistics at University of Calgary and they agreed to establish close relationships, especially on Mathematics and its applications, between the two universities.

Hamlet Isakhanli also visited, following the traces of the trips made in 1985-87, the famous Lake Louise, Banff National Park, Canada's famous national park and the Rocky Mountains, some peaks of which he had climbed before.











XƏZƏR UNİVERSİTETİNİN MƏZUNLARI DÜNYANIN NÜFUZLU UNİVERSİTETLƏRİNDƏ TƏHSİLLƏRİNİ DAVAM ETDİRƏCƏKLƏR

THE UNDERGRADUATES OF KHAZAR UNIVERSITY WILL CONTINUE THEIR EDUCATION AT PRESTIGIOUS UNIVERSITIES OF THE WORLD

Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsindən 2017/2018-ci tədris ilində məzun olmuş tələbələrin bir qismi təqaüdlü və təqaüdsüz təhsil proqramları ilə dünyanın müxtəlif ali təhsil müəssisələrinin magistratura pilləsinə qəbul olunmuşlar. Həmin tələbələri təqdim edirik:

Some undergraduates, 2017/2018 Academic year, of the School of Engineering and Applied Sciences of Khazar University have been admitted to Master's degree programmes (scholarship and non scholarship) at various prestigeous universities of the world. We present those students:



Nərmin Səlimova
Grenoble Alpes Universiteti, Fransa
İxtisas: Nanoelm və nanotexnologiyalar
Təqaüdlü təhsil

Narmin Salimova
Grenoble Alpes University, France
Major: Nanoscience and Nanotechnologies
Scholarship program



Nəzrin Babayeva
Linnaeus Universiteti, İsveç
İxtisas: Davamlı enerji prosesləri
Təqaüdlü təhsil

Nazrin Babayeva
Linnaeus University, Sweden
Major: Sustainable Energy Process
Scholarship program



Lətif Quliyev
Eötvös Loránd Universiteti (ELTE), Macarıstan
İxtisas: Kompüter elmləri
Təqaüdlü təhsil

Latif Guliyev
Eötvös Loránd University (ELTE), Hungary
Major: Computer Science
Scholarship program




Beydulla Zeynalov
Óbuda Universiteti, Macarıstan
İxtisas: Kompüter mühəndisliyi
Təqaüdlü təhsil

Beydulla Zeynalov
Óbuda University, Hungary
Major: Computer Engineering
Scholarship program



Tərlan Həsənli
Tartu Universiteti, Estoniya
İxtisas: Kompüter mühəndisliyi
Təqaüdlü təhsil

Tarlan Hasanli
Tartu University, Estonia
Major: Computer Engineering
Scholarship program



Sultan İsmayılov
Ruhr Universiteti Bochum,
Almaniya
İxtisas: Hesablama mühəndisliyi

Sultan Ismayilov
Ruhr University Bochum,
Germany
Major: Computational Engineering



Adil Babayev
Budapest Texnologiya və İqtisadiyyat
Universiteti, Macarıstan
İxtisas: Nəqliyyat mühəndisliyi
Təqaüdlü təhsil

Adil Babayev
Budapest University of Technology
and Economics, Hungary
Major: Transportation Engineering
Scholarship program



Lamiyə Məmmədova
City University of London,
Böyük Britaniya
İxtisas: Kiber təhlükəsizlik
Təqaüdlü təhsil

Lamiya Mammadova
City University of London, UK
Major: Cyber Security
Scholarship program



Arsham Sarıbəyli
Alberta Universiteti, Kanada
İxtisas: Kompüter mühəndisliyi

Arsham Saribeyli
Alberta University,
Canada
Major: Computer Engineering

TƏHSİL MÜTƏXƏSSİSİ XƏZƏR UNİVERSİTETİNİ NÜMUNƏ GÖSTƏRDİ

EDUCATION EXPERT CITED KHAZAR UNIVERSITY AS A MODEL

2018-ci il avqustun 22-də moderator.az saytı təhsil mütəxəssisi Elçin Əfəndi ilə "Boş qalan yerlərə ərizə verənlərin ən böyük səhvi – "özəl"ləri seçməkdən qorxurlar" sərlövhəli geniş müsahibə dərc etmişdir. Təhsil eksperti qeyd edib ki, son illərdə bir neçə özəl universitetin bağlanması ilə əlaqədar valideynlərdə, "övladları çöldə qalar" deyə, özəl universitetlərə inam azalıb. Bununla belə, o, Xəzər Universitetini nümunə göstərərək söyləyib ki, "bu, Xəzər Universitetində keyfiyyətli təhsillə bağlıdır. Bundan başqa, dünya universitetlərinin reytinq sıralamasında Azərbaycanı təmsil edən yeganə ali təhsil müəssisəsi Xəzər Universitetidir."

Müsahibəni bu linkdə oxumaq olar:

http://www.moderator.az/news/237291.html #Kalibri

On August 22, 2018, moderator.az website released an interview with Elchin Efendi, an education expert, entitled "The biggest mistake of those applying for vacant places is fear of choosing "private" universities". The education expert noted that due to the closure of several private universities in recent years, parents have lost their trust in private universities, saying that 'their children might be left out'. Nevertheless, he pointed to Khazar University as saying: "It is connected with quality education at Khazar University. Moreover, Khazar University is the only Azerbaijani university in the rankings of world universities."

The interview is available at:

http://www.moderator.az/news/237291.html #Kalibri

PROFESSOR HAMLET İSAXANLI ALİ TƏHSİLDƏ İNGİLİS DİLİNİN YERİ İLƏ BAĞLI FİKİRLƏRİNİ BÖLÜŞDÜ

PROFESSOR HAMLET ISAKHANLI SHARED HIS VIEWS ON THE ENGLISH LANGUAGE IN HIGHER EDUCATION

2018-ci il sentyabrın 3-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı AzEdu.az saytına açıqlamasında Azərbaycanın ali təhsil müəssisələrində ingilis dilinin yeri və təsirləri ilə bağlı fikirlərini bildirmişdir.

Daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

http://azedu.az/az/news/5894

http://www.moderator.az/news/238630.html

On September 3, 2018, in his statement to AzEdu.az, Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, shared his views on the place and impact of the English language in higher educational institutions of Azerbaijan.

For further information:

http://azedu.az/az/news/5894

http://www.moderator.az/news/238630.html

TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMLƏRİ "MİLLƏT SİZƏ MİNNƏTDARDIR!" ADLI SƏRGİNİN AÇILIŞINDA İŞTİRAK ETDİLƏR

Sentyabrın 14-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, departamentin müəllimləri Səbuhi Əhmədov və Orxan Zamanov AMEA Milli Azərbaycan Tarixi Muzeyində "Millət sizə minnətdardır!" adlı sərginin açılış mərasimində iştirak etdilər.

Qafqaz İslam Ordusu və Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş sərgi Milli Azərbaycan Tarixi Muzeyi və Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı səfirliyinin birgə səyləri ilə təşkil olunmuşdu. Açılış mərasimi Muzeyin Şərq zalında keçirildi – əlamətdar haldır ki, 100 il əvvəl bu zalda H.Z.Tağıyev, başda Nuru Paşa olmaqla, Qafqaz İslam Ordusunun komandanlığı şərəfinə ziyafət vermişdi.

Sərginin açılış mərasimində Milli Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlı, AMEA-nın İctimai elmlər bölməsinin akademik-katibi akademik Nərgiz Axundova, Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi, Prezidentin köməkçisi professor Dilarə Seyidzadə çıxış etdilər. Sərginin kuratoru Səbuhi Əhmədov sərginin mahiyyəti, strukturu və eksponatları haqqında məlumat verdi.

Çıxışlardan sonra sərgiyə baxış keçirildi.

Qeyd edək ki, sərgi 2018-ci il dekabrın 14-nə kimi davam edəcək.

Sərgidə 1918-ci ildə Azərbaycanda baş vermiş hərbi-siyasi hadisələr, o cümlədən, Bakı Sovetinin anti-Azərbaycan siyasəti, azərbaycanlıların soyqırımı, Qafqaz İslam Ordusunun yaradılması və Bakının azad edilməsi ilə nəticələnmiş iyun-sentyabr yürüşü əyani şəkildə nümayiş etdirilir. Sərgidə Muzeyin Silahlar və bayraqlar fondu, Xatirə əşyaları və hədiyyələr fondu və Köməkçi tarixi fənn materialları fondundan 120-dən artıq unikal tarixi eksponat təqdim edilir.

INSTRUCTORS OF THE DEPARTMENT OF HISTORY OF ARCHAEOLOGY PARTICIPATE IN THE OPENING CEREMONY OF THE EXHIBITION "PEOPLE ARE GRATEFUL TO YOU!"

On September 14, Roza Arazova, Head of the Department of History of Archaeology, Sabuhi Ahmadov and Orkhan Zamanov, Instructors of the Department, participated in the opening ceremony of the exhibition "People are grateful to you!" held at the National Museum of History of Azerbaijan, ANAS.

The exhibition, dedicated to 100th anniversary of the Islamic Army of the Caucasus and liberation of Baku, was organized on a joint attempt of the National Museum of History of Azerbaijan and Embassy of Turkey to Azerbaijan. The ceremony was held at "Orient" hall of the Museum. It is remarkable that 100 years ago H.Z.Taghiyev held a reception in honour of the Islamic Army of the Caucasus, and especially in honor of Nuru Pasha.

Academician Naila Valikhanli, Director of the Museum; Academician Nargiz Akhundova, Academic-Secretary of the Department of Social Sciences of ANAS; Erkan Ozoral, Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Turkey to the Republic of Azerbaijan; Prof. Dilara Seyidzadeh, Head of the Secretary of the President of the Republic of Azerbaijan and Assistant to the President, delivered speeches at the opening ceremony. Sabuhi Ahmadov, Curator of the exhibition, provided information on the essence, structure and exhibits of the exhibition.

After the speeches, the attendees had a look at the exhibition.

The exhibition will be available until December 14, 2018.

Photos reflecting military and political events happened in 1918 in Azerbaijan as well as the anti-Azerbaijani policy of the Baku Soviet, the genocide of Azerbaijanis, the establishment of the Islamic Army of the Caucasus and liberation of Baku are demonstrated at the exhibition. Moreover, arms and flags of the Museum, memorabilia and gifts, auxiliary historical materials and more than 120 unique historical exhibits are also demonstrated.

MÜHƏNDİSLİK VƏ TƏTBİQİ ELMLƏR FAKÜLTƏSİNİN MƏZUN VƏ TƏLƏBƏLƏRİ ÖLKƏNİN NÜFUZLU ŞİRKƏTLƏRİNDƏ İŞLƏ TƏMİN OLUNDULAR

GRADUATES AND STUDENTS OF THE SCHOOL OF ENGINEERING AND APPLIED SCIENCES HAVE BEEN EMPLOYED BY PRESTIGIOUS COMPANIES OF THE COUNTRY

Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsinin 2016-cı və 2018-ci illərin məzunları "Schlumberger" şirkətində işə qəbul olunmuşlar. Həmçinin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, "Aztelekom" MMC və "STP" (Sumqayıt Texnologiyalar Parkı) MMC-də "Yay təcrübə"sində olan tələbələrin bir qismi də proqramı uğurla başa çatdıraraq, işlə təmin olunmuşlar. Həmin məzunları və tələbələri təqdim edirik:

Graduates of the School of Engineering and Applied Sciences of Khazar University, 2016 and 2018, have been employed by "Schlumberger" company. Moreover, some of the students attending "Summer Internship" at the Ministry of Transport, Communications and High Technologies, "Aztelekom" LLC and "STP" LLC (Sumgait Technologies Park) have successfully completed the program and been employed. The names of the employed students and graduates are as follows:



Əlavəz Qədimov –Elektronika və telekommunikasiya mühəndisliyi ixtisası, "Schlumberger" şirkəti

Alavaz Gadimov - Specialty of Electronics and Telecommunication Engineering, "Schlumberger" company



Əlikram Həsənli –Elektronika və telekommunikasiya mühəndisliyi ixtisası, "Schlumberger" şirkəti

Alikram Hasanli – Specialty of Electronics and Telecommunication Engineering, "Schlumberger" company



Lalə Müslümzadə –Kimya mühəndisliyi ixtisası, "Schlumberger" şirkəti

Lala Muslumzadeh – Specialty of Chemistry Engineering, "Schlumberger" company



Yusif Ələkbərli –Neft-qaz mühəndisliyi ixtisası, "Schlumberger" şirkəti

Yusif Alakbarli – Specialty of Oil and Gas Engineering, "Schlumberger" company



Rəşid Salmanov –Neft-qaz mühəndisliyi ixtisası (2016-cı il məzunu), "Schlumberger" şirkəti

Rashid Salmanov – Specialty of Oil and Gas Engineering (graduate of 2016), "Schlumberger" company



Sənər Qasımov –Kompüter mühəndisliyi (4-cü kurs), "Aztelecom" MMC

Sanar Gasimov – Specialty of Computer Engineering (4th course), "Aztelecom" LLC



Milada Əliqasımova –Kompüter mühəndisliyi (4-cü kurs), "Aztelecom" MMC

Milada Aliqasimova – Specialty of Computer Engineering (4th course), "Aztelekom" LLC



Alış İsmayılzadə –Mexanika mühəndisliyi (4-cü kurs), "STP" MMC

Alish Ismayilzadeh - Specialty of Mechanical Engineering (4th course), "STP" LLC



XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI OSLO METROPOLİTAN UNİVERSİTETİNDƏ

KHAZAR UNIVERSITY STAFF MEMBERS VISIT OSLO METROPOLITAN UNIVERSITY

Xəzər Universitetinin əməkdaşları – İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev, Psixologiya departamentinin müəllimi Nilufər Əlizadə Oslo Metropolitan Universitetində sentyabrın 3-dən 7-dək keçirilmiş "Cənubi Qafqaz və Norveçdə akademik və iş mühitində mədəniyyətlərarası qarşılaşmalar" adlı layihənin ilk görüşündə iştirak etdilər. Görüşdə, həmçinin, Tbilisi Dövlət Universitetinin nümayəndələri də iştirak edirdilər.

3 illik layihə mədəniyyətlərarası kommunikasiya ilə əlaqədar magistr kurslarının hazırlanmasını, Oslo və Tbilisidə yay məktəblərinin təşkil olunmasını, birgə araşdırma işlərinin aparılmasını nəzərdə tutur. Görüş ərzində iştirakçılar fənlərin hazırlanması ilə bağlı təcrübələrini bölüşdülər və miqrasiya, nifrət nitqi və radikallaşma mövzularının ixtisas fənləri kimi tədrisinin nəzəriyyəsi və metodikasını müzakirə etdilər.

On September 3-7, Khazar University staff members - Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management; Elmar Mustafayev, Coordinator of the Department of Political Science and International Relations; Nilufar Alizada, Instructor of the Department of Psychology - participated in the kick-off meeting of the project *Intercultural encounters in academia and workplaces in South Caucasus and Norway* at Oslo Metropolitan University. The meeting was also attended by the representatives of Tbilisi State University (Georgia).

The three-year project envisages the establishment of the master programmes regarding the intercultural communication, summer schools in Tbilisi and Oslo, and joint researches. During the meeting, participants shared their experience on course development and discussed the theory and methodology of incorporating *migration, hate speech,* and *radicalization* into the courses.

KİM *POLPRED.COM* RESURSLARINDAN İSTİFADƏ ÜÇÜN ÖDƏNİŞSİZ SINAQ MÜDDƏTİ ƏLDƏ ETMİŞDİR

FREE TRIAL ACCESS TO POLPRED.COM RESOURCES HAS BEEN OBTAINED BY LIBRARY-INFORMATION CENTER

Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzi (KİM) *Polpred.com* resurslarından istifadə üçün ödənişsiz sınaq müddəti (2018-ci il sentyabrın 5-dən 2019-cu il oktyabrın 15-dək) əldə etmişdir. *Polpred.com* Rusiyanın əhəmiyyətli biznes nəşrlərinin ən böyük arxividir. Sayta hər gün minlərlə məlumat yerləşdirilir.

İstifadə üçün *www.polpred.com* saytına, abunəlik üçün *https://proxy.lirn.net/AgapeUniv* linkinə daxil olun.

The Library-Information Center of Khazar University has gained a free trial access to *polpred.com* resources from September 5, 2018 to October 15, 2019.

Polpred.com is the largest archive of Russia's major business publications. Thousands of news items are placed on the website every day.

To access Polpred go to *www.polpred.com*

To access your LIRN subscription go to: *https://proxy.lirn.net/AgapeUniv*

RİYAZİYYAT DEPARTAMENTİNİN ƏMƏKDAŞI MÜKAFATLANDIRILDI

ASSOCIATE OF THE DEPARTMENT OF MATHEMATICS REWARDED



Xəzər Universitetinin Riyaziyyat departamentinin professoru Nazim Kərimov Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəkkürnaməsi ilə təltif edilmişdir. Professor Nazim Kərimov "2017-2018-ci tədris ilində keçirilmiş respublika fənn olimpiadalarında riyaziyyat fənni üzrə münsiflər heyətinin üzvü olaraq, istedadlı şagirdlərin düzgün seçilməsi sahəsində peşəkarlıq və səriştəlilik nümayiş etdirdiyinə" görə təltif edilmişdir.

Qeyd edək ki, professor Nazim Kərimov Azərbaycanı beynəlxalq riyaziyyat olimpiadasında təmsil edən milli komandanın əsas çalışdırıcısıdır. Bununla yanaşı, o, həmçinin, Xəzər Universitetinin "Dünya" Təhsil Kompleksi şagirdlərinin riyaziyyat olimpiadalarına hazırlanması sahəsində fəal iştirak edir, orada olimpiada dərsləri aparır.

Nazim Karimov, Professor at the Department of Mathematics of Khazar University, has been rewarded with a Certificate of Gratitude of the Ministry of Education. Prof. Nazim Karimov has been rewarded for " Professionalism and competence in the proper selection of talented pupils as a member of the jury on Maths in National Subject Olympiads held in 2017-2018".

It should be noted that Professor Nazim Karimov is a senior trainer for the national team representing Azerbaijan in International Maths Oympiads. Moreover, he is actively engaged in preparing students of "Dunya" school of Khazar University for Maths Olympiads, and conducts lessons for Olympiads at "Dunya" school.



FULBRAYT TƏQAÜDÇÜLƏRİ KİM-DƏ

FULBRIGHT SCHOLARS AT THE LIC

Amerikanın Şərqi Kentukki Universitetinin Fulbrayt təqaüdçüləri Qaisar Sultana və Ron Smith sentyabrın 12-də Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin (KİM) əməkdaşları ilə görüşdülər. Qonaqlar kitabxana fondu, yeni kitablar, Xəzər Universitetinin nəşrləri ilə tanış oldular.

Sonra kitabxana əməkdaşları ilə birgə təhsil və kitabxana məsələlərini müzakirə etdilər.

On September 12, two Fulbright scholars from Eastern Kentucky University (USA) - Mrs. Pr. Qaisar Sultana and Mr. Ron Smith - visited Khazar University Library Information Center. Guests got familiar with the library collection on education, reference books and new publications of Khazar University.

Then, together with the library team, a discussion took place related to education and library topics, issues and challenges.



XƏZƏR UNİVERSİTETİNDƏ "PLATON VƏ MÜASİR FƏLSƏFƏ" MÖVZUSUNDA SEMİNAR





Sentyabrın 19-da Xəzər Universitetinin Mərmər salonunda Xəzər Universiteti, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Fəlsəfə İnstitutu və Qafqaz Platron Cəmiyyətinin təşkilatçılığı ilə "Platon və müasir fəlsəfə" mövzusunda seminar keçirildi. Seminarda AMEA və Xəzər Universitetinin rəhbərliyi, AMEA Fəlsəfə İnstitutunun rəhbərliyi və əməkdaşları, ölkənin əksər ali məktəblərinin alim və mütəxəssisləri, Xəzər Universitetinin əməkdaşları iştirak edirdilər.

Seminarı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, iştirakçıları və qonaqları salamladı. AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli, Yunanıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellos giriş nitqi söyləyərək, tədbirin əhəmiyyəti və aktuallığını qeyd etdilər.

Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, riyaziyyat üzrə elmlər doktoru professor Hamlet İsaxanlının "Platonda riyaziyyat və poeziyanın vəhdəti", AMEA Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru İlham Məmmədzadənin "Platon və müasir fəlsəfənin əsas istiqamətləri" mövzularında məruzələri dinlənildi.

(Ardı səh. 28-də)





WORKSHOP "PLATO AND MODERN PHILOSOPHY" HELD AT KHAZAR UNIVERSITY

On September 19, a seminar "Plato and modern philosophy" was held in Marble hall of Khazar University on an organizational support of Khazar University, the Institute of Philosophy, ANAS, and Caucasus Plato Society. Administrations of ANAS and Khazar University, as well as administration and associates of the Institute of Philosophy, ANAS, scholars and experts of the most higher education institutions, and associates of Khazar University, participated in the seminar.

Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered an opening speech and greeted the participants and guests. Academician Isa Habibbayli, Deputy President of ANAS, and Nikolaos Kanellos, Ambassador Extraordinary and Plenipotentiary of Greece to Azerbaijan, delivered speeches and underlined the importance of the event.

Then the reports were delivered by the speakers in the following order: "The unity of Mathematics and Poetry in Plato" by Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, D.Sc. in Math; "Main trends of modern philosophy and Plato" by Ilham Mammadov, Director of the Institute of Philosophy, ANAS, D.Sc. in Philosophy;

(To be continued on page 28)









Fasilədən sonra AMEA Fəlsəfə İnstitutunun Azərbaycan fəlsəfə tarixi şöbəsinin baş elmi işçisi, fəlsəfə üzrə elmlər doktoru, professor Zümrüd Quluzadə "Mədəniyyət tarixində vəhdət və kəsrətin əlaqəsi probleminin qoyuluşu (Platon, neoplatonizm, Q.Kantor və L.Zadə)", AMEA Fəlsəfə İnstitutunun Müasir fəlsəfə problemləri şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru, professor Əli Abbasov "Platon: tarix və müasirlik", AMEA Fəlsəfə İnstitutunun Estetika şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru Adil Əsədov "Platon və Aristotel: zadəgan və təbəə əksliyi" və AMEA Fəlsəfə İnstitutunun İdrak nəzəriyyəsi və elmin fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru Füzuli Qurbanov "Platon və müasirlik: təfəkkür hadisəsi kimi qarşılıqlı əlaqələr" mövzularında məruzə etdilər.

Sonda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı seminarın işini yekunlaşdıraraq, iştirakçılara və məruzəçilərə təşəkkürünü bildirdi.

"The relation between unity and abundance in the history of culture" by Zumrud Guluzadeh, chief expert of the Department of History of Philosophy, the Institute of Philosophy (Plato, Neoplatonism, G.Kantor and L.Zadeh); "Plato: History and Modernism" by Prof. Ali Abbasov, Head of the Department of Problems of Modern Philosophy, Director of the Institute of Philosophy, ANAS, PhD in Philosophy; "Plato and Aristotle: the contradiction of the nobleman and the subject" by Adil Asadov, Head of the Department of Aesthetics of the Institute of Philosophy, ANAS, PhD in Philosophy; "Plato and modernity: mutual relations as a phenomenon of thought" – Fuzuli Gurbanov, D.Sc. in Philosophy, Head of the Department of Theory of Cognition and the Philosophy of Science.

At the end, Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a closing speech and thanked the participants and speakers.





ANKARADA CAMAL MUSTAFAYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ TƏDBİR

Sentyabrın 25-də *moderator.az* xəbər portalı Ankarada Xəzər Universitetinin mərhum professoru Camal Mustafayevin xatirəsinin yad edildiyi tədbirdən - konfransdan geniş xəbər yaymışdır. Xəbərdə deyilir ki, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (Uluslararası Türk Kültür teşkilatı – TÜRKSOY) və Borçalı Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Türk Dünyasının öncülləri" sırasından görkəmli filosof Camal Mustafayevin xatirəsinə və Borçalı Elinin tanıdılmasına həsr olunmuş möhtəşəm tədbir keçirilib.

Tədbirin aparıcısı Cavid Mövsümlünün qısa giriş çıxışından sonra söz TÜRKSOY-un baş katibi Düsen Kaseinova verilib. Baş katib Borçalı Cəmiyyətinin nümayəndə heyətini və tədbirə qatılanları salamlayaraq qurumda Türk Dünyasının görkəmli şəxsiyyətləri haqda düzənlənən tədbirlərə diqqət çəkib və Camal Mustafayevin xatirəsinə belə bir tədbir keçirdikləri üçün məmnunluğunu ifadə edib. Sonra Alan millət vəkili, TBMM-nin Türkiyə-Azərbaycan Dostluq Qrupunun sədri Şamil Ayrım bu kimi tədbirlərin keçirilməsinin Türk Dünyası adına önəminə işarə edərək, bundan ötrü parlamentdə hər zaman təklifləri eşitməyə hazır olduğunu dilə gətirib. Türkiyə prezidentinin baş müşaviri Yalçın Topçu konfrans iştirakçılarını Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanın adından salamlayaraq, Camal Mustafayev şəxsiyyəti, Borçalı Eli, onun mədəniyyəti haqda konfrans iştirakçıları qarşısında nitq söyləyib.

Konfransın ilk məruzəsi ilə isə Borçalı Cəmiyyətinin sədri Zəlimxan Məmmədli çıxış etdi. Öz məruzəsini Borçalı Eli haqda ətraflı məlumatla başlayan Cəmiyyət sədri bu şəkildə mötəbər konfransın təşkilinə görə TÜRKSOY təşkilatına təşəkkürünü bildirdi. Borçalı Elinin tanınmış saz və söz ustalarına işarə edən Z. Məmmədli belə bir mühitdə həm də filosof Camal Mustafayev kimi şəxsiyyətin formalaşmasına xüsusi diqqət çəkdi. Camal Mustafayevin yaradıcılığı, elmi araşdırmaları və ən önəmlisi fəlsəfi dünyası haqda ətraflı məruzə edən Z. Məmmədli Borçalı Cəmiyyətinin Camal Mustafayevin xatirəsinə "Qələm və kəlam" mükafatı təsis etdiyini bildirərək, əlavə etdi ki, Camal Mustafayev elmdə zirvəyə ucaldığı qədər, insanlıqda da o zirvəni fəth etmişdi.



Daha sonra Gürcüstan Aşıqlar Birliyinin sədri, tanınmış şair Osman Əhmədoğlu, Ankara Yıldırım Beyazit Universitetinin müəllimi, doktor Oğuzhan Aydın çıxış edərək, aşıqlıq sənəti və onun bölmələri haqda məlumat veriblər. Konfransın 3-cü bölümündə Aşıq Selahettin Dündar, Aşıq Nargilə Mehdiyeva, Aşıq Tərməyxan Qurbanov və Marneulidə fəaliyyət göstərən SARVAN rəqs qrupunun alqışlarla müşayiət olunan çıxışları olub. Sonda konfrans iştirakçılarına TÜRKSOY və Borçalı Cəmiyyəti tərəfindən xüsusi hədiyyələr təqdim edilib.

Xəbəri bu linkdə oxumaq olar:
http://www.moderator.az/news/241415.html

Redaksiyaya məktub

TƏLƏBƏLİK HƏYATI XOŞBƏXTLİKDİR

Tələbəlik həyatı yaşayan insanlar çox xoşbəxtdirlər. Onlar bu uğurlu yolda addım-addım irəliləyir, gecəni-gündüzə qatıb imtahanlara hazırlaşırlar. Ancaq, təəssüf ki, hamı belə deyil. Ali məktəbə qəbul olunduqdan sonra çalışqanlığı unudanlar da var. Heç bilirsinizmi sizin yerinizdə olmaq istəyən nə qədər insan var?

Biri mən. Əsgərlikdə olarkən baş vermiş bədbəxt hadisə nəticəsində məhbəsə düşmüşəm və bu məktubu da buradan yazıram. Hərdən "Xəzər Xəbər" jurnallarından mənə də göndərilir. Jurnalın səhifələrini bir-bir, cmallıca açıb oxuyuram, tələbələrin şəkillərinə diqqətlə baxıb qibtə edirəm. Məhbəsdə olsam da, bütün asudə vaxtımı bilik öyrənməyə, xarici dil biliklərimi artırmağa sərf edirəm.

Kitab və dərs vəsaiti cəhətindən mənə köməklik göstərənlərdən biri də məhz Xəzər Universitetidir. Göndərilən vəsaitləri gözüm kimi qoruyur, təkrar-təkrar oxuyuram. Olduğum cəzaçəkmə müəssisəsində, əlbəttə ki, müəyyən məhdudiyyətlər içindəyəm. Ancaq bununla belə, daim mütaliə edirəm.

Bu məktubu sizlərə yad kimi yox, bir doğma kimi yazıram. Sizə sizin oturduğunuz tələbə partasının həsrətini çəkən bir dost kimi deyirəm ki, indi bilik ağacı əkməsəniz, yaşlaşanda kölgəliyində otunmağa bir yer tapmayacaqsınız. Mənim hazırkı böyük arzularımdan biri - azadlığa çıxdıqdan sonra ali təhsil almaq, həm də Xəzər Universitetində bu arzunu gerçəkləşdirməkdir. Əgər bir məhbusa biliyini artırmaq üçün bu cür dəstək olunursa, tələbəsinə necə yanaşması bəllidir.

Səmimi - qəlbdən: **Elvin Arifoğlu**
I saylı Cəzaçəkmə Müəssisəsi



I BEYNƏLXALQ TÜRK MƏZAR DAŞLARI SİMPOZİUMU KEÇİRİLDİ

I TURKISH GRAVESTONE SYMPOSIUM HELD

Sentyabrın 19-21-də Bakıda Erciyes Universiteti, Xəzər Universiteti, Azərbaycan Milli Tarix Muzeyi və Türk Tarix Qurumunun təşkilatçılığı ilə I Beynəlxalq Türk Məzar Daşları Simpoziumu keçirildi. Simpoziumun rəsmi açılışı sentyabrın 19-da Azərbaycan Milli Tarix Muzeyində oldu.

Açılış mərasimində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Milli Tarix Muzeyinin direktoru akademik Nailə Vəlixanlı, Erciyes Universitetinin professoru Celil Arslan və digərləri çıxış etdilər. Celil Arslan professor Hamlet İsaxanlıya və akademik Nailə Vəlixanlıya simpoziumun təşkilini dəstəklədiklərinə görə təşəkkür plaketi təqdim etdi.

On September 19-21, on an organizational support of Erciyez University, Khazar University, National Museum of History and Turkish Historical Society, "I Turkish Gravestone Symposium" was held. The official opening ceremony was held on September 19 in Azerbaijan National Museum of History.

At the opening ceremony, Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Academician Naila Valikhanli, Director of National Museum of History, Prof. Jalil Arslan, Erciyez University, delivered speeches.

On the second half of the day and on September 20, the Symposium continued at Khazar University. About 30 reports covering the topic by Azeri and Turkish experts were delivered. Moreover, the experts answered questions and had discussions.











Günün ikinci yarısı və sentyabrın 20-də simpozium öz işini Xəzər Universitetində davam etdirdi. Türkiyəli və azərbaycanlı mütəxəssislərin simpozium mövzusunu əhatə edən 30-a qədər məruzəsi dinlənildi, sorğular cavablandırıldı, müzakirələr aparıldı.

Günün sonunda simpoziumun bağlanış mərasimi keçirildi. Tədbirdə professorlar Yaşar Çorunlu, Halit Çal, Abbas Seyidov, dosent Celil Arslan və doktorant Tülin Çorunlu çıxış edərək, simpoziumun müştərək türk tarixinin tədqiqi və öyrənilməsi baxımından böyük əhəmiyyətini, dinlənilən məruzələrin yüksək peşəkarlıqla hazırlandığını qeyd etdilər və simpoziumun keçirilməsi üçün yaradılmış şəraitə görə Xəzər Universitetinin rəhbərliyinə və təşkilatçılara minnətdarlıq bildirdilər. Məruzəçilərə sertifikat təqdim olundu.

Simpoziumun Təşkilat komitəsinin üzvü, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli simpoziuma qatılcılarına görə iştirakçılara Xəzər Universiteti adından təşəkkürünü bildirdi. Celil Arslan simpoziumun təşkilindəki fəal işinə görə Əlövsət Əmirbəyliyə təşəkkür plaketi və hədiyyə təqdim etdi.

Sonda professor Abbas Seyidov özü ilə gətirdiyi sazında aşıq havaları və "Çırpınırdı Qara dəniz" mahnısını çaldı. Böyük şair Əhməd Cavad və dahi bəstəkar Üzeyir Hacıbəylinin yadigarı, Azərbaycan türkləri qədər Türkiyə türkləri üçün də doğma olan "Çırpınırdı Qara dəniz" mahnısının iştirakçılar tərəfindən ifası ilə simpozium işini başa çatdırdı.

Sentyabrın 21-də simpozium iştirakçıları Şəhidlər xiyabanında şəhidlərin xatirəsini yad etdilər, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu və "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda oldular, Şirvanşahlar sarayı da daxil olmaqla İçərişəhəri gəzdilər.

(Ardı səh. 32-də)

A closing ceremony was held at the end of the day. At the ceremony, Yashar Chorunlu, Halit Chal, Abbas Seyidov, Assoc.Prof. Jalil Arslan, and a PhD candidate Tulin Chorunlu delivered speeches and emphasized the importance of the symposium in terms of studying common Turkish history. They also highly appreciated the quality of the reports and expressed gratitude to Khazar University administration and organizers for the symposium. The participants were presented with certificates.

Alovsat Amirbayli, a member of Organization Committee of the symposium and Director of Public Relations and Media, thanked the participants on behalf of Khazar University for joining the symposium. Jalil Arslan presented Alovsat Amirbayli with a plaque of gratitude and a gift for his active participation in the organization of the symposium

At the end, Prof.Abbas Seyidov performed ashig songs as well as the song "Waving Black Sea". The symposium ended with "Waving Black Sea", a joint heritage of a great poet Ahmad Javad and prominent composer Uzeyir Hajibeyli, which is a favourite song of both Azeri and Turkish peoples.

On September 21, symposium participants visited the Alley of Martyrs, Gobustan State Historical and Literary Reserve and "Temple of Ateshgah" State Historical and Architectural Reserve, Icherisheher and Palace of the Shirvanshahs.

(To be continued on page 32)



Simpozium haqqında respublika mediasında yayımlanmış materialların bir qismini bu linklər vasitəsilə izləmək olar:

http://az.strategiya.az/index.php?do=xeber&id=135236

http://xalqqazeti.com/az/news/3629

http://olaylar.az/news/medeniyyet/296742

***

The following links lead to some news covered by national media:

http://az.strategiya.az/index.php?do=xeber&id=135236

http://xalqqazeti.com/az/news/3629

http://olaylar.az/news/medeniyyet/296742









"MƏKTƏBDƏ İLK GÜNÜM" ADLI AÇILIŞ TƏDBİRİ

OPENING CEREMONY "MY FIRST DAY AT SCHOOL"

Sentyabrın 13-də "Dünya" məktəbində 1-ci siniflərin "Məktəbdə ilk günüm" adlı açılış tədbiri keçirildi. Məktəb rəhbərliyi, müəllimlər, 1-ci sinfə ilk qədəmlərini qoyan balacalar və onların valideynlərinin iştirakı ilə keçirilən bayram tədbirində sevinc, təntənə, kövrək duyğular, gözəl musiqilər və rəqslər bir-birinə qovuşdu. Öncə məktəb haqqında film nümayiş etdirildi.

Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, hər bir uşağın gələcəyində, onun inkişafı və zövqünün formalaşmasında təhsil aldığı məktəbin xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı. Professor Hamlet İsaxanlı 1-ci sinfə başlayan balacaları və valideynləri təbrik edərək, "Dünya" məktəbinin bir tərəfdən dünya vətəndaşı, digər tərəfdən dünyanı başa düşən hərtərəfli Azərbaycan vətəndaşı yetişdirdiyini qeyd etdi.

Tədbirdə "Dünya" məktəbinin həmtəsisçisi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayeva iştirak edirdi.

On September 13, the opening ceremony ***"My first day at school"*** for first-grade pupils was held at "Dunya" school. The ceremony, accompanied by a mixture of tender feelings, festivity, music and dance, was attended by school administration, teachers, first-grade pupils and their parents. First, a movie about the school was demonstrated.

Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a speech underlining that a school plays an important role in the development of children and their future. Prof. Hamlet Isakhanli congratulated children and their parents and remarked that "Dunya" school educates pupils as Azerbaijani and world citizens who are fully conscious of the world.

The co-founder of the "Dunya" school, the Advisor to the Chairman of the Board of Directors and Trustees of Khazar University Nailakhanim Isayeva took part in the event.









SUMQAYIT "DÜNYA" MƏKTƏBİNDƏ YENİ DƏRS İLİNİN AÇILIŞI

OPENING CEREMONY FOR A NEW ACADEMIC YEAR AT SUMGAIT "DUNYA" SCHOOL

Sentyabrın 14-də Sumqayıt "Dünya" məktəbində yeni dərs ilinin açılışı münasibətilə tədbir keçirildi. Məktəb rəhbərliyi, şagird, müəllim, valideyn kollektivinin birgə iştirakı ilə keçirilən tədbir Xəzər Universitetinin tələbələri və "Dünya" məktəbinin şagirdlərindən ibarət rəqs qrupunun təntənəli çıxışları ilə bəzəndi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı bu günü təhsilin bayramı adlandıraraq, təhsil günü münasibətilə hamını təbrik etdi. O, qloballaşan dünyada öz xalqının musiqisini, ədəbiyyatını, mədəniyyətini gözəl bilməklə yanaşı, həm də dünyanı yaxşı başa düşən, insanların bərabər olduğunu dərk edən şagirdlərin yetişdirilməsinin zəruri olduğunu vurğuladı.

Tədbirdə məktəbin direktoru Hüzurə Ağayeva çıxış etdi.

Əllərində gül dəstələri ilə məktəbə ilk qədəmlərini qoyan birinciler, valideynler xüsusi maraq və həvəslə məktəblə tanış oldular.

Tədbirdə "Dünya" məktəbinin həmtəsisçisi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayeva, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdilər.

On September 14, 2018, on the occasion of the beginning of a new academic year, an event was held at Sumgait "Dunya" school. The school administration, teachers, students and parents attended the event which became more entertaining with a performance of the dance group consisting of students of Khazar University and pupils of "Dunya" school.

Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, called that day an education holiday and congratulated everyone on the day of education. He also mentioned that it is important that we educate students who are aware of music, literature and culture of their people along with having a good understanding of the world and equality of people. To achieve this purpose,

During the event School Director Huzuru Aghayeva delivered a speech.

With bunches of flowers in their hands, first-grade pupils and their parents became familiar with the school with special interest and enthusiasm

The co-founder of the "Dunya" school, the Advisor to the Chairman of the Board of Directors and Trustees of Khazar University, Nailakhanim Isayeva, and Director of Public Relations and Media office at Khazar University, Alovsat Amirbeyli took part in the event.









BİLİK FONDUNUN SƏDRİ "DÜNYA" MƏKTƏBİNDƏ
CHAIR OF KNOWLEDGE FOUNDATION VISITS "DUNYA" SCHOOL

Sentyabrın 17-də "Dünya" məktəbində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun sədri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Oktay Səmədovla görüş keçirildi.

Məktəb rəhbərliyi, müəllimlər və yuxarı sinif şagirdlərinin iştirak etdiyi görüşdə natiq "Azərbaycan Xalq Cümhuriyyəti – dövlətçiliyimizin bayraqdarı" mövzusunda çıxış etdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründən söz açan Oktay Səmədov, həmçinin bu dövrün indiki Azərbaycana verdiyi böyük töhfələrdən danışdı. O, qədim dövlətçilik ənənələrinə söykənən ölkəmizin bugünkü inkişafından söz açdı, dünyada baş verən prosesləri, gərgin hadisələrin fonunda ölkə başçısına dəstək olmağın, ölkəmizin daha da möhkəmlənməsi istiqamətində mükəmməl təhsil almağın qarşıda duran vəzifə olduğunu söylədi.

Sözünün sonunda Oktay Səmədov "Dünya" məktəbində təhsil üçün yaradılan şəraitdən razılığını bildirdi.

On September 17, Chairman of the Knowledge Foundation under the President of the Republic of Azerbaijan, Assoc. Prof. Ogtay Samadov, PhD in Pedagogy, had a meeting at "Dunya" school.

Ogtay Samadov delivered a speech on the topic "The Azerbaijan Democratic Republic – Leader of our Statehood" at the meeting attended by the school administration, teachers and senior pupils.

Talking about the Azerbaijan Democratic Republic, O.Samadov mentioned the contribution of the Democratic Republic to modern Azerbaijan. Stressing the fact that our country is based on ancient statehood traditions, he added that in the background of undesirable events happening in the world we need to develop through knowledge and quality education.

At the end of his speech, O.Samadov expressed his satisfaction with the conditions created for a better educational environment at "Dunya" school.

"DÜNYA" MƏKTƏBİNİN DİREKTOR MÜAVİNİ MÜKAFATLANDIRILDI

Sentyabrın 8-də İbtidai Sinif Müəllimlərinin 1-ci Təhsil Forumu (İSMTF) keçirilmişdir.

Forumda tədbirin Təşkilat Komitəsi tərəfindən Azərbaycan müstəqillik tarixinin ilk maarif naziri Nəsib bəy Yusifbəylinin adını daşıyan mükafat təsis olunduğu elan edildi və 3 nəfərə mükafat təqdim olundu.

"Dünya" məktəbinin İbtidai siniflər üzrə direktor müavini Cəmilə Əsgərova da Nəsib bəy Yusifbəyli mükafatı ilə təltif olundu.



DEPUTY DIRECTOR OF "DUNYA" SCHOOL AWARDED

I Education Forum of Primary Teachers was held on September 8.

As a token of gratitude to teachers with high expertise, the Organization Committee declared the establishment of an award named after Nasib bey Yusifbeyli, the first ministry of education of independent Azerbaijan, and presented 3 teachers with an award.

Jamila Asgarova, Deputy Director for Primary Education of "Dunya" school, was presented with Nasib bey Yusifbeyli award for being a co-author of Math textbooks of state primary education and for her hard work and dedication to developing new coursebooks based on the new curriculum.



XƏZƏR UNİVERSİTETİ VƏ İNDONEZİYANIN DAR-ÜS-SƏLAM UNİVERSİTETİ ARASINDA MEMORANDUM İMZALANDI

KHAZAR UNIVERSITY SIGNS MEMORANDUM WITH UNIVERSITY OF DARUSSALAM OF INDONESIA

Sentyabrın 20-də İndoneziyanın Dar-üs-Səlam Qontor Universitetinin (UNIDA) nümayəndələri Xəzər Universiterinin "Neftçilər" kampusunda görüş keçirdilər. Görüşün məqsədi əməkdaşlıq imkanlarını müzakirə etmək və Anlaşma Memorandumu imzalamaq idi.

UNIDA-nın nümayəndə heyəti professor X.Amal Fethulla (rektor), Dr. Hamid Fəhmi Zarkasyu (I prorektor), Dr. Akrim Mariyat (Qəyyumlar Şurasının sədri) və Roysa Dianadan (Baş müəllim) ibarət idi.

Xəzər Universitetini isə Dr. Hassan Niknafs (rektor), Dr.İradə Xəlilova (Elmi işlər üzrə prorektor), Fəxrəndə Əlimərdanova (Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini), Dr.Məhəmməd Şərifov (Kompüter elmləri və kompüter mühəndisliyi departamentinin koordinatoru) və Turan Cəfərova (Beynəlxalq əlaqələr ofisinin direktoru) təmsil edirdilər.

Qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdikdən sonra tərəflər bir-birinə xatirə hədiyyəsi təqdim etdilər və Anlaşma Memorandumu imzaladılar.

On September 20, Khazar University hosted a delegation from the University of Darussalam Gontor (UNIDA) of Indonesia at Neftchiler Campus.

The purpose of the meeting was to discuss areas of cooperation and sign a Memorandum of Understanding.

Members of the delegation from the UNIDA included Prof. Dr. KH. Amal Fathullah (Rector of UNIDA), Dr. Hamid Fahmy Zarkasyu (I Vice Rector, UNIDA), Dr. Akrim Mariyat, DipLA.Ed (Board of Trustees, UNIDA Gontor), and Rosyda Diana (Senior Lecturer UNIDA), Ms. Nadia (Researcher UNIDA).

Participants from Khazar University included Dr. Hassan Niknafs (Rector), Dr. Irada Khalilova (Vice Rector for Research), Ms. Fakhranda Alimardanova (Vice Dean of the School of Engineering and Applied Sciences), Dr. Mahammad Sharifov (Coordinator of Computer Sciences and Computer Engineering Department), and Ms. Turan Jafarova (Director of International Affairs Office).

After discussing the mutually beneficial cooperation, the parties exchanged memorable gifts, and signed a Memorandum of Understanding.

REKTOR YENİ əcnəbi MAGİSTR VƏ DOKTORANT TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

Sentyabrın 20-də Xəzər Universitetinin "Neftçilər" kampusunda 2018/2019-cu tədris ilində universitetə qəbul olunmuş əcnəbi magistr və doktorantlarla görüş keçirildi.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs iştirakçıları salamladı və açılış nitqi söylədi. Görüşün məqsədi yeni tələbələri universitetin akademik mühiti, qaydaları və təhsil siyasəti ilə tanış etmək və onların suallarını cavablandırmaq idi.

Elmi işlər üzrə prorektor Dr. İradə Xəlilova Xəzər Universitetində aparılan tədiqatlar barədə tələbələrə məlumat verdi. Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Dr. Eldar Şahgəldiyev Azərbaycanda magistratura və doktorantura pilləsində aparılan tədqiqatların təşkili barədə danışdı. Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova Təhsil Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin qaydaları barədə məlumat verdi.

Qeyd edək ki, cari akademik ildə Xəzər Universitetinə Əfqanıstan, Hindistan, İndoneziya, İran, İraq, İordaniya, Lesoto, Malavi, Pakistan, Tacikistan və s. ölkələrdən magistratura və doktorantura pilləsinə tələbə qəbul olunmuşdur.

RECTOR MEETS WITH NEW INTERNATIONAL MASTER AND PHD CANDIDATES

On September 20, a meeting with new international PhD and Master candidates admitted to Khazar University in the 2018-2019 academic year was held on its Neftchiler Campus.

The meeting led by the Rector of Khazar University Dr. Hassan Niknafs brought together international Master and PhD students who got admitted to the university in its current academic year (2018-2019). The purpose of the meeting was to welcome the new students to the academic environment of the university, familiarize them with its rules and policies, and address their questions and concerns.

Dr. Irada Khalilova, Vice Rector for Research, told the students about the research at Khazar University. Dr. Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research provided information about the organization of Master and PhD studies in Azerbaijan. Ms. Turan Jafarova, Director of International Affairs Office informed the students about local regulations set by the Ministry of Education and the State Migration Service of Azerbaijan Republic.

In its current academic year Khazar University accepted Master and PhD students from Afghanistan, India, Indonesia, Iran, Iraq, Jordan, Lesotho, Malawi, Pakistan, Tajikistan, and other countries.

TƏHSİL FAKÜLTƏSİNİN DEKANINA DOSENT DİPLOMU TƏQDİM OLUNMUŞDUR

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında diplomların təqdim olunması mərasimində Xəzər Universiteti Təhsil fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Elza Səmədovaya da dosent diplomu verilmişdir.

Qeyd edək ki, müvafiq qərar Ali Attestasiya Komissiyasının 11 may 2018-ci il tarixli kollegiya iclasında qəbul edilmişdi.


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASI

qərarı ilə

Elza Nizami qızı Səmədovaya

DOSENT

elmi adı verilmişdir

THE SUPREME ATTESTATION COMMISSION ATTACHED TO THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN

confers on

Elza Nizami Samadova

the academic title of

ASSOCIATE PROFESSOR

DEAN OF SCHOOL OF EDUCATION AWARDED ASSOCIATE PROFESSOR DIPLOMA

On September 27, the diploma awarding ceremony was held at Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan. Elza Samadova, Dean of School of Education, PhD in Philology, was awarded an Associate Professor diploma.

The relevant decision was made at the board meeting of the Supreme Attestation Commission on May 11, 2018.



GÖRKƏMLİ BƏSTƏKAR MURAD KAJLAYEVLƏ GÖRÜŞ

MEETING WITH MURAD KAJLAYEV, A PROMINENT COMPOSER

Sentyabrın 24-də Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində Xəzər Universitetinin Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində SSRİ Xalq artisti, Dağıstan musiqisinin banilərindən biri, ictimai xadim, görkəmli bəstəkar Murad Kajlayev ilə yaradıcılıq görüşü keçirildi.

Tədbirdə Xəzər Universitetinin və Azərbaycan Bəstəkarlar İttifaqının rəhbərliyi, bəstəkarın sənət dostları, ölkənin musiqi ictimaiyyətinin nümayəndələri, universitetin əməkdaşları və tələbələri iştirak edirdilər.

Within Uzeyir Hajibeyli Music Week, a creative meeting with Murad Kajlayev, People's Artist of the USSR and a prominent composer, was held at Conference and Concert Hall named after Fikrat Amirov at Khazar University on September 24, 2018.

Heads of administrations of Khazar University and the Azerbaijan Union of Composers as well as composer's friends, musicians, staff and students of the University attended the event.







Görüş Murad Kaylayevin həyat və yaradıcılığından bəhs edən filmin nümayişi ilə başlandı. Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbiri açaraq, iştirakçıları və görkəmli bəstəkarı salamladı, onun yaradıcılığı haqqında geniş məlumat verdi.

Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi bəstəkar Sərdar Fərəcov, teatr rejissoru, əməkdar incəsənət xadimi Əli Usubov, Xalq artisti bəstəkar Tofiq Bakıxanov, Əməkdar incəsənət xadimi Telman Hacıyev, Əməkdar incəsənət xadimi Rafiq Seyidzadə çıxış edərək, Azərbaycan musiqi mədəniyyətinin yetirməsi olan Murad Kajlayevin çoxşaxəli yaradıcılığından və vətəninin - Dağıstanın musiqisi, tarixi, zəngin folkloru ilə ayrılmaz surətdə bağlı olan əsərlərinin dünyanın bir çox ölkələrində ifa olunmasından danışdılar, bəstəkarın Bakı həyatından xatirələr söylədilər.

(Ardı səh. 40-da)

The event started with a documentary film about the life and career of Murad Kajlayev. Then Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered an opening speech greeting the prominent composer and participants and gave wide information about the composer's career.

Sardar Farajov, Composer, Honored Art Worker and Secretary of the Azerbaijan Union of Composers; Ali Usubov, Honored Art Worker; Tofig Bakikhanov, People's Artist; Telman Hajiyev, Honored Art Worker; Rafig Seyidzadeh, Honored Art Worker, delivered speeches appreciating a rich creative career of Murad Kajlayev, a representative of music culture of Azerbaijan. Moreover, the speakers mentioned that the compositions by Murad Kajlayev which are closely attached to national music, history and rich folklore, have been performed in many foreign countries, and shared their memories of composer's years spent in Baku.

(To be continued on page 40)






Bəstəkarın əsərlərindən ibarət geniş konsert proqramında onun müxtəlif janrda əsərləri ifa olundu. Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə keçən konsertdə Xəzər Universitetinin kamera orkestri (bədii rəhbər Zülfiyyə Sadıqova), solistlər – Əməkdar artist Səbinə Vahabzadə (vokal), Culiya Behbudova (vokal), İsrafil Rəsulov (truba) , Səidə Tağızadə (piano), Zülfiyyə Sadıqova (piano) və Azər Dəmirov (violin ifaçısı, ABŞ) maraqlı musiqi nömrələrini tədbir iştirakçılarına təqdim etdilər.

Konsertdən sonra Murad Kajlayev çıxış edərək, yaradıcılıq görüşünün təşkilinə görə Xəzər Universitetinin rəhbərliyinə, konsertin iştirakçılarına və tamaşaçılara təşəkkürünü bildirdi.

Sonda professor Hamlet İsaxanlı görgəmli bəstəkara, həmçinin dirijor Fəxrəddin Kərimova və konsertin digər iştirakçılarına hədiyyələr verdi. Murad Kajlayev Xəzər Universitetinə öz kitablarını hədiyyə etdi.

Tədbirdən AZƏRTAC başda olmaqla (*https://azertag.az/xeber/Gorkemli_bestekar_Murad_Kajlayevin_muellif_gecesi_kechirilib-1197756*) ölkənin aparıcı saytları və mətbuat orqanları xəbər yaymışlar.

In the concert program composed of the composer's works, compositions of various genres were performed. Fakhraddin Karimov, People's Artist, conducted the concerts program which was performed by Chamber Orchestra of Khazar University (Zulfiyya Sadigova, Art Director), - Sabina Vahabova (a vocalist), Honored Artist; Julia Behbudova (a vocalist); Israfil Rasulova (a trumpet player); Saida Taghizadeh (a pianist); Zulfiyya Sadigova and Azar Damirov (a violin player, USA).

After the concert, Murad Kajlayev delivered a speech and thanked the participants and Khazar University administration for the meeting.

At the end, Prof.Hamlet Isakhanli presented the composer as well as Fakhraddin Karimov and others with gifts. Murad Kajlayev presented his books to Khazar University.

The event was covered by AZERTAC – (*https://azertag.az/xeber/Gorkemli_bestekar_Murad_Kajlayevin_muellif_gecesi_kechirilib-1197756*) and other leading press agencies and news portals.











БЛАГОДАРСТВЕННОЕ ПИСЬМО ОТ МУРАДА КАЖЛАЕВА

Министру культуры Абульфасу Караеву

Уважаемый господин Абульфас Караев!

Разрешите выразить Вам, Севде Меликовой и Министерству культуры Азербайджана мою искреннюю благодарность, а также в Вашем лице государственным коллективам – Симфоническому оркестру имени Узеира Гаджибекова и Академической капелле под руководством Гюльбаджи Имановой, университету «Хазар» в лице его руководителя – профессора Гамлета Исаханлы, а также музыкальному руководителю университета Зульфие Садыковой, за успешное проведение моих авторских вечеров в рамках X Международного фестиваля им. Узеира Гаджибейли. Также хочу поблагодарить своих земляков – бакинцев, многочисленных слушателей концертов, своих коллег композиторов и музыкантов Азербайджана, в их числе любимых мною Тофика Бакиханова, Рауфа Бабаева, Сардара Фараджева, Тельмана Гаджиева, Рафика Сеидзаде, Алика Усубова, семью Рашида Бейбутова за высокую оценку моего творчества. Хочу отметить высочайший уровень исполнителей моих произведений Исрафила Расулова (труба), Азера Дамирова (скрипка), Сабины Вагабзаде, Джулии Бейбутовой (вокал), Санды Тагизаде и маэстро Фахраддина Керимова. Был на высоте гость фестиваля маэстро, Народный артист России – Мурад Аннамамедов.

С уважением к Азербайджану – Кажлаев Мурад Магомедович, композитор, Народный артист СССР, Лауреат государственных премий России и Дагестана, Лауреат шести Международных премий, кавалер ордена «Достлуг», профессор, академик РАЕН.

г. Махачкала

A LETTER OF GRATİTUDE BY MURAD KAJLAYEV TO AZERBAİJAN

Murad Kajlayev, a prominent composer, sent a letter of gratitude to Abulfas Garayev, Minister of Culture, for a high-level organization of author's concerts within X Uzeyir Hajibeyli International Music Festival. In the letter, the composer also expresses his gratitude to Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts, for the author's concert held at Khazar University.

"XƏZƏR"İN MÜƏLLİMİNİN YENİ KİTABI ÇAP OLUNUB



Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Xaqan Balayevin "Elm və təhsil" nəşriyyatında "Azərbaycanın sosial-siyasi həyatında cənublu mühacirlərin iştirakı: 1947-1991" adlı monoqrafiyası çapdan çıxıb.

Monoqrafiyada 1947-ci ildə İran hərbi qüvvələri tərəfindən Cənubi Azərbaycanda milli hakimiyyətin devrilməsindən sonra Azərbaycan SSR-ə gəlmiş siyasi mühacirlərin yarım əsrlik həyat və fəaliyyətləri yazılı mənbələr və elmi dövriyyəyə ilk dəfə daxil edilən yüzlərlə arxiv sənədləri əsasında Azərbaycan siyasətşünaslığında ilk dəfə tədqiq edilmiş və nəticələr çıxarılmışdır.

NEW BOOK PUBLISHED BY KHAZAR UNIVERSITY'S INSTRUCTOR

A monograph entitled "Participation of southern immigrants in the socio-political life of Azerbaijan: 1947-1991" written by Assoc.Prof. Khagan Balayev, PhD in Political Sciences and Lecturer of the Department of History and Archeology of Khazar University, has been published by "Science and Education" publishing house.

Based on written sources and hundreds of archive documents recently introduced to open research, the author studied, for the first time in Azerbaijan political studies, life and activities that cover half a century, of political immigrants who moved to Azerbaijan SSR after the overthrow of the national power by Iranian military forces in South Azerbaijan in 1947.

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNƏ TƏBRİK ÜNVANLAMIŞDIR

THE UNION OF AZERBAIJANI WRITERS CONGRATULATES A KHAZAR UNIVERSITY INSTRUCTOR

İyunun 23-də Azərbaycan Yazıçılar Birliyi (AYB) "Ədəbiyyat qəzeti"ndə Xəzər Universitetinin müəllimi şair Qardaşxan Əzizxanlını onun tərcüməçilik və publisistik fəaliyyətini də qeyd etməklə, 60 illik yubileyi münasibətilə təbrik etmişdir. Təbrikdə Q.Əzizxanlının həyat və yaradıcılıq yolu qısaca nəzərdən keçirilir. Qəzet, eyni zamanda, şairin bu günlərdə nəşr edilmiş "İlkim də sən, indim də sən, sonum sən" (İlkimdəsən, indimdəsən, sonumsan") adlı son şeirlər kitabından poetik nümunələrə yer ayırmışdır:

http://edebiyyatqazeti.az/news/poeziya/1995-qardasxan-ezizxanli

"Ədəbiyyat qəzeti"ndə dərc edilmiş şeirləri *Manera.az* saytı da yayımlamışdır:

http://manera.az/edebiyyat/6687-men-ocaq-dunyadan-qalxan-tustuyem-sherler.html

On June 23, the Union of Azerbaijani Writers, in the newspaper "Ədəbiyyat qəzeti", congratulated Gardashkhan Azizkhanli, instructor of Khazar University, on the occasion of his 60th anniversary, appreciating his translation and publicist activities. The congratulatory message shortly covered G.Azizkhanli's life and career. The newspaper also spared some room for poems selected from the author's last book "You are the past, the present and the end of mine".

http://edebiyyatqazeti.az/news/poeziya/1995-qardasxan-ezizxanli

Manera.az web site released the poems published in the newspaper "Ədəbiyyat qəzeti".

http://manera.az/edebiyyat/6687-men-ocaq-dunyadan-qalxan-tustuyem-sherler.html

TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİNƏ DOSENT DİPLOMU TƏQDİM OLUNUB

LECTURER OF THE DEPARTMENT OF HISTORY AND ARCHEOLOGY WAS AWARDED ASSOCIATE PROFESSOR DIPLOMA


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASI

qərarı ilə

Xaqan Xəzər oğlu Balayev

DOSENT

elmi adı verilmişdir

THE SUPREME ATTESTATION COMMISSION ATTACHED TO THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN

confers on

Khaqan Alican Balayev

the academic title of

ASSOCIATE PROFESSOR

İyulun 30-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında diplomların təqdim olunması mərasimi keçirilib. Mərasimdə Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru Xaqan Balayevə də dosent diplomu təqdim olunmuşdur.

Müvafiq qərar Ali Attestasiya Komissiyasının 25 may 2018-ci il tarixli kollegiya iclasında qəbul edilmişdi.

On Jule 30, the diploma awarding ceremony was conducted at Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan. Khaqan Balayev, a lecturer of the Department of History and Archeology, PhD in Political Science, was also awarded an Associate Professor diploma.

The relevant decision was made at the collegiate meeting of the Supreme Attestation Commission on May 25, 2018.





MAGİSTR TƏLƏBƏLƏRİN NÖVBƏTİ DİSSERTASİYA MÜDAFİƏSİ

THESIS DEFENCE OF GRADUATE STUDENTS OF THE SCHOOL OF HUMANITIES AND SOCIAL SCIENCES HELD

İyunun 29-da Humanitar və sosial elmlər fakültəsinin magistr tələbələrinin növbəti dissertasiyalarının müdafiəsi keçirildi. Xəzər Universitetinin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri f.ü.f.d Eldar Şahgəldiyev (sədr) müdafiəni açıq elan etdi. Müdafiə şurasının üzvləri İngilis dili və ədəbiyyatı departamentinin müdir müavini Eynur Mehdiyev, proqram koordinatoru Milana Abbasova, departamentin müəllimləri İrina Orucova, İradə Səmədova, İlham Tağıyev, Nailə Qasımova, şuranın katibi isə Nuranə Fərhadova idi.

İngilis dili və ədəbiyyatı departamentinin magistr tələbələri – Könül İsmayılzadə, Elmira Musayeva, Gülnar Hüseynova, Tərənə Hüseynova və Aynurə Rzayeva dissertasiyalarını uğurla müdafiə etdilər.

On June 29, 2018, thesis defence of graduate students of the School of Humanities and Social Sciences, was held. Dr. Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research, declared the defence process open. The members of defence council included Eynur Mehdiyev, Vice-chair of English Language and Literature Department, Milana Abbasova, Program Coordinator; supervisors of MA students - Ph.D Irina Orujova, Ph.D Irada Samadova; instructors of the Department - Naila Gasimova, Ilham Taghiyev. Nurana Farhadova was the secretary of the council.

Graduate students of the Department of English Language and Literature – Konul Ismayilzade, Elmira Musayeva, Gulnar Huseynova, Tarana Huseynova, Aynura Rzayeva defended their theses successfully.





DEPARTAMENT RƏHBƏRLƏRİ VƏ POTENSİAL TƏDQİQATÇILARLA GÖRÜŞ

İyunun 29-da Xəzər Universitetində departament rəhbərləri və potensial tədqiqatçılarla görüş keçirildi. Görüşün məqsədi departamentlərin elmi potensialını gücləndirmək, elmi tədqiqat istiqamətlərini müəyyənləşdirmək, elmi tədqiqat nəticələrinə əsasən departamentlərin və tədqiqatçıların təşviqi strategiyası haqqında təkliflərin verilməsi idi.

Görüşü Elmi işlər üzrə prorektor İradə Xəlilova açaraq, müzakirə olunacaq məsələlər haqqında məlumat verdi. Görüş zamanı o, həmçinin Xəzər Universitetinin tərəfdaş kimi çıxış etdiyi NİZAMİ, PAWER və PETRA layihələri haqqında geniş məlumat verdi.

A MEETING WITH HEADS OF DEPARTMENTS AND POTENTIAL RESEARCHERS

A meeting with heads of departments and potential researchers was held at Khazar University on June 29. The aim of the meeting was to strengthen the scientific potential of departments, provide proposals on the ways of defining scientific research directions, promotion strategies of departments and researchers based on scientific research results.

Irada Khalilova, Vice-rector for Research, opened the meeting and informed about the issues to be discussed. During the meeting, she also gave detailed information about NIZAMI, PAWER and PETRA projects, in which Khazar University acted as a partner university.



DOKTORANTIN ELMİ İŞİNİN İLKİN MÜZAKİRƏSİ KEÇİRİLDİ

İyulun 2-də Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamenti doktorant Mədinə Karahanın "Əhməd Ağaoğlu yaradıcılığı Türkiyə ədəbi, ictimai-siyasi həyatında" adlı dissertasiya işinin ilkin müzakirəsini keçirdi. Müzakirədə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşları – professor Bədirxan Əhmədov, professor Teyyar Salamoğlu, professor Asif Rüstəmli, Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimləri – dosent Dilbər Zeynalova, Qardaşxan Əzizxanlı və başqaları iştirak edirdilər.

PRELIMINARY DEFENCE OF A PHD DISSERTATION HELD

On July 2, Khazar University Azerbaijani language and literature department held a preliminary defence of a dissertation by Madina Karahan, PhD candidate, on "Ahmed Aghaoghlu's literary creativity in a literary, social and political life of Turkey". Prof. Badirkhan Ahmadov, Prof. Tayyar Salamoghlu, Prof. Asif Rustamli - associates of Institute of Literature after Nizami, ANAS; Assoc.Prof. Dilbar Zeynalova and Gardashkhan Azizkhanli - Instructors of the Department of Azerbaijani Language and Literature of Khazar University, as well as other instructors of the University participated in the defence.



PROMİG LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ YAY MƏKTƏBİ

SUMMER SCHOOL WITHIN PROMIG PROJECT

İyulun 1-dən 7-dək İvane Cavaxişvili Tbilisi Dövlət Universitetində "Universitetdə miqrasiya təhsilinin təşviqi" Erasmus+ (PROMIG, 573554-EPP-1-2016-1-GE-EPPKA2-CBHE-JP) layihəsinin yay məktəbi keçirildi. Yay məktəbində koordinator kimi Xəzər Universiteti İnkişaf mərkəzinin layihə meneceri Ülkər Bayramova, müəllim kimi Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev və Coğrafiya və ətraf mühit departamentinin müəllimi Rövşən Kərimov, həmçinin, universitetin bir qrup MBA tələbəsi iştirak edirdilər.

Tədbirdə Bakı Mühəndislik Universitetindən və həmçinin, Avropadan Alikante Universiteti (İspaniya), Oldenburq Universiteti (Almaniya), WUS-Austria (Avstriya) təşkilatı, Gürcüstan universitetləri nümayəndələri və Əfqanıstan Xarici İşlər Nazirliyinin nümayəndəsi də iştirak edirdilər. Bir həftə davam edən yay məktəbində tyutorlar tələbələr üçün təlimlər keçdilər və təlimlərin son günü tələbələrin təqdimatları dinlənərək, onlara sertifikat təqdim olundu.

Xəzər Universitetinin müəllimləri də yay məktəbinin tyutorları olaraq sertifikatla mükafatlandırıldılar. Yay məktəbi müddətində həm də layihənin idarəetmə görüşü keçirildi, layihənin növbəti görüşlərinin vaxtı, layihənin kəyfiyyətli idarə olunması və layihə qarşısında duran məsələlər müzakirə olundu.

On July 1-7, a summer school "Promoting Migration Studies in Higher Education" was held within Erasmus+ (PROMIG, 573554-EPP-1-2016-1-GE-EPPKA2-CBHE-JP) project at Ivane Javakhishvili Tbilisi State University. Ulkar Bayramova, project manager of Center for Development of Khazar University, participated as an instructor at the summer school. Moreover, Elmar Mustafayev, Coordinator of the Department of Political Science and International Relations, Rovshan Karimova, Instructor of the Department of Geography and Environment as well as a group of MBA students participated in the summer school. Representatives of the Baku Engineering University, University of Alicante (Spain), University of Oldenburg (Germany), WUS-Austria (Austria), as well as representatives from Georgian universities and Ministry of Foreign Affairs, Afghanistan, also joined the summer school. Within one-week summer school, tutors conducted trainings for students. On the last day of the training, students delivered presentations and were certified. Khazar University instructors were certified as tutors of the summer school. Besides, the next dates of the summer school, quality management of the project as well as other issues were discussed in a project management meeting held over the course of the summer school.



LYUBLYANA UNİVERSİTETİNDƏ BEYNƏLXALQ HEYƏT HƏFTƏSİ

INTERNATIONAL STAFF WEEK AT UNIVERSITY OF LJUBLJANA

İyulun 2-6-da Xəzər Universitetinin müəllim heyəti Lyublyana Universitetinin (Sloveniya) İqtisadiyyat fakültəsinin Erasmus+ Proqramı çərçivəsində təşkil etdiyi Beynəlxalq Heyət Həftəsində iştirak etdi.

Proqram çərçivəsində vörkşoplar, məruzələr, təqdimatlar, kampus turları təşkil edilməklə yanaşı, Lyublyana Universitetinin müxtəlif departamentlərinin nümayəndələri ilə fərdi görüşlər də keçirildi.

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Dr.Şəhriyar Muxtarov, Qəbul şöbəsinin müdiri Lamiyə Namazova, Kitabxana-İnformasiya Mərkəzinin Kataloq şöbəsinin müdiri Samirə Orucova, Keyfiyyətin təminatı mərkəzinin assistenti Cəmilə Fərman və Beynəlxalq münasibətlər şöbəsinin direktoru Turan Cəfərova proqramda iştirak etdilər.

On July 2-6. staff members of Khazar University participated in the International Staff Week organized by the Faculty of Economics of the University of Ljubljana (Slovenia) within the Erasmus + Programme.

The program of the staff week included workshops, lectures, presentations, campus tours as well as individual meetings with representatives of various departments of the University of Ljubljana.

Participants from Khazar University included Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management, Dr. Shahriyar Mukhtarov, Vice-Dean of the School of Economics and Management, Ms. Lamia Namazova, Head of Admissions Office, Ms. Samira Orujova, Head of Cataloging Department at Library-Information Center, Ms. Jamila Farman, Assistant at Quality Assurance Center, and Ms. Turan Jafarova, Director of International Affairs Office.

"UĞURU ŞƏXSİ KEYFİYYƏTLƏR VƏ QAZANDIĞIN NAİLİYYƏTLƏR GƏTİRİR"



2018-ci il iyunun 1-də "Kaspi" qazetinin internet səhifəsində Xəzər Universitetinin məzunu, ADA Universitetinin İctimai və Beynəlxalq Münasibətlər İnstitutunun baş müəllimi Rəşad İbadovla "Uğur hekayəsi" rubrikasında dərc olunmuş müsahibəni oxucularımıza təqdim edirik.

Aristotelin prinsipi ilə hərəkət edir. Deyir ki, ən xəsis adam olmaq da arzu olunan deyil, ən əliaçıq da. Ona görə uğurun sirri məhz qızıl ortanı tapa bilməkdir. Xoşbəxt olmaq üçün insan çox ciddi, rasional şəkildə düşünməlidir. Əgər düzgün düşünə bilirsənsə, düzgün qərarlar verəcək və xoşbəxt olacaqsan.

Müsahibimiz İtaliyanın Florensiya şəhərində yerləşən Avropa İttifaqının sosial və humanitar elmlər üzrə tədqiqat mərkəzi sayılan Avropa Universiteti Tədqiqat İnstitutunda hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almış, ADA Universitetinin İctimai və Beynəlxalq Münasibətlər İnstitutunun baş müəllimi, həmçinin Lille Universiteti hüquq fakültəsinin hüquq və fəlsəfə üzrə qonaq professoru Rəşad İbadovdur.

Gəncədə, müəllim ailəsində dünyaya gəlib. Atası Nadir İbadov Gəncə Dövlət Universitetinin riyaziyyat elmləri üzrə dosenti, anası Rəfiqə İbadova isə orta məktəbdə riyaziyyat müəllimi işləyib. Məktəbi bitirdikdən sonra Xəzər Universitetinə qəbul olunub və ali təhsil almaq üçün Bakıya gəlib. Deyir ki, Xəzər Universitetinə gəlməyi tam təsadüf olub: "Polis Akademiyasına hazırlaşırdım, lakin imtahanda kəsildim. Həmin balla Xəzər Universitetində pulsuz oxuya bilərdim. Amma yenidən Polis Akademiyasına hazırlaşmaq istəyirdim. Qohumumuz Həsən müəllim məni fikrimdən daşındırdı. Xarici ölkələrdən müəyyən şəkillər göstərdi və mənə dedi ki, əgər buralara getmək istəyirsənsə, Xəzər Universitetində oxumalısan. "Xəzər"də əlaçı oxudum. Həqiqətən, universitet gözümü açdı və mühit məni xaricdə oxumağa sövq edirdi. Universitetdə oxuduğum illərin yay aylarını Azərbaycanda keçirmirdim. Ukrayna, Almaniya, Türkiyə, İtaliya və digər başqa ölkələrdə yay məktəblərində, treninqlərdə iştirak edirdim. Həm də aktiv tələbə həyatım var idi və "Khazar Review" jurnalında mütəmadi məqalələr yazırdım".

Həmsöhbətimiz universiteti bitirdikdən sonra Yunanıstanda insan hüquqları sahəsində bir təşkilatda könüllü kimi işləyib. Hüquq üzrə magistr təhsilini isə İsveçin Lund Universitetində alıb: "İsveçdən başqa, digər ölkələrə də tam təqaüdlə qəbul olundum. Amma Skandinaviya mənim üçün maraqlı idi. Burada təkcə universitet yox, cəmiyyət də öyrədir. Belə bir deyim var ki, Avropa bir dünyadır, Skandinaviya başqa dünyadır. Skandinaviyada oxumaq həqiqətən xoşbəxtlik idi".

Magistraturanı bitirdikdən sonra, akademik təhsil almaq üçün yenidən bir neçə universitetə sənəd göndərib və tam təqaüdlə qəbul olunub. Bu dəfə Florensiyada yerləşən Avropa İttifaqının sosial və humanitar elmlər üzrə tədqiqat mərkəzi sayılan Avropa Universiteti Tədqiqat İnstitutunu seçib (European University Institute).

İtaliyada yerləşməsinə baxmayaraq, təhsil ingilis və fransız dillərində olub. 2006-cı ildə qəbul olunub, 2012-ci ildə universiteti bitirib. Bu müddət ərzində bir il Amerikada Harvard hüquq fakültəsində doktorant araşdırmaçı (2009-2010), bir il isə Berkeley şəhərində yerləşən Kaliforniya Universitetində araşdırmaçı alim kimi təhsil alıb (2008-2009). Ümumilikdə, 4-ü xaricdə olmaqla, 5 universitetdə təhsil alan müsahibimiz 2013-cü ildən ADA-da hüquq sahəsində baş müəllim kimi işləyir.

- Rəşad bəy, xaricdə işləmək imkanlarınız çox olub. Necə oldu ki, Azərbaycana qayıtdınız?

- Dünyanın hansı ölkəsində yaşasaq da, Azərbaycana qayıtmaq hissi həmişə olur. Biz təbiətcə torpağabağlı insanlarıq. Amerikada, Avropada o qədər azərbaycanlı görmüşəm ki, orada yaşayır, amma günümü Azərbaycanla keçirir. Azərbaycan qəzetləri oxuyur, facebookda ölkəmiz haqqında şərhlər yazır. Mən də beləyəm. Hələ xarici ölkələrdə yaşayarkən, ADA Universitetinin rektoru Hafiz Paşayevlə tanışlıq imkanım yarandı. Universitet üçün akademik layihələr həyata keçirirdim. ADA Universitetinin ilk akademik proqramı sayılan "Avropa Birliyi Hüququ və Siyasəti" adlı yay məktəbini Türkiyə və Gürcüstan da daxil olmaqla, gənc dövlət işçiləri üçün 2007-ci ilin yayında təşkil etdik. Daha sonra 2008-ci ildə ikinci akademik layihəni həyata keçirdik – xaricdə sosial elmlər sahəsində PhD dərəcəsi üzrə təhsil alan azərbaycanlı gəncləri toplayıb, ADA-da konfrans təşkil etdik. ADA Universiteti ilə sıx əlaqələrimin olmasına baxmayaraq, Sidney Universitetində işləmək imkanım vardı. Elmi rəhbərim, Wojciech Sadurski bu universitetin hüquq nəzəriyyəsi üzrə professoru idi və mənə universitetdə işləmək imkanı yaratmışdı. Azərbaycanda işləmək, hüquq elmləri sahəsinə elmi araşdırmalarla töhfə vermək kimi arzularım var idi və bu səbəbdən Azərbaycana qayıtmağa qərar verdim.

- ADA-da yeni layihələrə davam edirsiniz. Bu ildən universitetdə hüquqşünaslıq ixtisası açılır və ixtisasın yaradılmasının təşəbbüskarlarındasınız. Bu ixtisas bir neçə universitetdə var. Bəs ADA-da hansı zərurətdən yarandı?

- Biz yeni nəsil hüquqşünasların yetişməsində maraqlıyıq. Aristotel deyir ki, qanunlar insanları formalaşdırır. Sosial mənada isə qanunlarımız bizi müəyyən forma və keyfiyyətlərə malik cəmiyyət üzvünə çevirir. Müasir dünyada yeni qanunların yaranmasında hüquq ixtisası aparıcı rollardan birini oynayır. Biz istəyirik elə bir hüquq məktəbi yaradaq ki, qanunların formalaşmasında çox ciddi rol oynaya bilsin. Hüquq elmləri sahəsində ciddi tədqiqatların aparılmasını təşviq edəcəyik. Beynəlxalq səviyyədə tanınan və hörmət ediləcək akademik hüquq jurnalının çap edilməsini planlaşdırırıq. Hüquqşünaslar cəmiyyətdə və siyasi sistemdə ədaləti qoruyan, onu təmin edən əsas şəxslərdəndir. Biz analitik hüquq düşüncəsinə sahib olan, qanunlara tənqidi yanaşa bilən, hüquq və cəmiyyətin digər sahələrindəki əlaqəni çevik və analitik dəyərləndirə bilən, yerli qanunvericiliyi mükəmməl bilən, müxtəlif hüquq sistemləri haqqında məlumatı olan, müqayisəli hüquq yanaşması apara bilən, qlobal hüquq çağırışlarına hazır olan, Azərbaycan və ingilis dillərində peşəkar - effektiv kommunikasiya və hüquq yazısı bacarıqlarına malik olan və nəhayət, güclü etik davranışlar nümayiş etdirə bilən kadrların yetişməsində israrlıyıq!

- Rəşad müəllim, siz həm də hər il Fransada hüquq fəlsəfəsindən dərs deyirsiniz.

- Keçən il yay aylarında "İnsan Elmləri Fondu (Fondation Maison des sciences de l'homme)", "Atlas Proqram" təqaüdünün qalibi olaraq Fransanın Lille Katolik Universiteti hüquq fakültəsində 3 ay müddətində "konstitusional neytrallıq" mövzusunda elmi tədqiqat aparırdım. Orada bir olan diqqətimi çəkdi. Universitet hüquq fakültəsində hüquq tarixi və fəlsəfəsini deyəcək qonaq professor axtarırdı. Mən də sənədlərimi verdim və seçildim. Bu il mart ayında "Hüquq tarixi və fəlsəfəsi" dərsini bakalavr proqramında tədris etdim. İndi bunu hər il davamlı olaraq edəcəyəm.

- Fransızlar azərbaycanlının Fransada dərs deməsini necə qarşılayırlar?

- Birinci dəfə dərsə gələndə həyəcanlandım. 52 tələbə var idi və ilk baxışdan normal qarşılamadılar. Birinci dərsdən sonra kofe fasiləsi oldu, bir neçə tələbə mənə yaxınlaşdı ki, Rəşad müəllim, biz həmişə fikirləşirdik ki, niyə məhz bizə Əfqanıstandan müəllim dərs deməlidir. Azərbaycanla Əfqanıstanı qarışdırırdılar. Onlara ölkəmiz haqqında məlumat verdim. Dərs boyu internetdə Azərbaycanı araşdırdılar və onlarda müsbət fikir formalaşdı. Fransızlar həmişə özlərinə qarşı münasibətə daha fərqli yanaşırlar və müəyyən mənada eqoları daha yüksək olur. Amma zaman keçdikcə, məni yaxından tanıdılar və münasibətləri dəyişdi. Daha sonra tələbələr məni bir neçə dəfə günorta yeməyinə də dəvət etdilər. Dekan zarafatla deyirdi ki, 5 ildir burada işləyirəm məni hələ günorta yeməyinə dəvət edən olmayıb. Fransızlar çox mədəni və savadlıdırlar. Lakin sosial münsiyyət baryerini aşıb, onlarla dost olmaq bir qədər çətindir. Onların psixologiyasını anlamalı və damarını tuta bilməlisiniz.

- İstər Azərbaycanda, istər Fransada tələbələrin sevimli müəllimi olmusunuz. Bunun sirri nədir?

- Bunu eşitmək xoşdur. Fikrimcə, yaxşı dərs deyə bilmək insanın təbiətində olmalıdır. Ailə, ətraf mühit və tədris aldığın yerlərin böyük əhəmiyyəti var. Mən müəllim ailəsində doğulmuşam, atam daimi olaraq "ailə müşavirəsi" deyirdi. Evimizdə ən böyük otağımız kitabxana idi və orada lövhələr var idi. Tapşırıqlarımız olurdu və yazdığımızın həllini atama izah edirdik. Dərs deməyi, ünsiyyət qurmağı atam bizə uşaqlıqdan öyrədirdi. Digər tərəfdən müxtəlif yerli, Avropa və Amerika universitetlərində təhsil aldım. Dünya hüquq elminin çox məşhur alimləri müəllimim olub. Hər birindən tədrislə bağlı müxtəlif ənənələr öyrənmişəm. Ümumiyyətlə isə, Kant pedaqogikasına inanıram. 3 əsas konseptual ideya üzərində qurulub: 1) qayğı - tələbələrin hər zaman qayğısına qalmalısan 2) Öyrətmək- tələbələri ən yaxşı formada öyrətməlisən, 3) intizam – nizam-intizama riayət etmək lazımdır.

- Riyaziyyatçı ailəsində böyümüsünüz və hüquqşünaslığı seçmisiniz. Hüquq sevgisi sizdə necə yaranıb?

- Atam riyaziyyatçı olmağımı istəyirdi. Mən də əslində 11-ci sinfin ortalarına qədər riyaziyyata hazırlaşırdım. Gəncədə riyaziyyat olimpiadasının qalibi olmuşam. Ola bilsin ki, cəmiyyətdə, ailəmizdə hansısa hadisələr oldu və mən istiqamətimi dəyişdim. Biz müharibədən sonrakı dövrdə böyümüş insanlarıq. Bu dövrdə cəmiyyət sosial mənada təlatümlü olur və həmin dövr üçün ədalətsizliklər də qaçılmazdır. Düşünürəm ki, uşaqlığımın bu dövrə təsadüf etməsi məni hüquqşünaslığa gətirdi.

- 35 yaşınız var, 5 universitet bitirmisiniz. İnsanların əksəriyyəti vaxt azlığından şikayətlənir. Vaxt problemi yaşamısınızmı?

- Mən bu fikirlə razı deyiləm. Həyat intizamı ilə yaşayandan sonra hər şeyə vaxt qalır. Ciddi universitetdə PhD proqramı çox ağırdır. Hər gün səhər 9-da kitabxanaya gedirdim və axşam 8-də çıxırdım. Bütün günü oxuyub yazırdım, hər şeyi də çatdırırdım. Azərbaycanda insanlar düzgün rejimdə yaşaya bilmirlər və ona görə də vaxtdan şikayətlənirlər. Avropada insanların hamısı müəyyən bir rejimdə işlədiklərinə görə, cəmiyyət olaraq buna alışıblar. Məsələn, əksəriyyət insan 5 gün işləyir, amma həftəsonu istirahət edir. O cəmiyyətdə yaşayanda artıq siz də 5 gün işləyir, həftəsonu istirahət edirsiniz. Sizə heç kim həftə içi zəng vurub deməyəcək ki, gəl restorana gedək, yeyib-içək. Amma Azərbaycanda tez-tez olur. Həftə içi zəng vururlar ki, gedək yemək yeyək, bu gün hansısa günü qeyd edirəm. Avropada ən böyük uğur əldə edənlər də çalışırlar ki, bunu həftə içi qeyd etməsinlər. Çünki əksər insanlar konsept olaraq bu yaşam tərzini bölüşürlər. Bu mənada insanlar müəyyən rejimdə olsalar, kifayət qədər istirahət də edəcəklər, hər şeyə də vaxt qalacaq. Mən tələbələrə deyirəm ki, həftədə 5 gün 6-8 saat oxusanız, ADA Universitetini əlaçı bitirərsiniz. Sadəcə, vaxtı düzgün bölüşdürmək lazımdır.

- Təhsil aldığınız universitetləri əlaçı bitirmisiniz. Bütün universitetlərə təqaüdlə qəbul olmusunuz. Hər şeyi üst səviyyədə etməyi necə bacarırsınız?

- Rəqabətli mühitdə mütləq inkişaf edirsiniz. Qrup yoldaşlarınız uğur qazanırsa, siz də qazanmalısınız. Rəqabət inkişafa məcbur edir. Ailənin də çox böyük rolu var. Atam kifayət qədər elm sahəsində uğurlu adam olub. Xarici konfranslara gedirdi və ingilis dilini bilirdi. Mənə də oxumağı daim aşılayırdı. Anam da hər zaman xaricdə oxumağımla bağlı məni həvəsləndirirdi. Gəncədə adi orta məktəbdə oxuyurdum. Müharibədən sonra Gəncədə vəziyyət çox çətin idi. Elektrik enerjisi və təbii qaz demək olar ki, yox idi. Qışda həyətimizdə odun doğrayardım. Məktəbdə otaqlar çox soyuq olurdu, isitmə sistemi yox idi. Elə bir məktəbdən bura qədər gəlmək, düşünürəm ki, normal şərtlər altında çətindir. Mənim oxuduğum uşaqlardan çox cüzi hissəsi uğur əldə edə bildi. Bəzi insanları cəmiyyət "əritdi", bəzilər isə ailəsinin dəstəyi ilə bu çətinlikləri adlaya bildi. Təbii, insanın özü də çox iradəli olmalıdır. Avropada isə mənə ətraf mühit kömək oldu. Ətrafımda həmişə rəqabət mühiti hökm sürürdü. Bir qrup yoldaşım var idi, portuqal dilli dünyanın ən varlı insanının tək nəvəsi idi. Faktiki milyarder idi. Amma özü uğur qazanmaq üçün dayanmadan oxuyurdu. İnsan öz zəhməti hesabına uğur qazana bilməlidir. Bu, bizim də psixologiyamızda möhkəmlənməlidir və həyatda nailiyyətləri özümüz əziyyət çəkib əldə etməliyik. Atam da həmişə deyirdi ki, insan kimi sənin uğurun həyatda şəxsi keyfiyyətlərin və qazandığın nailiyyətlərlə bağlıdır. Avropada, Amerikada bu çox vacib, beyinlərə otuzdurulmuş yanaşma tərzidir. İnsan özü özünü inkişaf etdirməyi bacarmalıdır. Belə mühitdə inkişaf etməmək mümkün

- Uğur sirriniz nədir? Yalnız ağıllı olmaq kifayət edirmi?

- Yox, tək ağıl kifayət etmir. Məncə, bir çox şərt var. İlk olaraq düzgün düşünə bilmək qabiliyyətin olmalıdır. Aristotel deyir ki, həyatın mənası xoşbəxt olmaqdır. Xoşbəxt olmaq üçün insan çox ciddi, rasional şəkildə düşünə bilməlidir. Əgər düzgün düşünə bilirsənsə, düzgün qərarlar verəcək və xoşbəxt olacaqsan. İngilislər

deyir ki, oxuduğunuz kitablar, görüşdüyünüz insanlar və səyahət etdiyiniz ölkələr uğurlu karyeranın sirridir.

- Ailə qurmaq karyeraya mane olurmu?

- Akademik karyera ailəyə vaxt ayırmağa imkan vermir. Akademik dünyada olan insanlar üçün ailə problem ola bilər. Fikrimcə, ciddi PhD elmi işi yazmaq istəyən insanlar bunu bitirdikdən sonra ailə qursalar daha yaxşı olar. İnsan gərək ailəyə normal vaxt sərf etsin. Ailə qurmaq xatirinə ailə qurmaq olmaz.

- Gənclərlə çox ünsiyyətdə olmusunuz. Sizcə, Azərbaycan gəncliyində çatışmayan cəhət nədir?

- Mənca, bizim gənclikdə arzu edə bilmək keyfiyyəti yaxşı inkişaf etməyib. Onlar ciddi məsələlərlə bağlı arzu edə bilmirlər. Bəzən belə bir fikir yaranır ki, cəmiyyət sürətlə maddiləşir. Pulun dəyəri bütün dəyərlərin üzərinə qalxır. Bu, vəhşi kapitalizmə bənzəyir. Bütün insani dəyərlərin üzərinə pul çıxır və bütün arzuları öldürür. İnsanların arzuları yalnız pulla əlaqəlidir. İnsanlar arzulamağı bilməlidirlər. Mənca, Azərbaycanda gənclər ədalətli olmaq hissini itirirlər. Bu, mənəvi keyfiyyətdir və hər bir insan bunu özündə daimi aşılamalıdır. Yaxşısını pisdən ayıra bilmək çox dəyərli fəzilətdir. Adətən, ilk gün dərsə başlayarkən tələbələrə ilk sualım "həyatda arzunuz nədir?" olur. Böyük əksəriyyət bu suala cavab verməkdə çətinlik çəkir. Cavablar, adətən, texniki məsələlərlə bağlı olur. Məsələn, universiteti bitirmək, yaxşı iş tapmaq və sair. Cəmiyyət kontekstindən arzulamaq bizdə çatışmır. Şəxsi maraqlarla bağlı insanlar daha çox arzulayır və bunlar çox vaxt texniki məsələlərlə bağlı olur. İnsan düzgün arzular qura bilərsə, mütləq uğurlu olacaq.



Aygün Əziz

http://kaspi.az/az/uuru-sexsi-keyfiyyetler-ve-qazandiin-nailiyyetler-getirir-uur-hekayesi/#Kalibri

WEBSITE OF "KASPI" NEWSPAPER POSTS AN INTERVIEW WITH A KHAZAR UNIVERSITY GRADUATE

On June 1, 2018, the website of "Kaspi" newspaper, a daily public and political publication, posted an interview with headline "Personal features and achievements lead to success" which was given by Rashad Ibadov, a Khazar University graduate and head instructor at Institute of Public and International Relations of ADA University. The interview was taken by Aygun Aziz and posted in the rubric "Success Story".

The interview is available at:

http://kaspi.az/az/uuru-sexsi-keyfiyyetler-ve-qazandiin-nailiyyetler-getirir-uur-hekayesi/#Kalibri

TƏHSİL FAKÜLTƏSİNİN MAGİSTRANTI DİSSERTASİYA İŞİNİ MÜDAFİƏ ETDİ

A GRADUATE STUDENT OF THE SCHOOL OF EDUCATION DEFENDS MASTER THESIS

İyulun 13-də Xəzər Universitetinin Təhsil fakultəsinin Pedaqogika (tarixi və nəzəriyyəsi) ixtisası üzrə magistratura təlabəsi Aytən Rəşidli "IX sinif Azərbaycan dili (dövlət dili kimi) dərs kitabındakı ədəbi mətnlərin tənqidi düşünmə bacarığı qazandırma baxımından incələnməsi" mövzusunda dissertasiya işini müdafiə etdi.

Müdafiə komissiyasının sədri professor Piralı Əliyev, magistrantın elmi rəhbəri dosent Elza Səmədova, dosent İradə Xəlilova, dosent Dilbər Zeynalova və digərlərinin iştirakı ilə keçən müdafiə iclasında magistrantın çıxışı dinlənildi. O, sualları cavablandırdı və müzakirələr aparıldı. Tədqiqat işinin aktuallığı və lazımi səviyyədə yerinə yetirildiyi nəzərə alınaraq, Aytən Rəşidliyə magistr elmi dərəcəsi verilməsi haqqında qərar qəbul edildi.

On June 13, Aytan Rashidli, a graduate student of the School of Education majoring in Pedagogy (History and Theory of Pedagogy) defended a thesis with a topic "Analysis of the literary texts in the IX grade Azerbaijani language textbook (as a state language) in terms of critical thinking".

Defence Commission was chaired by Prof. Pirali Aliyev. The defence was attended by Assoc. Prof. Elza Samadova, research supervisor of the graduate student, as well as Assoc.Prof. Irada Khalilova, Assoc.Prof. Dilbar Zeynalova and some other Faculty staff members. Upon the defence of the thesis, Aytan Rashidli answered questions and discussions were held. Taking the relevance and quality of the thesis into consideration, a Master's degree was conferred on Aytan Rashidli.

AZƏRBAYCAN MÜƏLLİMİ

"AZƏRBAYCAN MÜƏLLİMİ" QƏZETİNDƏ DƏRC OLUNMUŞ MÜSAHİBƏDƏ XƏZƏR UNİVERSİTETİ HAQQINDA

AN ARTICLE IN "AZƏRBAYCAN MÜƏLLİMİ" NEWSPAPER TOUCHES ON KHAZAR UNIVERSITY

Azərbaycan Təhsil Nazirliyinin orqanı "Azərbaycan müəllimi" qəzetinin 2018-ci il 20 iyul tarixli nömrəsində "Clarivate Analytics" şirkətinin Azərbaycan üzrə rəsmi nümayəndəsi Aygün Babazadə ilə "Akademik yazı bacarığı ali məktəblərdə öyrədilməlidir" sərlövhəli müsahibə dərc olunmuşdur. Müəllif Oruc Mustafayevdir.

Aygün Babazadə müsahibəsində Azərbaycandan "Web of Science" bazasına daxil olan elmi jurnallar sırasında Xəzər Universitetinin *Khazar Journal of Humanities and Social Sciences* ("Xəzər humanitar və sosial elmlər jurnalı") jurnalından və Xəzər Universitetində akademik müəllim heyətinin fəaliyyətinin illik qiymətləndirilməsi aparılarkən müəllimlərin topladığı balların 30 faizinin məhz elmi tədqiqat işlərinə əsaslanmasından da bəhs edir.

Müsahibənin tam mətnini bu linkdə oxumaq olar:

http://muallim.edu.az/news.php?id=1857#Kalibri

An interview with Aygun Babazadeh, an official representative of "Clarivate Analytics" company for Azerbaijan, was published in "Azerbaijani teacher" journal, on July 20, 2018, a body of the Ministry of Education. Oruj Musayev is the author of the article entitled "Academic writing skills should be taught at universities".

In the interview, Aygun Babazadeh mentioned that Khazar Journal of Humanities and Social Sciences is among the list of scientific journals included in the Web of Science. Moreover, she noted that the academic staff of Khazar University gained 30 points in the annual assessment of the conducted research.

The interview is available through the following link:

http://muallim.edu.az/news.php?id=1857#Kalibri

PETRA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNDƏ TƏLİM

TRAINING AT SUMGAYIT STATE UNIVERSITY WITHIN PETRA PROJECT

İyulun 29-da Xəzər Universiteti İnkişaf mərkəzinin layihə meneceri Ülkər Bayramova PETRA layihəsi çərçivəsində Sumqayit Dövlət Universitetində "Ali təhsil müəssisələrində elektron təhsil" mövzusunda təlim keçirmişdir. Tədbirdə universitetin Beynəlxalq əməkdaşlıq və İnformasiya texnologiyaları şöbələrinin əməkdaşları və müxtəlif kafedraların müəllimləri iştirak etmişlər. Təlim zamanı elektron təhsil və onun imkanları, ali təhsil müəssisələrində tətbiqi və onun tətbiqinin tələbə effektivliyinə təsiri haqqında geniş məlumat verilmişdir.

Verilən məlumatları maraqla dinləyən iştirakçılar tərəfindən təlimçiyə çoxlu suallar verilmiş və mövzu ətrafında diskussiyalar aparılmışdır.

On July 29, Ulkar Bayramova, a project manager of Khazar University Development Center, conducted a training session on *Electronic Education in Higher Educational Institutions*," within PETRA project, at Sumgayit State University. The event was attended by the empoyees of the departments of International Cooperation and Information Technologies, and instructors of various departments. During the training, the trainees were provided with detailed information on electronic education and its possibilities, its application in higher educational institutions and impact on student effectiveness.

The participants, who listened attentively to the trainer, asked many questions and the session was folowed by discussions around the topic.

UNİKAL.ORG "DÜNYA" MƏKTƏBİNDƏKİ ZƏHƏRLƏNMƏ İLƏ BAĞLI YAYDIĞI XƏBƏRİ TƏKZİB ETDİ

UNIKAL.ORG DENIED THE NEWS IT RELEASED ABOUT POISONING AT "DUNYA" SCHOOL

Təkzibin mətnində yazılmışdır: "23.04.18 tarixində saytımızda "Dünya məktəbində kütləvi zəhərlənmə: 50 şagird, 4 müəllim" başlığı altında yazı dərc olunmuşdur.

Sözügedən yazı Xəzər Universitetinin "Dünya" məktəbinin kollektivini narahat etdiyi üçün Unikal.org saytı olaraq həmin məktəbin müəllim və şagird heyətindən tərzrahlıq edirik. Təhsil müəssisəsi xəbərlə bağlı saytımıza təkzib məlumatı ünvanlayıb. Məlumatda qeyd edilir:

"Diqqətinizə çatdırırıq ki, "Dünya" Məktəbində hər-hansı kütləvi zəhərlənmə halı baş verməmişdir. 26.04.2018 tarixində Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən aparılan müayinələrin nəticələri də bunu bir daha təsdiq edir.

50 nəfər şagirdin dərsə gəlməməyinə gəlincə isə, nəzərə alınmalıdır ki, "Dünya" məktəbində 70 sinif var və müəyyən səbəblərdən ən azı hər sinifdən 1 şagirdin dərsə gəlməməsi normal sayıla bilər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən aparılan müayinələrin nəticələrini sənəd olaraq yazıya əlavə edirik və sayt rəhbərliyindən KİV haqqında müvafiq qanunvericiliyə uyğun olaraq qeyd olunan yazı ("Dünya məktəbində kütləvi zəhərlənmə: 50 şagird, 4 müəllim") ilə bağlı bizim təkzibimizi saytımızda dərc etməyinizi xahiş edirik."

Təkzib xəbərini bu linkdə oxumaq olar:
http://www.unikal.org/w188927.html

The text said: "On April 23, 2018, an article entitled "Mass Poisoning at Dunya School: 50 Pupils, 4 Teachers" was published on our website. We as unikal.org website apologize to pupils and teachers of Dunya school as the staff of the school are concerned with the released article. The educational organisation has provided our website with contadictory report which says: "Please note that no case of mass poisoning has occurred at "Dunya" School. It is also confirmed by the results of the examination carried out on 26.04.2018, by the Binagadi Regional Hygiene and Epidemiology Center of the Ministry of Health of the Republic of Azerbaijan.

As for 50 students who were absent, it should be taken into consideration that there are 70 classes at "Dunya" school, and absence of 1 pupil per class, for certain reasons, can be considered normal.

We attach the results of the examination conducted by the Binagadi Regional Hygiene and Epidemiology Center of the Ministry of Health of the Republic of Azerbaijan as a document and request the website management to publish, in accordance with relevant legislation on Mass Media, our denial of the report (Mass Poisoning at Dunya School: 50 pupis, 4 Teachers) on your website.

Denial of the report is available at:
http://www.unikal.org/w188927.html

"XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ ÖLKƏDƏ VƏ XARİCDƏ ÇAP OLUNUB

KHAZAR UNIVERSITY STAFF PUBLISH ARTICLES IN THE COUNTRY AND ABROAD

***



Tarix və arxeologiya departamentinin müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Xaqan Balayevin "Azərbaycan Xalq Cümhuriyyəti və milli hüquqlarımızın bərpası: dövlət dili haqqında ilk sənəd" adlı məqaləsi Qərbi Kaspi Yniversitetinin Elmi xəbərlər"inin 2018-ci il 1-ci sayında dərc olunub.

Məqalədə AXC Nazirlər Şurasının 1918-ci il iyunun 27-də qəbul etdiyi "Dövləti lisan türkcə qəbul edilərək, müvəqqətən hökuməti müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında" tarixi qərarının yaranma şəraiti və tətbiqi geniş şərh olunur.

An article entitled "The Azerbaijan Democratic Republic and restoration of our national rights: the first document on the state language" by **Assoc.Prof. Khagan Balayev, the instructor of the Department of History and Archaeology,** was published in the first issue for 2018 of "Science review" journal of Western Caspian University.

The article broadly interprets the need for, and application of historical decision "The adoption of Turkish as the state language and the temporary use of the Russian language in state institutions" approved by the Council of Ministers of the Azerbaijan Democratic Republic on June 27, 1918.

***

Tədqiqatçı Abdusalam S. Mustafa və Kompüter elmləri departamentinin koordinatoru Dr.Məhəmməd Şərifovun həmmüəllifliyi ilə yazılan məqalə International Journal of Computing and Technology(IJCAT), (cild 5, nömrə 6, 2018) nəşr edilmişdir.

"The Challenges of e-Parliament Adoption and its Mitigation" ("E-Parlamentin formalaşmasında mövcud çətinliklər və onların aradan qaldırılması") adlı məqalədə inkişaf etməkdə olan ölkələrdə İKT-nin tətbiqi araşdırılır, eləcə də əsas tələblərin və texniki problemlərin müəyyənləşdirilməsi zamanı fərqliliklər ayırd edilir və problemlərin həlli yolları təklif edilir.

Məqalənin xülasəsi və tam mətnini aşağıdakı keçiddən əldə etmək olar: *http://ijcat.org/articles/5-6/The-Challenges-of-e-Parliament-Adoption-and-Its-Mitigation.html*

Co-authored by Abdusalam S. Mustafa, a Researcher and Dr. Mahammad Sharifov, Coordinator of Computer Science Department, the article has been published in the International Journal of Computing and Technology(IJCAT), Volume 5, Issue 6, June 2018.

"The Challenges of e-Parliament Adoption and its Mitigation" investigates the application of ICT in the parliaments of emerging economies and makes distinctions while identifying key requirements and technical challenges and consequently suggests solutions to the challenges.

The abstract and full text is available at:

http://ijcat.org/articles/5-6/The-Challenges-of-e-Parliament-Adoption-and-Its-Mitigation.html

***

***

İqtisadiyyat və menecment fakültəsinin dekan Dr. Ceyhun Məmmədov, dekan müavini Dr. Şəhriyar Muxtarov və departamentin koordinatoru Dr. Elvin Məmmədovun ***"The Impact of Financial Development on Energy Consumption: Evidence from an Oil-Rich Economy"*** ("Maliyyə artımının enerji istehlakına təsiri: neftlə zəngin iqtisadiyyatdan məlumatlar) adlı məqaləsi ***"Energies"*** jurnalının 2018-ci il 6-cı sayı, 11-ci buraxılışında nəşr edilmişdir. Sözü gedən jurnal "Web of Science" (SCI impakt Faktor: 2,26) və SCOPUS (Citescore 3,11) kimi nüfuzlu məlumat bazalarında indekslənir.

Məqalədə Azərbaycanda maliyyə inkişafı, iqtisadi artım və enerji istehlakı arasındakı əlaqə kointeqrasiya metodu ilə analiz edilmişdir. Məqalənin nəticələrinə görə, dəyişənlər arasında uzunmüddətli kointeqrasiya əlaqəsi mövcuddur. Bundan əlavə, müəlliflər uzunmüddətli dövrdə maliyyə inkişafı və iqtisadi artımın enerji istehlakına təsirlərinin müsbət və statistik cəhətdən əhəmiyyətli olduğu nəticəsinə gəlmişlər. Tədqiqat nəticələri əsasında iqtisadi siyasət üzrə qərarvericilər üçün bir sıra təklifləri irəli sürülmüşdür.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
http://www.mdpi.com/1996-1073/11/6/1536

The research paper "The Impact of Financial Development on Energy Consumption: Evidence from an Oil-Rich Economy" by **Dr. Jeyhun Mammadov, dean of the School of Economics and Management, Dr. Shahriyar Mukhtarov, vice dean of the School of Economics and Management, and Dr. Elvin Mammadov, coordinator of the Department of Economics and Management,** was published in Energies, No 6, Vol 11, 2018. The journal is indexed by indexed by the Science Citation Index Expanded "Web of Science" (SCI Impact Factor: 2.26) and SCOPUS (Citescore 3.11) databases.

The study investigates the relationship between energy consumption, financial development, and economic growth in an oil-rich economy Azerbaijan employing cointegration techniques. The results confirm the existence of a long-run relationship among the variables. Also, Authors find that there is a positive and statistically significant impact of financial development and economic growth on energy consumption in the long-run. In this regard, Azerbaijani policymakers and related authorities in similar economies should consider a balanced approach to economic growth, financial development, and energy-related measures policies.

The paper is available at:
http://www.mdpi.com/1996-1073/11/6/1536

***

İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Dr. Şəhriyar Muxtarov və departamentin koordinatoru Dr. Elvin Məmmədovun ***"Factors that increase credit risk of Azerbaijani banks"*** adlı məqaləsi ***"Journal of International Studies"*** jurnalının 2018-ci il 2-ci sayı, 11-ci buraxılışında çap edilmişdir. Sözü gedən jurnal SCOPUS (Citescore 1.10) kimi nüfuzlu məlumat bazalarında indekslənir.

Məqalədə Azərbaycanda bankların kredit riskinə təsir edən faktorlar analiz edilmişdir. Bu çərçivədə aktiv çəkisinə görə ən böyük 10 bank analiz olunmuşdur. Analiz nəticələrinə görə, kapital adekvatlığı əmsalı faiz dərəcəsi və cəmi aktivlərdə azalma kredit riskini artırır. Bununla yanaşı, tədqiqatçılar işsizlik və kredit riski arasında mənfi əlaqə olduğunu ortaya qoymuşlar.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
http://www.jois.eu/?422,en_factors-that-increase-credit-risks-of-azerbaijani-banks


The research paper "Factors that increase credit risk of Azerbaijani banks" by **Dr. Shahriyar Mukhtarov, vice dean of the School of Economics and Management and Dr. Elvin Mammadov, coordinator of the Department of Economics and Management,** was published in Journal of International Studies, No 2, Vol 11, 2018. The journal is indexed by SCOPUS (Citescore 1.10), the prestigious abstract and citation database of peer-reviewed literature.

The study investigates the influencing factors behind credit risks in Azerbaijani banks, using annual data covering the period from 2010 to 2015. Within this scope, authors analyzed 10 biggest banks of Azerbaijan with respect to their asset size. Furthermore, 10 explanatory variables were used to achieve this objective. According to the results of analysis, it was defined that 4 independent variables affect credit risk of Azerbaijani banks. It was also determined that decrease in the capital adequacy ratio, interest rate and total assets lead to increasing credit risk.

The paper is available at:
http://www.jois.eu/?422,en_factors-that-increase-credit-risks-of-azerbaijani-banks

***

***



Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimovanın (doktorant) **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba rayon filialının baş müəllimi Cəfər Səlimovla** birgə həmmüəllif olduğu "Approaches, methods, procedures and techniques of English language teaching and learning" adlı elmi məqaləsi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Filologiya məsələləri" jurnalının 2018-ci il 8-ci sayında çap edilmişdir.

Məqalədə müəlliflərin əsas fikri ingilis dilinin dünya səviyyəsində qlobal olması səbəbindən bu dilin tədrisinin vacibliyini vurğulamaqla yanaşı, ingilis dilinin tədrisinin bütün iştirakçılardan böyük səylər tələb etdiyini də nəzərə çatdırmaqdır.

An article "Approaches, methods, procedures and techniques of English language teaching and learning", co-authored by **Valida Karimova (PhD candidate), Vice-dean of the School of Humanities and Social Sciences, and Jafar Salimov, Senior Instructor of Azerbaijan State Pedagogical University**, Guba branch, has been published in "Philological issues", issue 8, 2018, Institute of Manuscripts named after Muhammad Fuzuli.

The main idea of the article is to emphasize the importance of teaching English since it is a world-wide spoken language. Furthermore, the authors underline that all English learners need to make great efforts.

***

Universitetin müəllimi Elza İsmayılovanın "Koroğlu dastanı: mənşəyi və yayıldığı ərazilər (Azərbaycan və Türkiyə versiyaları əsasında)" ("The Koroghlu Epic: Its Origin and Dissemination Areas (On the Basis of Azerbaijan and Turkey Versions)" adlı məqaləsi Rumıniyanın nüfuzlu, Thomson Reuters indeksli "Revista de Etnografie şi Folclor/ Journal of Ethnography and Folklore" jurnalında çap edilmək üçün qəbul edilmişdir. Jurnal cari ilin payızında çap ediləcək.

Məqalənin qəbul edilməsi və xülasəsini bu linklər vasitəsilə oxumaq olar:

http://www.academiaromana.ro/lef/lef_pubREF.htm

An article entitled "The Koroghlu Epic: Its Origin and Dissemination Areas (On the Basis of Azerbaijan and Turkey Versions)" by **Elza Ismayilova, Instructor of Khazar University**, has been accepted by "Revista de Etnografie şi Folclor/ Journal of Ethnography and Folklore", a prominent Romanian journal indexed by Thomson Reuters, for publication. The journal is to be published in autumn of this year.

The article's acceptance and abstract can be read through these links:

http://www.academiaromana.ro/lef/lef_pubREF.htm
http://www.academiaromana.ro/lef/rev/REF2018.pdf

***

Universitetin əməkdaşı Cabir Məmmədlinin "Estetikanın ən qədim dövrlərində tragediya. Aristotelin tragediya konsepsiyası" (*"Tragedy in Ancient Period of Aesthetics. Aristotle's Tragedy Concept"*) adlı məqaləsi Ukraynanın beynəlxalq bazaya daxil olan "*Visnyk of The Lviv University (Philosophical Political studies)*" jurnalının 18-ci buraxılışında (səh. 150-156) çap edilmişdir.

An article entitled *"Tragedy in Ancient Period of Aesthetics. Aristotle's Tragedy Concept"* by **Jabir Mammadli, a Khazar University associate**, has been published in *"Visnyk of The Lviv University (Philosophical Political studies)"*, number 18 (p.150-156), a Ukrainian journal included in an international database.

***

***

Psixologiya departamentinin koordinatoru, Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimovanın "İncəsənətdə psixoloji təhlil nümunəsi: Professor Hamlet İsaxanlının "Yaşamağa nə var ki..!" şeirinin William Glasser-in gerçəklik terapiyasına görə təhlili" adlı məqaləsi "Filologiya məsələləri" jurnalının 2018-ci il 11-ci sayında çap edilmişdir.

An article entitled "A sample of psychological analysis in art: analysis of Prof. Hamlet Isakhanli's poem "The life would be so easy!" based on William Glasser's reality therapy", by **Melek Karimova, Coordinator of the Department of Psychology and Director of Center for Psychological Service,** has been published in the journal of "Issues of Philology", number 11, 2018.

***

2018-ci il sentyabrın 7-də **Tarix və arxeologiya departamentinin müəllimi Dr. Telman Nüsrətoğlunun** Türkiyənin nüfuzlu qəzetlərindən biri olan "Türkiyə" qəzetində Suriyadakı proseslərlə bağlı "İdlib düğümü ve Suriye'nin geleceği" adlı məqaləsi çap edilmişdir.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

http://www.turkiyegazetesi.com.tr/yazarlar/genis-aci-fikir-ve-tartisma/604056.aspx

On September 7, 2018, an article dealing with the current events in Syria, entitled "Idlib knot and the future of Syria", authored by **Dr. Telman Nusretoglu, instructor of the Department of History and Archaeology,** was published in the newspaper "Türkiye", one of the influential newspapers in Turkey.

The article is available through the following link:

http://www.turkiyegazetesi.com.tr/yazarlar/genis-aci-fikir-ve-tartisma/604056.aspx

***

2018-ci il sentyabrın 12-də "Avrasiya" İnformasiya Agentliyinin rəsmi internet səhifəsində **Xəzər Universitetinin məzunu, Tbilisidə Azərbaycan Dövlət Neft Şirkətinin Gürcüstan nümayəndəliyinin əməkdaşı, iqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayevanın** "Gürcüstanda yaşayan soydaşlarımızın ana dili və kadr problemi" adlı məqaləsi yayımlanmışdır.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

http://avrasiya.net/region/29414-grcstanda-yaayan-soydalarmzn-ana-dl-v-kadr-problem.html

On September 12, 2018, an article entitled "Native language and personnel problem of our compatriots living in Georgia" **by Aygul Isayeva, PhD in Economics, a Khazar University graduate and associate of the Georgian Representative Office of the State Oil Company in Tbilisi,** was released on an official website of "Avrasiya" Information Agency.

Full article is available through the following link:

http://avrasiya.net/region/29414-grcstanda-yaayan-

***



"HƏYAT VƏ KARYERANIZDA ELƏ BİR SEÇİM EDİN Kİ, SİZƏ BÜTÜN QAPILARI AÇA BİLSİN"

2018-ci il iyunun 8-də Banker.az saytında Xəzər Universitetinin məzunu Xəyalə Elyazova ilə dərc olunmuş müsahibəni oxucularımıza təqdim edirik.

Təhsil

1999-2003- Xəzər Universiteti,bakalavr
2005-2007-BI Norwegian Business School, MSc in International Management
2015-2015- INSEAD, Executive education
2014-2016 -University of Cambridge Executive

Peşəkar təcrübə

2003-2005 -BP, Maximo Project management
2008-2017- Microsoft, müxtəlif baş idarəedici vəzifələr, Avropa və Asiya ölkələri üzrə
2017- Avgust - PwC London , Senior manager (Baş Menecer - İnvestisiyaların idarə edilməsi, konsaltinq, maliyyə xidmətləri üzrə)

- Xəyalə xanım, Azərbaycanda normal hesab edilən universitetlərdən birində təhsil alırdınız - təhsilinizi xaricidə davam etdirmək fikri birdən-birəmi yarandı , ya bu istəyin yaranmasında hansısa hadisəyə borclusunuz?

Xəzər Universiteti, həqiqətən də, Azərbaycanda ön yerlərdən birini tutur. Universitetə daxil olduğum 1999-cu ildə isə Xəzər Universiteti artıq öz sözünü demiş, irəliyə gedən, gələcəyi çox parlaq bir təhsil ocağı kimi görsənirdi. Əminəm ki, bu, hazırda da belədir. Amma bir şeyi çox əminliklə bildirim ki, magistr dərəcəsi üzrə xarici ölkəyə üz tutaçaqdım, çünki o zamanlar yeni biliklər, həyat təcrübəsi və ümumiyyətlə yenilik axtarışında idim.

- Norveçdə olan universiteti özünüz seçdiniz, ya seçim olaraq bura münasib oldu? Ümumiyyətlə, qəbul prosesi çətin idimi? Daha çox hansı mərhələ sizin üçün "chanllage" rolunu oynadı?

- Təkcə istəməklə, arzu etməklə. Bakalavriatı fəxri diplomla bitirdikdən sonra BP-nin Bakıdakı ofisində çalışmağa başladım. Amma xaricdə magistr dərəcəsi üzrə təhsil almaq üçün grant və "scholarship" axtarışlarımı davam etdirirdim. Çox gözəl yadımdadır, bir gün mənə Xəzər Universitetindən işə zəng vurub bildirdilər ki, Norveçdən qonaqlar gəlib və universiteti fəxri diplomla bitirən, mən də daxil olmaqla, 20 tələbənin siyahısını istəyiblər. Bu tələbələri Bakıda bir həftə ərzində imtahan və sorğu - sual edib, nəticədə uğur qazananlar magistr dərəcəsi almaq üçün Osloya göndəriləcək və təhsili Norveç dövləti maliyyələşdirəcək. Təbii ki, sevincimin həddi - hüdudu yox idi. 2005 - ci il idi və bu dövrdə xarici dövlətin hesabına təhsil almaq çox nadir rast gəlinən bir hal idi. Norveçli professorlar özləri məni bir həftə ərzində sorğu - sual etdilər və yekunda 3 nəfərə universitetdə yer ayırdılar, onlardan biri də mən idim. Və beləliklə, yeni bir başlanğıc məni gözləyirdi.

- Səhv etmirikəsə, Norvecdəki təhsilinizi başa vurduqdan sonra Londonda Microsoft şirkətində işləməyə başlamısınız. Artıq, demək olar ki, prestijli bir işə sahib idiniz. Təhsilinizi daha nüfuzlu olan Cambridge Universitetində davam etdirmək fikri necə yarandı? İşləyərək hazırlaşmaq və qəbul prosesi çox ağır gəlmədi?

- Norveçdə təhsilimi bitirdikdən sonra Bakıya qayıtmışam. 2008-ci ildə mən Microsoftun Mərkəzi və Şərqi Avropa ölkələri qərargahı tərəfindən işə göttürülmüşəm. Bu proses də asan olmadı, lakin xaricdə aldığım magistr dərəcəsinin əhəmiyyəti böyük oldu. 2009-cu ildə məni Microsoftun Avropa əməliyyatları üzrə qərargahı olan İrlandiyanın Dublin ofisinə işə dəvət etdilər. 2009-2015-ci illərdə İrlandiya ofisində bir neçə idarəedici vəzifələrdə işləmişəm. Təbii ki, əldə etdiyim təcrübə əvəzolunmaz idi. Karyeram çox müvəffəqiyyətli olsa belə, yeni liderlik, rəhbərlik, idarəedicilik bilikləri əldə etməyi lazım bilirdim. Bir də ki, daima öz üzərimdə işləməyi çox sevirəm. Bunları nəzərə alaraq, dünyanın güclü 4 universitetinə müraciət etdim və demək olar ki, hamısından təklif (qəbul məktubu) aldım. Ancaq Cambridge Universiteti mənim çoxdankı arzum idi, ona görə Executive MBA təhsili/dərəcəsi üzrə bu universiteti seçdim. Bəli, işləyərək oxumaq, hazırlaşmaq çox çətin idi, ancaq fikirləşəndə ki, gələcəkdə hansı qapılar mənim üçün açılacaq, bu çətinliklər mənə çox cüzi gəlirdi.

- Cambridge-lə bərabər həmçinin İNSEAD-da təhsil almısınız. Ümumiyyətlə, çəkilən əziyyətə dəyərdimi?

- Əlbəttə, sözsüz dəyərdi və indiyə kimi də töhfəsini görürəm. INSEAD-da təhsilim Microsoft şirkəti tərəfindən maliyyələşdirilirdi. Şirkət az hallarda olsa da, iş məhsuldarlığı yüksək olduğu tədqirdə yüksək reytinqli universitetlərdə oxumaq üçün maliyyə ayırır.

- Xəyalə xanımı, açığı, Azərbaycan xanımının bu qədər uğurlu, bu qədər parlaq və bu qədər məqsədyönlü fəaliyyəti bizi sevindirməyə bilməz. Xahiş edirəm, hələ ki universitetdə oxuyan və ya oranı bitirmiş qızlarımıza məsləhət verərdiniz - necə uğurlu olsunlar?

- Məqsədyönlü və əzmkar olmaq lazımdır. Xanımlarımızla qürur duyuram. Onların həm ölkə daxilində, həm də xaricdəki uğurları məni çox sevindirir. Özünüzə inanın və hər zaman əldə etdiklərimizlə qürur duyun və fəxr edin. Gələcək nəsillərin sizin kimi xanımlara "role models" ehtiyacı var. İşdə və ya harda olursa, bir-birinizə dəstək olun və karyeranızın başlanğıcında özünüzə "mentor" tapmağı, sizə yol göstərəcək, məsləhət verə biləcək birini axtarın. Məsləhətim budur ki, həyat və karyeranızda elə bir seçim edin ki, sizə bütün qapıları açа bilsin.

http://banker.az/h%C9%99yat-v%C9%99-karyeranizda-bir-secim-etdikd%C9%99-el%C9%99-bir-secim-edin-ki-siz%C9%99-butun-qapilari-aca-bilsin/

WEBMAIL KHAZAR UNIVERSITY GRADUATE GIVES AN INTERVIEW

On June 8, 2018, *banker.az* website posted an interview with Khayala Eyvazova, a graduate of Khazar University, INSEAD and Cambridge University who has worked for Microsoft, BP and PwC London.

The interview can be read through the link below:

http://banker.az/həyat-və-karyeranizda-bir-secim-etdikdə-elə-bir-secim-edin-ki-sizə-butun-qapilari-aca-bilsin/

AzNews.az

XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU GÜRCÜSTANDA KEÇİRİLƏN MARAFONUN QALİBİ OLUB

KHAZAR UNIVERSITY GRADUATE HAS WON THE MARATHON CONDUCTED IN GEORGIA

2018-ci il avqustun 20-də *aznews.az* xəbər portalı Xəzər Universitetinin məzunu və keçmiş əməkdaşı Aygül İsayevanın Gürcüstanda keçirilmiş "Həyat üçün Qanadlar - Dünya Qaçışı" adlı marafonda uğur qazanması və bu münasibətlə Azərbaycan Respublikası Diasporlarla iş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun ona təbrik məktubu göndərməsi haqqında geniş xəbər dərc etmişdir.

Xəbərdə göstərilir ki, Aygül İsayeva 2018-ci il iyunun 17-də Kvarelidə keçirilən və peşəkarların qatıldığı yarım marafonda 21,1 km məsafəni 1 saat 56 dəqiqəyə qət edərək, qadınlar arasında 3-cü yerə çıxıb. Qarşısına böyük məqsədlər qoyan həmyerlimiz Gürcüstanın Kazbeki dağlarında keçirilən tam marafonu (42 km) da uğurla sona çatdırıb.

Xəbərin tam mətnini bu linkdə oxumaq olar:

http://www.aznews.az/news/cemiyyet/182561.html#Kalibri

On August 20, 2018, *aznews.az*, the news portal, released the news that Aygul Isayeva, a graduate and former employee of Khazar University, succeeded in the marathon "Wings for Life - World Run" conducted in Georgia and Fuad Muradov, Chairman of the State Committee for Work with Diasporas of the Republic of Azerbaijan, sent her a congratulatory letter in this regard.

According to the report, Aygul Isayeva took the 3rd place among women, having run 21.1 km distance for 1 hour 56 minutes, participating in a half - marathon which was attended by professionals and conducted in Kvareli on June 17, 2018. Having set great goals, our compatriot has also successfully completed the full marathon (42 km) in the Kazbeki Mountains in Georgia.

The full text of the news is available at:

http://www.aznews.az/news/cemiyyet/182561.html#Kalibri

XƏZƏR UNİVERSİTETİNİN BİR QRUP ƏMƏKDAŞINA QURBAN PAYI VERİLMİŞDİR

A GROUP OF KHAZAR UNIVERSITY ASSOCIATES HAVE BEEN GIVEN THE *SHARE OF EID AL - ADHA*

Avqustun 21-də Xəzər Universitetinin bir qrup əməkdaşına Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Nizami rayon təşkilatı tərəfindən Qurban payı verilmişdir.

On August 21, a group of Khazar University associates were given the share of Eid al-Adha by Nizami District Office of Azerbaijani State Administration and Public Service Workers' Trade Union.

525-ci qəzet

"525-Cİ QƏZET"DƏ DƏRC OLUNMUŞ MƏQALƏDƏ XƏZƏR UNİVERSİTETİNİN FƏXRİ DOKTORU TADEUŞ SVENTOXOVSKİNİN DƏ ƏSƏRLƏRİNDƏN BƏHS EDİLMİŞDİR

WORKS BY TADEUSH SVENTOHOVSKY, HONORARY DOCTOR OF KHAZAR UNIVERSITY, ARE MENTIONED IN THE ARTICLE PUBLISHED IN THE "525TH" NEWSPAPER

"525-ci qəzet"in 2018-ci il 27 avqust tarixli internet səhifəsində Rövşən Ağayev və Natiq İsayevin "Azərbaycan-Polşa münasibətlərinin tarixinə qısa ekskurs və Qarabağ" adlı geniş məqaləsi dərc olunmuşdur. Azərbaycan və polşa arasında ictimai-siyasi və mədəni əlaqələrin qurulması və inkişafına həsr olunmuş məqalədə Xəzər Universitetinin Fəxri doktoru, polyak mənşəli Amerika tarixçisi, Cənubi Qafqazın öyrənilməsi və xüsusən Azərbaycanın yeni tarixinin tədqiqi üzrə görkəmli mütəxəssis Tadeuş Sventoxovskinin (1932-2017) də Azərbaycanın tarixi ilə əlaqədar apardığı tədqiqatlardan və bu mövzuda çap olunmuş əsərlərindən bəhs edilmişdir.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

https://525.az/site/?name=xeber&news_id=105046#Kalibri&gsc.tab=0

On August 27, 2018, the "525th newspaper" published an article by Rovshan Agayev and Natig Isayev entitled "Short Excursion to the History of Azerbaijani-Polish Relations and Karabagh".

The article, dedicated to the establishment and development of socio-political and cultural relations between Azerbaijan and Poland, deals with researches and works by Tadeusz Sventohovsky (1932-2017), Honorary Doctor of Khazar University, American historian of the Polish origin, an expert on South Caucasus and a prominent expert in the study of the New History of Azerbaijan.

The article is available at:

https://525.az/site/?name=xeber&news_id=105046-Kalibri&gsc.tab=0

İLAHİYYAT İNSTİTUTU REKTORUNUN *PARALEL.AZ* - A MÜSAHİBƏSİ

INTERVIEW WITH THE RECTOR OF THE INSTITUTE OF THEOLOGY

2018-ci il avqustun 6-da *paralel.az* saytı Xəzər Universitetinin magistratura məzunu, İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədovla geniş müsahibə dərc etmişdir. Müsahibədə rektor yeni yaradılmış institutun təhsil şəraiti və maddi cəhətləri, tədris olunacaq fənlər və s. haqqında geniş məlumat vermişdir.

Müsahibəni bu linkdə oxumaq olar:

https://paralel.az/article/az/63612-%C4%B0lahiyyat+%C4%B0nstitutunun+rektoru%3A+%E2%80%9CAteizm+v%C9%99+onun+tarixi+ciddi+%C3%B6yr%C9%99nilm%C9%99lidir%E2%80%9D+-+M%C3%9CSAH%C4%B0B%C6%8F%2BV%C4%B0DEO.html#Kalibri

On August 6, paralel.az web site released the interview with Jeyhun Mammadov, Master graduate of Khazar University, rector of the Institute of Theology.

In the interview, the rector provided detailed information on the educational conditions, financial features of the newly established institute, subjects to be taught and other important issues.

The interview is available at:

https://paralel.az/article/az/63612-%C4%B0lahiyyat+%C4%B0nstitutunun+rektoru%3A+%E2%80%9CAteizm+v%C9%99+onun+tarixi+ciddi+%C3%B6yr%C9%99nilm%C9%99lidir%E2%80%9D+-+M%C3%9CSAH%C4%B0B%C6%8F%2BV%C4%B0DEO.html#Kalibri

AZƏRBAYCANLI İLAHİYYATÇILAR ABİTURİYENTLƏRƏ ÇAĞIRIŞ ETDİLƏR

THE AZERBAIJANI THEOLOGIANS CALLED FOR THE ABITURIENTS

Avqustun 8-də *cia.az* və *olaylar.az* saytlarında, "Yeni Müsavat" qəzetinin internet səhifəsində AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi, dosent Elvüsal Məmmədov, Elm Tarixi İnstitutunun Elmşünaslıq və elmin sosial problemləri şöbəsinin baş elmi işçisi, dosent Ələddin Məlikov, akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi, dosent İlkin Əlimuradov, Fəlsəfə İnstitutunun Etika şöbəsinin böyük elmi işçisi, dosent Anar Qafarov və Xəzər Universitetinin fəlsəfə departamentinin müəllimi Mail Yaqubun abituriyentlərə müraciəti dərc edilmişdir. Onlar abituriyentlərə İlahiyyat İnstitutunu seçməyə çağırış ediblər.

Müraciəti aşağıdakı linklərdə oxumaq olar:

http://cia.az/news-view/98570-Azerbaycanli-ilahiyyatchilar-abituriyentlere-chagirish-etdiler#Kalibri

http://olaylar.az/news/sosial/291066#Kalibri

http://musavat.com/news/azerbaycanli-ilahiyyatcilar-abituriyentlere-cagiris-etdiler_547126.html#Kalibri

On August 8, the appeal to the abiturients, made by Assoc. Prof. Elvusal Mammadov, Leading Research Fellow of the Department of History of Religion and Public Opinion of the Institute of Oriental Studies named after academician Z.M. Bunyadov of ANAS, Assoc. Prof. Aladdin Malikov, Senior scientific worker of "Science and Social Problems of Science" Department of the Institute of History of Science, Assoc. Prof. Ilkin Alimuradov, Leading Research Fellow of the Department of History of Religion and Public Opinion of the Institute of Oriental Studies named after academician Z.M. Bunyadov, Prof. Anar Qafarov, Senior Research Fellow of the Department of Ethics at the Institute of Philosophy and Mail Yagub, lecturer at the Department of Philosophy of Khazar University, was released on cia.az and olaylar.az websites and on the internet page of "Yeni Musavat" newspaper. They urged abiturients to choose the Institute of Theology.

The information is available at:

http://cia.az/news-view/98570-Azerbaycanli-ilahiyyatchilar-abituriyentlere-chagirish-etdiler#Kalibri

http://olaylar.az/news/sosial/291066#Kalibri

http://musavat.com/news/azerbaycanli-ilahiyyatcilar-abituriyentlere-cagiris-etdiler_547126.html#Kalibri

"XƏZƏR"İN ƏMƏKDAŞLARI ÖLKƏ VƏ XARİCİ SİMPOZİUMLARDA

KHAZAR UNIVERSITY STAFF AT LOCAL AND INTERNATIONAL SYMPOSIUMS

***



Neft-qaz mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalov Avropa Yer alimləri və Mühəndisləri Assosiasiyasının Danimarkanın Kopenhagen şəhərində (*European Association of Geoscientists and Engineers (EAGE)*) iyunun 11-dən 14-dək keçirilmiş 80-ci illik konfransında "Şərqi Azərbaycanın struktur-geoloji xüsusiyyətləri və onun qumdaşı laylarının kollektorluq xassələrinə təsiri" mövzusunda məruzə ilə çıxış etmiş və həmin məruzənin genişləndirilmiş mətni "EAGE EathDoc" elektron jurnalında çap olunmuşdur.

On June 11-14, **Assoc.Prof. Gasham Zeynalov, Head of the Department of Oil and Gaz Engineering,** delivered a report on *"Structural and geological features of eastern Azerbaijan and its influence on collector properties of sandstone layers"* at the *80th Annual Conference of European Association of Geoscientists and Engineers (EAGE)*, held in Copenhagen city, Denmark. The enlarged version of the report was published as an article in "EAGE EathDoc" electronic journal.

***

İyulun 13-də **Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev** "Qafqazda Avropa inteqrasiyası və regional inteqrasiya sistemləri arasında rəqabət" mövzusunda təşkil edilmiş yay məktəbində "Avropalaşma mexanizmləri vasitəsilə münaqişə həlli: Dağlıq Qarabağ münaqişəsi nümunəsində" mühaziərəsi ilə çıxış etmişdir.

Yay məktəbi Qafqazda Avropaşünaslıq ixtisaslarının inkişaf etdirilməsi layihəsi (DESCnet) çərçivəsində İstanbul Yeditepe Universitetində iyulun 9-13-də keçirilmişdir.

On July 13, **Elmar Mustafayev, Coordinator of the Department of Political Science and International Relations,** delivered a lecture on "Europeanization and conflict resolution: the case of Nagorno-Karabakh conflict" in a summer school entitled "European Integration and Rivalry between Regional Integration Systems in the Caucasus". The summer school was held on June 9-13 at İstanbul Yeditepe University within the project "Developing European Studies in the Caucasus (DESCnet)".

***

***

Biologiya departamentinin doktorantı Muzhan Serpuş Türkiyənin Ankara şəhərində 2018-ci il iyulun 12-15-də keçirilən "Avrasiya Təbii Qida və Sağlam Həyat Sammiti"ndə iştirak edib.

Muzhan Serpuş konfransda ***"Azərbaycan arpa genotipində genetik müxtəlifliyin tədqiqi üçün müqayisəli molekulyar markerlər"*** mövzusunda şifahi təqdimat və ***"Puccinia striiformis f.sp. tritici*** genomu tərəfindən səbəb olan ***sarı pas xəstəliyinə*** ilkin mərhələdə buğda vəd edən xətt üzrə müqavimət komponentinin öyrənilməsi" mövzusunda poster təqdimatı ilə çıxış edib. Məqalələr "Türkiyə Kənd təsərrüfatı, Qida elmləri və Texnologiya" jurnalında çap ediləcək.

Moozhan Serpoush, a PhD student of Biological Sciences Department, participated in International 'EURASIAN Natural Nutrition and Healthy Life Summit 12-15 July 2018' Ankara, Turkey.

She delivered an oral presentation on "Comparative Molecular Markers for Studying Genetic Diversity in Azerbaijan Barley Genotypes" and "Study of Resistance Component on Wheat Promising Line in Seedling Stage to Yellow Rust Disease Caused by Puccinia striiformis f.sp. tritici" which has been presented as a poster presentation. Articles will be published at "Turkish Journal of Agriculture, Food Science and Technology"



***

Avqustun 4-də **Kompüter elmləri departamentinin doktorantı Abdulsalam S. Mustafa** Türkiyənin İstanbul şəhərində keçirilmiş "New Trends in Education: Teaching, Learning and Technology (EAERC)" adlı beynəlxalq konfransda "Nigeriyada 36 dövlət qanunvericiliyində Parlament vebsaytlarının nəzərdən keçirilməsi" mövzusunda məruzə etmişdir.

Konfrans materialları Scopus indexli jurnallarda dərc olunacaq.

On August 4, **Abdulsalam S. Mustafa, PhD student of Computer Science Department** of Khazar University, delivered a presentation on "A Review of Parliamentary Websites in the 36 State Legislatures in Nigeria" at the International Conference on New Trends in Education: Teaching, Learning and Technology (EAERC) held in Istanbul, Turkey.

The conference articles will be published in Scopus Indexed associated journals.

***

Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru, Psixologiya Departamentinin koordinatoru Mələk Kərimova Türkiyənin Ankara şəhərində Koqnitiv Davranış Psixoterapiyalar Dərnəyinin avqustun 12-17-də təşkil etdiyi təlimdə iştirak etmişdir. Bu dərnək Koqnitiv Terapiya Akademiyasının, Avropa Koqnitiv Davranış Terapiyaları Assosiasiyasının Türkiyədəki üzv qurumudur.


Təlim dərnəyin rəhbəri, bu sahədə tanınmış professor Mehmet Hakan Turkcapar tərəfindən keçirilmişdir.

Melek Kerimova, Head of Khazar University Psychological Service Center and Coordinator of Psychology Department, participated in a training course organized by the Cognitive Behavioral Psychotherapy Association in Ankara, Turkey, on August 12-17, This association is a member of the Cognitive Therapy Academy and a member of the European Cognitive Behavior Therapy Association in Turkey.

The training was conducted by Professor Mehmet Hakan, Head of the Association and a well-known professor in this field.

***

GÖRKƏMLİ ƏDİB TEYYUB QURBANIN "DÖNMƏZLİK" KİTABININ TƏQDİMATI



İyunun 27-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan adına klubunda görkəmli ədib Teyyub Qurbanın vəfatından sonra çapdan çıxmış "Dönməzlik" kitabının üçüncü nəşrinin təqdimat mərasimi keçirilmişdir. Mərasimdə ədibin qələm dostları, ədəbi ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Mərasimi giriş sözü ilə Teyyub Qurbanın əsərlərinin rus dilinə tərcüməçisi Sevinc Heydərova açaraq, onun çoxşaxəli yaradıcılığı haqqında geniş məlumat vermişdir. Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, tarix elmləri doktoru Nəsiman Yaqublu, "Qobustan" jurnalının baş redaktoru, şair Vaqif Əlixanlı, Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə, kinorejissor Nazim Rza, Xaçmaz ədəbi ictimaiyyətinin nümayəndəsi Füzuli Baratov və digərləri çıxış edərək, Teyyub Qurbanın yaradıcılığı haqqında fikir və mülahizələrini bildirmişlər.

Kitabın redaktoru və ön sözün müəllifi, "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev tədbirdə çıxış edərək, "Dönməzlik" povestinin yazılması və nəşri prosesi haqqında danışmış, Teyyub Qurban haqqında xatirələrini söyləmişdir.

Ə. Balayevin kitaba yazdığı ön sözü oxucularımıza təqdim edirik.

Redaktordan

"DÖNMƏZLİK"DƏN BAŞLANAN DÖNMƏZLİK YOLU

Azərbaycan tarixində yeganə bir şəxsiyyət var ki, eyni müəllif tərəfindən onun haqqında bütün ədəbi janrlarda əsər yazılıb. Azərbaycan ədəbiyyatında yeganə bir müəllif var ki, eyni şəxs haqqında bütün ədəbi janrlarda əsər yazıb. Həmin şəxsiyyət Məhəmməd Əmin Rəsulzadə, həmin müəllif Teyyub Qurbandır.

Bəri başdan qeyd etməliyəm ki, poeziya, proza, dramaturgiya və bədii publisistika janrlarında olan bu əsərlər ədibin yaradıcılığının müvafiq zirvələrini təşkil edirlər. Çünki mənbəyini təxminən 30 il əvvəldən alan bu yaradıcılıq çeşməsi ilk gündən necə böyük ilhamla çağlamağa başlamışsa, sonralar da axarını eləcə davam etdirmişdir.

Dünya ədəbiyyatında məşhur şəxsiyyətlər haqqında yazılmış əsərlər saysız-hesabsızdır. Bu şəxsiyyətlərin bəziləri yaşadıqları dövrlərin zaman və məkan şərtlərinə sığmayaraq hüdudları yarmağa meyilli olduqlarına və bəzən buna inadkarlıq göstərdiklərinə görə özlərində böyük təbəddülatları və ziddiyyətləri ehtiva etmiş olurlar ki, bu da onlar haqqında yazılmış əsərlərin də taleyini həll edir. Heykəllər devriləndən sonra həmin ədəbiyyat da süqut edir. "Leniniana"da və onlarla başqa misalda olduğu kimi...

Teyyub Qurbanın ədəbi qəhrəman sarıdan da bəxti gətirib. XX əsrdə Azərbaycan xalqının yetirdiyi ən nadir simalardan biri, Azərbaycan Xalq Cümhuriyyətinin banisi və respublikanın işğalından sonra da həyatının sonunadək Azərbaycanın istiqlaliyyəti uğrunda dönməz mübariz olan M. Ə. Rəsulzadə sağlığında olduğu kimi, sonrakı onilliklərdə də pak, nurlu, əqidəli, vicdanlı, mütəfəkkir şəxsiyyət kimi tanınmış və tanınmaqdadır. Dini, fəlsəfi və bədii təfəkkürlə dövlətçilik təfəkkürünü özündə birləşdirən bu dahi insanın nitqləri, məqalələri, o cümlədən "Azərbaycan şairi Nizami" adlı kitabı yüksək bilik, düşüncə və amalın bariz təzahürləridir. Əsərlərindən yüzlərlə aforizm əxz etmək olar. "Diriliklərin ən qiymətlisi milli dirilik -

dir" kəlamı kimi...

Teyyub Qurbanın M. Ə. Rəsulzadə ilə əlaqədar ilk yazısı 1990-cı ildə qələmə aldığı, həmin il "Respublika" qəzetinin 26 iyul tarixli nömrəsində dərc olunmuş "Mütləq Bakıya qayidacağam" adlı məqalədir. Məqalədə müəllif ötən əsrin 37-ci ilində M. Ə. Rəsulzadənin ailəsinin sürgün olunduğu Qazaxıstanın Karaqanda vilayətində onun oğlu Azərlə görüşündən bəhs edir. M. Ə. Rəsulzadənin ailəsi haqqında ilk xəbər olan bu məqalə "Respublika" qəzetində dərc edildikdən sonra Azərbaycan cəmiyyətində böyük əks-səda doğurmuş, Azərbaycanla Karaqanda arasında bir körpü yaratmışdı. M. Ə. Rəsulzadəyə və ailəsinə böyük ehtiramın təzahürü olaraq Bakıdan, Gəncədən, Şəkidən və digər bölgələrdən Azərə məktublar, bağlamalar göndərilməyə başlanmışdı... "Keşməkeşli ömrün unudulmaz anları" məqaləsində də ailənin məruz qaldığı məşəqqətlərdən söhbət açılır.

Teyyub Qurban M. Ə. Rəsulzadə haqqında ilhamla, ehtirasla qələmə alınmış "Himn", "Bayrağı yanında hanı bayraqdar?", "Dirilik gəmisi", "Bayraq abidəsi" və digər poetik nümunələrin, oxucuları təqdim olunan "Dönməzlik" sənədli povestinin, "Bir kərə yüksələn bayraq" adlı dram əsərinin və "Onun həyatı – xalqın həyatıdır", "Türkiyə qürbətdir, Rusiya vətən?", "Böyük mürşidimiz" və "Qəlblərdə yaşayan şəxsiyyət" analitik-publisistik, "Məhəmməd Əmin Rəsulzadə və Azərbaycanda ədəbi proses" adlı ədəbiyyatşünaslıq məqalələrinin müəllifidir.

Tale elə gətirib ki, Teyyub Qurbanın M. Ə. Rəsulzadəyə həsr olunmuş ilk bədii əsəri – "Dönməzlik" povesti ötən əsrin doxsanıncı illərinin ortalarında mənim baş redaktoru olduğum "Bakının səsi" qəzetində çap edilərkən, ilk oxucusu və redaktoru da mən olmuşam. Qəzetin hər yeni nömrəsini oxucuların necə səbrsizliklə gözlədiklərini və əsəri necə maraqla oxuduqlarını bir redaktor kimi yaxşı xatırlayıram. Müəllifin bir sıra publisistik yazıları, o cümlədən M. Ə. Rəsulzadəyə həsr olunmuş "Türkiyə qürbətdir, Rusiya vətən?" adlı dərin məzmunlu məqaləsi də sonralar yenə təsisçisi və baş redaktoru olduğum "Bakı post" qəzetində dərc edilmişdir.

"Dönməzlik" povesti qəzet nəşrindən sonra ilk dəfə 1997-ci ildə görkəmli yazıçı Qəşəm İsabəyliyə məxsus "Şirvannəşr" nəşriyyatında kitab halında çapdan çıxıb. Kitabın 2011-ci ildə "Qanun" nəşriyyatında ikinci nəşrinin təşəbbüskarı və gerçəkləşdiricisi Dalğa Gənclər Hərəkatı olmuşdur. Beləliklə də, ədəbi ictimaiyyət, geniş oxucu kütləsi romanla yaxçı tanışdır. Bununla belə, Azərbaycan Cümhuriyyətinin 100 illiyi ərəfəsində tanınmış ziyalıların və oxucuların arzusunu nəzərə alaraq, əsərin üçüncü nəşrini təqdim edirik.

Bu sətirləri yazarkən, iyirmi üç il əvvəlki hadisələri xatırladım. 1994-cü il dekabrın 18-də, Bakıda fövqəladə vəziyyətin elan olunduğu günlərdə Şəhriyar adına Bakı Mədəniyyət Mərkəzində Teyyub Qurbanın anadan olmasının 60 illiyi münasibətilə mərasim keçirilməli, sonra rejissor Sadıq İbrahimovun "Dönməzlik" sənədli povesti əsasında hazırladığı "Bir kərə yüksələn bayraq" tamaşasından bir hissə göstərilməli idi. Qeyd edim ki, "Bir kərə yüksələn bayraq" çoxplanlı, bədii-sənədli obrazlarla zəngin bir dram əsəridir. Hadisələr, əsas etibarilə, baş qəhrəman M. Ə. Rəsulzadə ətrafında baş versə də, dövrün geniş mənzərəsini əks etdirir. Baş qəhrəmandan əlavə, digər obrazlar da bitkin insan xarakterləri kimi yaradılmışdır.

Tədbirə az qalmış fövqəladə vəziyyət qərargahının nümayəndəsi gəlib, yubileyin keçirilməsini yasaq etdi, yalnız tamaşanın göstərilməsinə icazə verdi. Yubileyi də, heç olmasa, binadakı otaqların birində keçirməyə icazə almağa nail olduq. Aparıcısı mən olduğum həmin yübiley tədbirinin necə məhəbbət və səmimiyyətlə keçdiyini bu gün də xatırlayıram. Sonra ağzınadək tamaşaçı ilə dolu olan böyük zalda "Bir kərə yüksələn bayraq"dan göstərilən hissənin necə maraqla izləndiyi və alqışlarla qarşılandığı da yaxşı yadımdadır.

Kitabı üçüncü nəşrə hazırlayarkən dostum və sirdaşım Teyyubla birlikdə onu bir daha redaktə etdik, "Dönməzlik"in bu variantından çox razı qaldığını bildirdi. Ancaq talenin hökmü ilə onun "Dönməzlik"dən başlayan dönməzlik yolu şərəflə başa çatdı. Teyyuba kitabın yeni nəşrini görmək qismət olmadı. Ruhu şad olsun!

Mən əminəm ki, Azərbaycan xalqının böyük oğlu M. Ə. Rəsulzadənin və ailəsinin məşəqqətli həyatından bəhs edən və Azərbaycan Cümhuriyyətinin 100 illiyinə həsr olunan bu kitab oxucular tərəfindən yenə də böyük maraqla qarşılanacaq, ictimai fikrə öz dərin təsirini göstərəcəkdir. M. Ə. Rəsulzadə kimi şəxsiyyət isə yübileydən yubileyə deyil, daim xatırlanacaq, ehtiramla yad ediləcək, ona yeni-yeni əsərlər həsr olunacaqdır.

Əlirza Balayev,
əməkdar jurnalist

XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ ÜMUMDÜNYA FESTİVALINDA



Xəzər Universitetinin müəllimi, modelyer-dizayner, Azərbaycan Milli Geyimlər Mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilova Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə sentyabrın 2-dən 8-dək Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilmiş III Ümumdünya Köçəri Oyunları və Beynəlxalq Etnomədəniyyət Festivalında Azərbaycanı təmsil etmişdir.

Yetmiş yeddi ölkədən iştirakçıların gəldiyi Ümumdünya festivalında Gülnarə Xəlilova milli Azərbaycan geyimlərinin müasir stilistikada hazırladığı on nümunəsini "Turan" adı ilə nümayiş etdirmişdir. Geyimlərin nümayişi İssık-Kul gölünün sahilindəki amfiteatrda keçmiş, iştirakçıların böyük marağına səbəb olmuşdur.

Sputnik.az xəbər saytı da bu barədə xəbər yayımlamışdır. Xəbəri bu linkdə oxumaq olar:

https://ru.sputnik.az/culture/20180914/417027506/gjulnara-halilova-kyrgyzstan.

KHAZAR UNIVERSITY INSTRUCTOR AT THE WORLD FESTIVAL



Gulnara Khalilova, Khazar University Instructor, PhD in Art Studies, Director of Azerbaijan National Clothes Center, represented Azerbaijan, by the support of the Ministry of Culture of the Republic of Azerbaijan, in the III World Nomad Games and International Ethnoculture Festival held on September 2-8, 2018, in Cholpan-Ata city of Kyrgyzstan.

Participants from 77 countries participated in the world festival. Gulnara Khalilova demonstrated ten samples of Azeri clothes, prepared by herself, in modern style under the name "Turan". The demonstration of clothes was held in an amphitheatre situated on the coast of Issyk-Kul Lake and evoked participants' interest.

Sputnik.az news portal posted news on this event. Further information is available through the following link:

https://ru.sputnik.az/culture/20180914/417027506/gjulnara-halilova-kyrgyzstan.html










eiLink TƏQDİQATÇISININ MƏQALƏSİ

THOMSON REUTERS İNDEKSLİ JURNALDA



Xəzər Universiteti eiLink tədqiqatçı İzat Şahsenovun *"Modeling of the Cementation Factor and Hydraulic permeability using Mercury Injection Capillary Pressure (MICP) Measurements"* adlı məqaləsi *"Journal of Petroleum Science and Engineering"* jurnalının 2018-ci il 171-ci buraxılışında çap edilmişdir. Sözü gedən jurnal Thomson Reuters (SCI Impact Factor: 2,382) kimi təbiət elmləri, sosial və humanitar elmlər sahələri üzrə elmi-analitik informasiya təminatçısı olan dünyanın nüfuzlu təqdiqat platformasında indekslənir.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
https://www.sciencedirect.com/science/article/pii/S0920410518306910



ARTICLE BY eiLink RESEARCHER IN THOMSON REUTERS INDEXED JOURNAL

An article entitled "*Modeling of the Cementation Factor and Hydraulic permeability using Mercury Injection Capillary Pressure (MICP) Measurements*", by Izat Shahsenov, eiLink Researcher, was published in the Journal of Petroleum Science and Engineering (ISSN 0920-4115), vol. 171, 2018.

The journal is indexed by Thomson Reuters Web of Science (SCI Impact Factor: 2.382), the premier research platform for information in the sciences, social sciences, arts and humanities.


The abstract of the article is available at this link:
https://www.sciencedirect.com/science/article/pii/S0920410518306910

"DÜNYA" JURNALININ MAY-İYUN NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" Təhsil Kompleksinin nəşri olan "Dünya" jurnalının 2018-ci il may-iyun nömrəsi (26-cı nömrə) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.

MAY-JUNE ISSUE OF "DUNYA" JOURNAL IS PUBLISHED

May-June issue 2018 (number 26) of "Dunya" journal, a publication of "Dunya" Education Complex affiliated with Khazar University, has been published at the Khazar University press.



XƏZƏR UNİVERSİTETİNDƏ TƏLİM-TƏDRİS MƏRKƏZİ YARADILDI

EDUCATION AND TRAINING CENTER ESTABLISHED AT KHAZAR UNIVERSITY

Sentyabrın 12-də "Azərbaycan Universitetlərində Tədris və Təlimin Təkmilləşdirilməsi" (PETRA) adlı ERASMUS+ layihəsi çərçivəsində Xəzər Univeversitetində Təlim-Tədris Mərkəzi açıldı. Təlim-Tədris Mərkəzi direktor və direktor müavini olmaqla, iki nəfərlik heyətdən ibarətdir. Mərkəzin yaradılmasında məqsəd Xəzər Universitetində təlim-tədris prosesinin keyfiyyətini yüksəltmək, innovativ və yeni təlim metodlarını tələbələrin ehtiyaclarına uyğun tətbiq etmək, təlim və tədris prosesinin tədqiqat əsaslı olmasını təmin etmək və Xəzər Universitetinin kadr və elmi potensialını artırmaqdan ibarətdir. Təlim-Tədris Mərkəzi aşağıdakı vəzifələri həyata keçirəcək:

- Universitetin təlim-tədris strategiyasının hazırlanmasını və həyata keçməsini təmin etmək;
- Tələbə və müəllim heyətinin ehtiyaclarına uyğun olaraq seminar və kursların təşkilini təmin etmək;
- Doktorant tələbələrin və gənc tədqiqatçıların tədqiqatlarının uğurlu aparılmasını təmin edəcək seminar və kursların təşkilini həyata keçirmək;
- Müəllimlərin universitet həyatına sürətli adaptasiya olması üçün seminarlar təşkil etmək;
- Müəllimlərin keyfiyyətli tədris aparmaları üçün zəruri təlimləri müəyyənləşdirib, təşkil etmək;
- Tələbələrin ehtiyaclarını öyrənərək uyğun seminarları təşkil etmək;
- Doktorant tələbələrin və gənc tədqiqatçıların seminarlarını təşkil etmək;
- Bakalavr və magistr tələbələrin akademik yazı, statistik analiz və təqdimat bacarıqlarının artırılması üçün seminarlar təşkil etmək.

On September 12, within ERASMUS+ project "Promoting Excellence in Teaching and Learning in Azerbaijani Universities" (PETRA), Education and Training Centre was established at Khazar University. Education and Training Centre consists of a board of two members, Director and Deputy Director. The main aim to establish the Center is to raise the quality of education and apply innovative and new learning methods, ensure education is based on research, and increase staff and scientific potential of Khazar University. Education and Training Centre fulfils the following duties:

- Prepare and implement education strategy of the University;
- Organize workshops and courses in accordance with the needs of students and instructors;
- Organize workshops and courses to ensure the quality of researches conducted by PhD students and young researchers;
- Organize workshops for quick adaptation of instructors to university life;
- Define and organize workshops to ensure quality teaching by instructors;
- Organize workshops in accordance with the needs of students
- Organize workshops of PhD candidates and young researchers;
- Organize workshops for undergraduate and graduate students to develop their academic writing, statistical analysis and presentation skills.

"ZİRVƏYƏ DOĞRU" KAMERA MUSİQİ KONSERTİNDƏ

Xəzər Universiteti artıq dördüncü dəfədir ki, Azərbaycanda onuncu dəfə keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalında iştirak edir. Festival çərçivəsində sentyabrın 20-də Beynəlxalq Muğam Mərkəzində universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın Azər Dəmirovla (violin, ABŞ) birgə konserti olmuşdur. Onların birgə ifasında Sen-Sans, Brams, Debüssi, Qara Qarayev, Fikrət Əmirov və Murad Kəjlayevin, Zülfiyyə Sadığovanın öz ifasında isə List və Kəjlayevin əsərləri səsləmişdir.

Konsertdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor Firəngiz Əlizadə iştirak etmişdir.

CONCERT "TOWARDS THE TOP"

It is the fourth time Khazar University has participated in the Uzeyir Hajibeyli International Music Festival, organized for the tenth time in Azerbaijan. Within the festival, on September 20, Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts, Honored Teacher, a pianist, delivered a concert program with Azar Damirov (a violin, USA) in International Mugham Center. They jointly performed compositions by Saint-Saëns, Brahms, Debussy, Gara Garayev, Fikrat Amirov and Murad Kajlayev. Additionally, Zulfiyya Sadigova performed compositions by Liszt and Kajlayev.

Prof. Firangiz Alizadeh, Chair of the Azerbaijan Composers Union, People's Artist, attended the concert.



TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİ PROFESSORUNUN YENİ KİTABI ÇAP OLUNUB

Bakının Qurtuluşunun 100 illiyi münasibəti ilə Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, tarix elmləri doktoru, professor Nəsiman Yaqublunun "Qafqaz İslam Ordusunun Azərbaycanda izləri" kitabı "Nurlar" nəşriyyatında çapdan çıxmışdır.

Kitabda Qafqaz İslam Ordusunun azad etdiyi bütün bölgələr haqqında məlumat verilməklə yanaşı, bu savaşlarda şəhid olmuş və bugünədək Azərbaycanın müxtəlif bölgələrində qorunub saxlanılan türk əsgərlərinin məzarları ilə də bağlı məlumatlar var.

A NEW BOOK BY PROFESSOR OF HISTORY AND ARCHAEOLOGY DEPARTMENT PUBLISHED

On the occasion of the 100th anniversary of Liberation of Baku, the book "Traces of the Caucasian Islamic Army in Azerbaijan" by Nasiman Yagublu, Doctor of Historical Sciences, instructor of History and Archeology Department of Khazar University, was published in the "Nurlar" publishing house.

The book also provides information on all the regions liberated by the Caucasian Islamic Army, as well as information on the graves, of Turkish soldiers who were martyred in these battles, preserved in different parts of Azerbaijan.

"SPRİNGERNATURE" NƏŞRİYYAT EVİNİN NÜMAYƏNDƏLƏRİ KİM-DƏ OLDULAR

Sentyabrın 20-də "SpringerNature" nəşriyyat evinin nümayəndələri Merve Okur Karagülle və Selin Şencanlı Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzində (KİM) oldular. Nəşriyyat və Kitabxana-İnformasiya Mərkəzi arasında faydalı resursların əlçatan olması barəsində danışıqlar aparıldı.

Növbəti aylarda tədqiqatçılar üçün "Məqalələrin necə yazılması" haqqında təqdimatın təşkil edilməsi planlaşdırıldı.



REPRESENTATIVES OF "SPRINGERNATURE" PUBLISHING HOUSE VISIT LIC

On September 20, Merve Okur Karagulle and Selin Shencanli, the representatives of "SpringerNature" publishing house visited Library and Information Center at Khazar University and held discussions on the accessibility of useful resources for both sides.

It is planned to conduct a presentation on the topic "How to produce an article" in the upcoming months.

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI "ƏDALƏT" QƏZETİNƏ MÜSAHİBƏ VERDİ

2018-ci il sentyabrın 20-də "Ədalət" qəzetində Xəzər Universitetinin əməkdaşı Alik Əlioğlunun müsahibəsi yayımlanmışdır.

Müsahibəni bu link vasitəsilə oxumaq olar:
http://www.adalet.az/w156065/Az?rbaycanda_sair_olmaq_%C3%A7ox_g%C3%BCm%C9%99lidir_-_M%C3%9CSAH%C4%B0B%C6%8F/#.W6TGBfkzbIV

KHAZAR UNİVERSİTY ASSOCİATE GİVES AN İNTERVİEW TO NEWSPAPER "ADALAT"

On September 20, 2018, "Adalat" newspaper published an interview with Alik Alioglu, a Khazar University associate.

The interview is available through the following link:
http://www.adalet.az/w156065/Az?rbaycanda_sair_olmaq_%C3%A7ox_g%C3%BCm%C9%99lidir_-_M%C3%9CSAH%C4%B0B%C6%8F/#.W6TGBfkzbIV.





İSMAYILLI RAYONUNDA III "MƏMMƏD ARAZ POEZİYA GÜNÜ" KEÇİRİLİB

III "MAMMAD ARAZ POETRY DAY" HELD IN ISMAYILLI DISTRICT

Bu il aprelin 20-də Qazax rayonundan start götürən III "Məmməd Araz poeziya günü" çərçivəsində növbəti tədbir sentyabr ayının 7-də İsmayıllı rayonunda keçirilib.

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun, Azərbaycan Yazıçılar Birliyinin (AYB) dəstəyi ilə uşaq kitabxanasının böyük zalında keçirilən tədbirdə rayon icra hakimiyyəti aparatının məsul əməkdaşları, təhsil, mədəniyyət işçiləri, məktəblilər iştirak edib.

Məmməd Arazın qızı - "Ədalət" qəzetinin baş redaktoru İradə Tuncayın və millət vəkili, yazıçı Aqil Abbasın da qatıldığı ədəbi-musiqili məclis Xalq şairinin öz ifasında lentə alınmış şeirinin oxunması ilə başlayıb. Tədbirin aparıcısı, layihə rəhbəri - Xəzər Universitetinin müəllimi, şair Qardaşxan Əzizxanlı Məmməd Araz yaradıcılığının Azərbaycan ədəbiyyatındakı rolundan geniş danışıb. Tədbirdə çıxış edən Aqil Abbas, rayon icra başçısının müavini Sevil Əhmədova, icra hakimiyyətinin məsul işçisi Murad Məhərrəmov tərəfindən "Məmməd Araz poeziya müsabiqəsi"nin qalibi və iştirakçısı olmuş məktəblilərə Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun təsis etdiyi diplomlar, təşəkkürnamələr təqdim olunub.

Tədbirin bədii hissəsində müğənni Qalib Güləliyev şairin şeirlərinə bəstələnmiş mahnıları ifa edib.

The next event within III "Mammad Araz poetry day", which started in Gazakh district on April 20, 2018, took place in Ismayilli district on September 7.

Officials of the Executive Power of the district, education and cultural figures and pupils attended the event which was held on an organizational support of the Knowledge Foundation under the President of the Republic of Azerbaijan in the hall of a child library. Irada Tunjai, daughter of Mammad Araz and the editor-in-chief of "Adalat" newspaper, and Agil Abbas, a writer, also attended the literary-musical event which started with a recorded poem recited by People's Poet himself. Gardashkhan Azizkhanli, Project Manager and Instructor of Khazar University, who conducted the event, talked about the role of Mammad Araz in Azerbaijani literature. Agil Abbas, Sevil Ahmadova, Deputy-head of Executive Power, Murad Maharramov, an official of Executive Power, awarded pupils, winners and participants of "Mammad Araz Poetry Competition" with Diplomas and Certificates of Gratitude of the Knowledge Foundation under the President of the Republic of Azerbaijan.

In the artistic part of the event, Galib Gulaliyev, a singer, performed songs composed to the lyrics by the poet.





XƏZƏR UNİVERSİTETİNDƏ "YÜZ İLLİK ƏMANƏT: QAFQAZ İSLAM ORDUSU" ADLI PANEL KEÇİRİLDİ





Sentyabrın 18-də Bakı Yunus Emre İnstitutu və Xəzər Universitetinin birgə əməkdaşlığı ilə Xəzər Universitetinin Məmər zalında Bakının Qafqaz İslam Ordusu tərəfindən erməni-daşnak qüvvələrindən azad olunmasının 100-cü ildönümünə həsr olunan "Yüz illik əmanət: Qafqaz İslam Ordusu" adlı panel keçirildi. Paneldə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Xaricdə Yaşayan Türklər və Qohum Birliyi Başqanlığının vitse-prezidenti Sayit Yusuf, Şimali Kipr Bakı nümayəndəsi Ufuk Arca Turganer, Türkiyə səfirliyinin mətbuat müşaviri Hamid Karadeniz, TRT Bakı təmsilçiliyinin müdiri Murat Akkoç, Xəzər Universitetinin əməkdaşları o cümlədən Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, müəllimləri Orxan Zamanov, Ülviyyə İbrahimli, Samirə Qarayeva, tarix ixtisasının tələbələri və digər qonaqlar iştirak edirdilər.

Paneldə professor Hamlet İsaxanlı, Yunus Emre İnstitutunun rəhbəri Dr. Cihan Özdemir və Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Dr. Telman Nüsrətoğlu Qafqaz İslam Ordusunun quruluşu və Gəncədən Bakının işğaldan azad edilməsinə qədər davam edən çətin mübarizəsi, dövrün mürəkkəb geopolitik mənzərəsi, Azərbaycan-Türkiyə qardaşlığının tarixi kökləri haqda məruzələrlə çıxış etdilər.

Panel Türkiyə və Azərbaycan mediası tərəfindən geniş şəkildə işıqlandırılmışdır.





PANEL DISCUSSION "A HUNDRED YEAR HERITAGE: CAUCASIAN ISLAMIC ARMY" HELD AT KHAZAR UNIVERSITY

On September 18, on a joint collaboration of Yunus Emre Institute and Khazar University, a panel discussion "A hundred-year heritage: Caucasian Islamic Army", dedicated to the 100th anniversary of the liberation of Baku from Armenian-Dashnaks by the Caucasian Islamic Army, was held in "Marble" hall of Khazar University. Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Mr Sayit Yusuf, Vice-president of Association of Turks Living Abroad and Union of Relatives; Ufuk Arja Turganer, representative of Northern Cyprus in Baku; Hamid Karadeniz, Press secretary of the Turkish Embassy; Murat Akkoch, Director of TRT Baku Representative Office; Roza Arazova, Head of the Department of History and Archaeology; Orkhan Zamanov, Ulviyya Ibrahimli, Samira Garayeva, Khazar University associates, as well as students majoring in History at Khazar University participated in the panel. Prof. Hamlet Isakhanli, Dr. Cihan Ozdemir, Director of Yunus Emre Institute, Dr. Telman Nusratoghlu, Instructor of the Department of History and Archaeology of Khazar University, delivered speeches on the structure of the Caucasian Islamic Army, its struggle until liberation of Baku, complicated geopolitical situation of that time and historical roots of brotherhood of Azerbaijan and Turkey.

The panel was widely covered by Turkish and Azeri media.





PROFESSOR HAMLET İSAXANLI AZAD MİRZƏCANZADƏ HAQQINDA

PROFESSOR HAMLET ISAKHANLI SPOKE ABOUT AZAD MIRZAJANZADE

2018-ci il sentyabrın 20-si və 21-də İctimai Televiziyada "Azad Mirzəcanzadə" televiziya filmi nümayiş etdirildi. Filmdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının Azad Mirzəcanzadə şəxsiyyəti və onun elmi-pedaqoji fəaliyyəti haqqında fikirləri də əks olunmuşdur.

On September 20-21, 2018, "Azad Mirzajanzade" television movie was demonstrated on Ictimai TV. The movie also included the views of Hamlet Isakhanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, on personality of Azad Mirzajanzade and his scientific-pedagogical activity.

UCLA PROFESSORU MÜHƏNDİSLİK VƏ TƏTBİQİ ELMLƏR FAKÜLTƏSİNDƏ

UCLA PROFESSOR VISITED KHAZAR UNİVERSITY SCHOOL OF ENGINEERING

Sentyabrın 25-də Los Anceles Kaliforniya Universitetinin (UCLA) tanınmış professoru Dr. Piruz Kavehpour Xəzər Universitetində oldu. Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllimlərinin iştirak etdiyi dəyirmi masada Dr. Piruz UCLA-da apardığı nanotexnologiya və biomühəndislik tədqiqatları barədə məruzə ilə çıxış etdi.

Sonra nanotexnologiya və biomühəndislik üzrə birgə tədqiqatların aparılması, eləcə də, mübadilə proqramlarının icrası üçün universitetlər arasında müzakirələr aparıldı.

Görüşdə Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələrinin UCLA-nın müxtəlif mühəndislik fakültələri tərəfindən həyata keçirilən yay məktəblərində iştirakına dair razılıq əldə edildi. Yay məktəbləri müddətində Xəzər Universitetinin tələbələri yataqxana ilə təmin ediləcəklər.

Tərəflər Anlaşma Memorandumu imzalamağı qərara aldılar.

On September 25, Dr. Pirouz Kavehpour, a professor with high academic reputation from the University of California, Los Angeles (UCLA), visited Khazar University. All the staff of the School of Engineering and Applied Sciences participated in a round-table seminar with Dr. Pirouz who delivered an interesting scientific lecture on his research at UCLA related to Nanotechnology and Bioengineering.

Collaboration between the two universities on the joint research in the areas of bioengineering and nanotechnology was discussed. Student exchange and faculty exchange programs were also discussed.

The sides agreed on the participation of Khazar University students from the School of Engineering and Applied Sciences in UCLA's summer courses offered by various engineering departments on a discounted tuition basis. During the summer semester, Khazar University students will also be provided with the dormitory by UCLA.

The parties decided to sign the Memorandum of Understanding.

"MÜASIR GEYİM KOLLEKSİYALARINDA AZƏRBAYCAN MİLLİ ORNAMENTLƏRİNİN ƏKSİ MƏQSƏDİLƏ TƏLİMLƏRİN TƏŞKİLİ" LAYİHƏSİ BAŞA ÇATDI

PROJECT "TRAININGS ON THE EMBODIMENT OF AZERBAIJANI NATIONAL ORNAMENTS IN MODERN CLOTHES COLLECTIONS" IS OVER

Sentyabrın 10-dan 17-dək Bakıda keçirilmiş "Müasir geyim kolleksiyalarında Azərbaycan milli ornamentlərinin əksi məqsədilə təlimlərin təşkili" layihəsinin iştirakçılarına sertifikatlar verilmişdir.

Qeyd edək ki, təlimçilər arasında xalça rəssamı, Azərbaycan Rəssamlar İttifaqının üzvü, Xəzər Universitetinin müəllimi, universitetin nəzdindəki Xalça və Təsviri Sənət Muzeyinin direktoru Afaq Kərimova da var idi.

Bu haqda daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

http://sfera.az/genc-dizaynerlere-sertifikat-verildi-fotolar.

The participants of the project "Trainings on the embodiment of Azerbaijani national ornaments in modern clothes collections", held on September 10-17, were awarded certificates.

One of the trainers was Afag Karimova, a member of Azerbaijan Union of Artists, Instructor of Khazar University, and Director of Carpet Museum as well as Museum of Fine Arts at Khazar University.

More information is available through the following link:

http://sfera.az/genc-dizaynerlere-sertifikat-verildi-fotolar.



BİRİNCİ KURS TƏLƏBƏLƏRİ ÜÇÜN SEMİNAR

SEMINAR FOR FIRST-YEAR STUDENTS HELD

Sentyabrın 27-də Xəzər Universiteti Psixologiya departamentinin müəllimi Nilufər Əlizadənin təşkilatçılığı ilə "Guide to be a student" adlı seminar keçirildi. Seminarda Humanitar və sosial elmlər fakültəsinin birinci kurs tələbələri iştirak edərək, universitet həyatında baş verə biləcək çətinliklərin qarşısının alınması barəsində məlumat aldılar.

Tələbələr müzakirələrdə fəal iştirak edərək, sonda öz suallarına da ətraflı cavablar aldılar. Seminarda tələbələrə Xəzər Universitetinin Psixologiya və Konsultasiya Mərkəzi haqqında da məlumat verildi, ehtiyac olduqda, mərkəzə müraciət edə biləcəkləri qeyd olundu.

On September 27, on an organizational support of Nilufar Alizadeh, Instructor of the Department of Psychology at Khazar University, a seminar "Guide to be a student" was held. Students of the School of Humanities and Social Sciences participated in the seminar who were provided with information on how to cope with challenges of academic life. Students actively participated in the seminar and asked questions. Moreover, students were informed about the Center for Psychology and Consultancy at Khazar University where they can visit for support in case of need.





PETRA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ GÖRÜŞ

NEXT MEETİNG WİTHİN PETRA PROJECT HELD

Sentyabrın 27-də Xəzər Universiteti İnkişaf mərkəzi "Azərbaycan Universitetlərində Tədris və Təlimin Təkmilləşdirilməsi" (PETRA) adlı ERASMUS+ layihəsi çərçivəsində Azərbaycandan olan tərəfdaş universitetlərin növbəti görüşünü keçirmişdir.

Xəzər Universitetinin koordinatoru olduğu layihənin tərəfdaşları - Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti və Azərbaycan Universitetinin iştirakı ilə keçirilən görüşdə indiyə qədər layihədə həyata keçirilmiş fəaliyyətlər və layihə qarşısında duran vəzifələr, həmçinin universitetlərdə təlim və tədrisin keçirilməsi qaydalarının təkmilləşdirilməsi, noyabr ayında təlimlərin keçirilməsi məsələləri müzakirə edilmişdir.

On September 27, Center for Development at Khazar University organized a meeting with partner universities in Azerbaijan within the ERASMUS+ project "Promoting Excellence in Teaching and Learning in Azerbaijani Universities" (PETRA).

During the meetings, achievements within the project and challenges as well as preparation of rules on teaching and learning at universities were discussed. Through the coordination of Khazar University, partner universities - Sumgayit State University, Azerbaijan State Pedagogical University, Baku Slavic University, Azerbaijan University of Languages and Azerbaijan University had a discussion on plans and the trainings to be held in November.



DƏRS "MUZEY-SƏRGİ" ZALINDA KEÇİRİLDİ

Sentyabrın 28-də Xəzər Universiteti Təhsil fakültəsi tarix müəllimliyi ixtisasının 1-ci kurs tələbələrinə Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun tədris etdiyi arxeologiya fənni AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Muzey-sərgi" zalında keçirildi. Muzeydə keçirilən dərs tələbələr üçün olduqca maraqlı oldu. Dərs zamanı tələbələr onları maraqlandıran məsələlərlə bağlı çoxlu suallar verdilər və qeydlər apardılar.



LESSON WAS HELD AT THE "MUSEUM-EXHIBITION" HALL

On September 28, the first-year students, majoring in History, of the School of Education of Khazar University, had their Archaeology lesson, instructed by Orkhan Zamanov, Instructor of the Department of History and Archaeology, in the Museum and Exhibition Hall of the Institute of Archaeology and Ethnography, ANAS. The lesson was very interesting for the students. During the lesson, the students asked many questions and took notes.

"BEYNƏLXALQ KREDİT MÜBADİLƏSİ VƏ KREDİTLƏRİN TANINMASI PROSEDURU" ADLI TƏLİM



Sentyabrın 28-də Xəzər Universiteti İnkişaf mərkəzinin təşkilatçılığı ilə Erasmus+ PAWER layihəsi çərçivəsində universitet əməkdaşları üçün "Beynəlxalq kredit mübadiləsi və kreditlərin tanınması proseduru" adlı təlim keçirildi.

Təlimin məqsədi Bolonya prosesi, AKTS (ECTS), tələbə/əməkdaş mübadiləsi müqavilələri, mübadilə zamanı və sonrasında dəstək, mübadilə siyasəti və s. daxil olmaqla, tələbələr və işçilərin xarici universitetlərə təhsil mübadiləsinə dair mühüm məsələləri və Xəzər Universitetinin bu prosesdə rolunu, həmçinin görüləcək işləri nəzərə çatdırmaqdan ibarət idi.

Təlimə Xəzər Universitetinin müxtəlif fakültələrindən əməkdaşlar qatılmışdı və onlar öz təklif və irədlarını bildirdilər.

TRAINING ON "INTERNATIONAL CREDIT TRANSFER AND CREDIT RECOGNITION PROCEDURE" HELD

On September 28, on an organizational support of Center for Development at Khazar University, a training on "International credit transfer and credit recognition procedure" was held within Erasmus+ PAWER project for the staff of University departments.

The aim of the training was to inform the attendees about the Bologna process, ECTS, student/teacher exchange contracts, support through and after exchange programs, exchange policy as well as essential issues related to student and teacher exchange programs and the role of Khazar University in this process. The training was attended by staff of various schools who expressed their opinions and criticism.



DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI


TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımıza onlarla tanış edirik.

KANADA

VANKUVER KÜTLƏVİ KITABXANASI

Kitabxananın 428 minə yaxın fəal oxucusu var və bu rəqəmə görə Kanadanın kütləvi kitabxanaları arasında üçüncü yerdədir.

Kitabxana oxucularına 22 ünvanda xidmət göstərir. 2017-ci ildə oxucular tərəfindən 6,9 milyon müraciət qeydə alınmışdır.iştirak etməsidir.



ALLAH RƏHMƏT ELƏSİN!

"Dünya" Təhsil Kompleksinin və Xəzər Universitetinin kollektivləri "Dünya" Təhsil Kompleksinin müəllimi Mətanət Zamanovaya həyat yoldaşı

Xosrov Ağayevin

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ

BEYNƏLXALQ
BAKALAVR
TƏŞKİLATI

XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2018-2019-CU TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU ELANI



Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə bilik və tərbiyə ilə yanaşı, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-XI
İNGİLİS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və Diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir. Gündəlik dərs proqramından əlavə şahmat, kompüter, psixologiya, rəsm,texnologiya, musiqi, rəqs, dram və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarlq və vərdişlər formalaşır. Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK.
DÜNYA MƏKTƏBİ SİZİN
ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN
BİR MƏKTƏB. BİZİ SEÇSƏNİZ, İNANIRIQ
Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI
DÜNYA MƏKTƏBİNDƏ KƏŞF
EDƏCƏKSİNİZ.

Bakı, Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt, Bakı küçəsi 37
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seç!

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

5 QRUP

- Dizayn